# "Xankəndi" futbol klubu yaradıldı

**Azərbaycanda "Xankəndi" futbol klubu yaradılıb. Komanda 2024–2025-ci illər mövsümündə Region Liqasında çıxış edəcək.**

Klub hələlik ev oyunlarını Şamaxı Olimpiya Mərkəzində keçirəcək. Klubun təsisçilərindən olan Vasif İsmayılov mətbuata açıqlamasında bildirib ki, komandanın məşqləri Bakıda olacaq. Artıq heyət formalaşdırılıb, məşqlərə start verilib.

Klub funksioneri deyib ki, komandanın baş məşqçisinin adı iki həftədən sonra açıqlanacaq.

***XQ***




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 209 (30613) 25 sentyabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan müdafiə sənayemizin güc və qüdrətini nümayiş etdirir

## Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgilərində



Səhifə ⇨ 2

# Ölkəmiz üzünü yeniliyə tutub

*Köhnə vərdişlərindən əl çəkə bilməyənlər isə tərəqqini buxovlamaq barədə düşünürlər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeddinci çağırış Milli Məclisin ilk iclasında söylədiyi nitqində, bir növ, cəmiyyətin gələcək inkişafının yol xəritəsini göstərmiş oldu. Ölkə rəhbəri həmin çıxışında gözlərimiz önündə cəmiyyətin bütün sahələrində baş verənlərin xarakterini, eləcə də mütləq nəzərə almalı olduğumuz xarici amillərin geniş və dəqiq mənzərəsini canlandırdı.**



2024-cü ildə reallaşan prezident və parlament seçkilərinin müstəqil ölkəmizin tarixində ilk dəfə bütün ərazisində keçirilməsini tarixi hadisə adlandıran dövlətimizin başçısı İkinci Qarabağ müharibəsinin nəticəsini və suverenliyimizin tam bərpa edilməsini beynəlxalq miqyasda böyük əhəmiyyət kəsb edən tarixi hadisə kimi dəyərləndirdi. O, bu qələbələri şərtləndirən əsas amillər kimi Azərbaycan xalqının güclü iradəsini, bir yumruq ətrafında həmrəylik nümayiş etdirməsini xüsusi olaraq vurğuladı. 30 illik işğala son qoyulmasında bu amilin misilsiz rolunu, həqiqətən də, qeyd etməmək mümkün deyil.

*(ardı 5-ci səhifədə)*

# Kanaklar Fransanın cinayətini ifşa edirlər




Səhifə ⇨ 5

# Neftçala və Biləsuvarda da günəş elektrik stansiyası tikiləcək



Səhifə ⇨ 10

# Xalqımızın Qarabağ rəşadəti quruculuq meydanında davam edir

**Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin sentyabrın 23-də keçirilən ilk iclasında dövlətimizin başçısı çıxış edərək ikinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsindən sonra ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmləndiyini, xalqımızın qarşısında yeni imkanlar, yeni üfüqlər açıldığını vurğuladı.**



Azərbaycan lideri daha sonra hazırda qarşıda böyük vəzifələr durduğunu, ilk növbədə, hərbi sahənin daha da möhkəmləndirilməsinin, Qarabağı və Şərqi Zəngəzurun bərpasının prioritet istiqamət olduğunu, beləliklə, respublikamızın genişmiqyaslı quruculuq, inkişaf mərhələsinə qədəm qoyduğunu bildirdi. Prezident İlham Əliyevin sözügedən nitqində vurğulandığı kimi, bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası təbii olaraq bizim hər birimizin önəmli vəzifəsidir. İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra bu istiqamətdə geniş miqyaslı tikinti-quruculuq və abadlıq işlərinə başlanılması, bununla bağlı qısa bir zaman ərzində möhtəşəm nəticələr əldə olunması bunun parlaq ifadəsidir.

*(ardı 6-cı səhifədə)*

# Elmlə ictimai fəaliyyətin qovşağında



Səhifə ⇨ 9

# İrəvana və onun havadarlarına sərt xəbərdarlıq

*Bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq*



**Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində və ötənilki antiterror tədbirlərində qələbə çalsa da, Ermənistanda revanşist iddialar bitib-tükənmək bilmir. Özü də maraqlıdır ki, bu iddialar təkcə hakimiyyətə müxalifətdə olan hansısa siyasi qruplar tərəfindən deyil, son vaxtlar elə iqtidarın özü tərəfindən dilə gətirilir. Sonuncu dəfə Ermənistan xarici işlər nazirliyinin sentyabrın 19-da yaydığı bəyanatda bir il öncəki hadisələr "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilib.**

Baş nazir Nikol Paşinyanın da "etnik təmizləmə"dən danışdığını görmək olar. Bütün bunlar Qərbdəki havadarları tərəfindən hərtərəfli dəstəklənən rəsmi İrəvanın bölgədə yeni müharibəyə hazırlaşmasının mümkünlüyündən xəbər verir. Aydın görünür ki, Ermənistan hakimiyyəti hansısa "x" gününə ümid edir. Bu isə ordu quruculuğuna böyük diqqət yetirməyimizi, hərbi sənaye potensialımızın qüdrətinin artırılmasını və sərhədlərimizin toxunulmazlığını gücləndirməyimizi zəruri edir.

Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev sentyabrın 23-də Yeddinci çağırış Milli Məclisin ilk iclasında ölkəmizin qarşısında dayanan bəzi vəzifələr haqqında danışarkən qeyd olunan məsələlərə geniş yer ayırdı. Dövlətimizin başçısı hərbi gücümüzün artırılmasının bir nömrəli vəzifə olduğunu bildirdi: "Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə – nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir".

*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgilərində






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi ilə tanış olub.**




Müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına sərgilər haqqında məlumat verdilər.

İlk "ADEX" sərgisi 2014-cü ildə keçirilib. İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də, artıq 10 ildir fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir. Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30 mindən çox qonaq ziyarət edib.

Beşinci dəfə təşkil olunan "ADEX" Azərbaycanda və regionda müdafiə sənayesi və təhlükəsizlik sahəsində mühüm hadisədir. Bu genişmiqyaslı tədbir regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir. "ADEX" sərgisi qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayır.

"ADEX" dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında da mühüm rol oynayır.

Bildirildi ki, bu il yubiley sərgisində daha çox - dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edir.

Sərgi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir.

Qeyd edildi ki, "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri var. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. Bu il 12 ölkə sərgidə milli stendləri ilə iştirak edir. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya ilk dəfə milli stendlərlə iştirak edirlər. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev əvvəlcə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. "Azərsilah"a məxsus pavilyonda PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkcələr, aviabombalar və təlim simulyatorları nümayiş etdirilir.

Belarus Respublikasının pavilyonu ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, "Belspetsvneştexnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi Belarus Hərbi Sənaye Kompleksinə daxil olan dövlət müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsulların idxalı və ixracı proseslərini tənzimləyən dövlət təşkilatıdır. Sərgidə şirkətin qumbaraatan kompleksləri və onun tətbiq variantları, tank əleyhinə raket kompleksləri, atıcı silahlar və zirehli texnika üçün optik cihazlar, modernləşdirilmiş Reaktiv Yaylım Atəş Sistemlərinin maketləri, radiostansiyalar, hava hücumundan müdafiə və elektron müharibə texnikasının maketləri nümayiş olunur.

Sərgidə Serbiyanın "Yugoimport-SDPR" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət silahların istehsalı, yaradılması, modernləşdirilməsi və ixracı istiqamətində aktiv fəaliyyət göstərən serb şirkətləri sırasında birinci yerdədir. Sərgidə şirkət tərəfindən müxtəlif çaplı silah və sursat, o cümlədən hərbi ləvazimatlar təqdim olunur.

Qardaş Türkiyə sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Bu şirkətlərdən biri olan "Roketsan" 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda, şirkət bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

"Dearsan Shipyard" gəmiqayırma və gəmi təmiri zavodu inşa edildiyi 1980-ci ildən Türkiyənin ən mühüm müəssisələri arasındadır. "Dearsan" dəstək gəmisi, korvet (gözətçi) tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi-tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri, sursat istehsalı zavodu kimi müxtəlif mürəkkəb hərbi platformaların tikintisi üzrə ixtisaslaşıb.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Turkish Aerospace"dir. "Turkish Aerospace" sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadəsinə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Aerokosmik və müdafiə sahəsində ən yaxşı yüz qlobal şirkət arasında yer alan "Turkish Aerospace" tərəfindən dizayn və istehsal edilən bütün məhsullar üçün inteqrasiya olunmuş logistika xidməti də göstərilir.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış oldu. Bildirildi ki, ölkəmizlə əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Bildirildi ki, Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti Pakistanın birinci dərəcəli dövlət mülkiyyətində olan müdafiə konsorsiumudur və ölkənin ən böyük müdafiə istehsalatı müəssisələrini, o cümlədən, əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edir. Şirkət tərəfindən sərgidə döyüş PUA-ları, aviasiya raketləri, tank mühafizə sistemləri, maskalanma toru, tank əleyhinə sistemlər nümayiş olunur.

"Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti sərgidə fəal iştirak edir. "Azərsilah"ın daha bir pavilyonu sərginin 3-cü zalında fəaliyyət göstərir. Burada ziyarətçilərə müxtəlif növ atıcı silahlar, snayper tüfəngləri, minaatanlar, kiçikçaplı patronlar, müxtəlif növ mərmilər, zirehli dəbilqə və zirehli gödəkcələr, optik nişangah və cihazlar təqdim olunur.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "REPKON"-dur. Şirkət təzyiq ilə metal emalı sektoru üçün tam "açar təslim" istehsal qurğularının tədarükçüsü və qlobal bazar üçün metal emalı maşınlarının inkişaf etdiricisi və istehsalçısıdır. Patentli dizaynı və istehsal "know-how" ilə "REPKON", 1978-ci ildən etibarən dünya üzrə istehsalçılara metal qəlibləmə avadanlığı təqdim edir.

"ADEX" sərgisində iştirak edən Türkiyənin "Meteksan" şirkəti yüksək texnologiyalı şirkətlərin müdafiə sənayesinə yönəlik layihə və fəaliyyətlərini bir araya gətirmək və koordinasiya etmək məqsədilə yaradılıb. Şirkətin əsas məqsədi müdafiə sənayesi sahəsində Türkiyə Silahlı Qüvvələrinə və digər təhlükəsizlik güclərinə yerli, milli, müstəqil və orijinal, yüksək texnologiyalı məhsul və altsistemlər inkişaf etdirmək və istehsal etməkdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, Türkiyənin "Aselsan" şirkəti artıq beşinci dəfədir "ADEX" sərgisində iştirak edir. Şirkət 1975-ci ildən fəaliyyət göstərir və əsasən elektronika, aviasiya, silah, radar və optik, telekommunikasiya sistemləri, informasiya texnologiyaları və müdafiə sənayesi ilə əlaqədar digər texnoloji məhsullar istehsal edir.

Sərgidə Birləşmiş Ərəb Əmirliklərinin "EDGE Group" şirkəti də öz məhsullarını təqdim edir. 2019-cu ildən yaradılan şirkətin əsas fəaliyyət istiqaməti qabaqcıl innovasiyaları, məhsulları və xidmətləri beynəlxalq bazarlara çıxartmağa yönəlib. Şirkətin əsasən 5 istiqamətdə - platforma və sistemlər, raket və müxtəlif növ silahlar, kosmik və kibertexnologiyalar, daxili təhlükəsizlik vasitələrinin ixracı istiqamətlərində ixtisaslaşıb.

İsrailin milli pavilyonlarında nümayiş edilən eksponatlarla tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi ("IAI") milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir. "IAI" şirkəti sərgidə yerüstü sistemlər, çoxmissiyalı havadan kəşfiyyat və nəzarət sistemləri, radarlar, rabitə sistemləri, PUA-lar üçün komponentlər, çoxsahəli ballistik raketlər və rəqəmsal kommunikasiya peykləri nümayiş etdirir.

Sərgidə İsraili təmsil edən daha bir şirkət "RAFAEL Qabaqcıl Müdafiə Sistemləri" MMC-dir. Şirkət havada, quruda, dənizdə və kosmosda müdafiə, kibertəhlükəsizlik və təhlükəsizliklə bağlı qabaqcıl həllər təklif edir.

İsraili təmsil edən "Elbit Systems" dünya miqyasında müdafiə sahəsi ilə bağlı geniş spektrli proqramlarla məşğul olan beynəlxalq yüksək texnologiya şirkətidir. Şirkət sərgidə ordu idarəetmə mərkəzi, müxtəlif növ yüksək dəqiqlikli raketlərin istifadə olunduğu raket buraxılış qurğuları, avtonom 155 millimetrlik raket atış sistemi, dron və antidron sistemlərini təqdim edir.

Sərgidə İsrailin "Uvision" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət döyüşlərdə sınaqdan keçmiş "Dövr edən döyüş başlığı sistemləri"ni dizayn və istehsal edir, dünyanın müxtəlif ordularına dəqiq və effektiv hücum-əməliyyat imkanları təqdim edir. Şirkətin HERO sistemləri nadir aerodinamik platforma konfiqurasiyaları ilə yüksək dəqiqlikli zərbə qabiliyyətləri təqdim edir.

Rusiya Federasiyası da "ADEX-2024" sərgisində ən çox şirkətlə təmsil olunan ölkələrdən biridir. "Rosoboronexport" Rusiyanın müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə yeganə dövlət agentliyidir. Qlobal silah bazarında liderlərdən biri olan "Rosoboronexport" Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu təşkil edir. Agentlik Rusiyanın müdafiə sənayesi üzrə 700-dən çox müəssisə və təşkilatı ilə əməkdaşlıq edir. Stenddə şirkətin nəzdində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən məhsullar təqdim olunur.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının sərgidəki pavilyonunda da oldu. Məlumat verildi ki, bu ölkəni təmsil edən "Dəqiq Avadanlıqların İdxalı və İxracı üzrə Çin Milli Korporasiyası" ("CPMIEC") müdafiə sənayesi sahəsində ümummilli ticarət müəssisəsidir. "CPMIEC" sərgidə müdafiə xarakterli raket silah sistemlərinin, aerokosmik avadanlığın, peyk texnologiyalarının, xüsusi cihazların, dəqiq avadanlıqların, optik alətlərin, elektron məhsulların və xüsusi nəqliyyat vasitələrinin idxalı və ixracı ilə bağlı məlumat məhsulları nümayiş etdirir.

Slovakiya sərgidə ilk dəfə milli stendlərlə iştirak edir. Bu ölkənin 2014-cü ildən fəaliyyət göstərən "Deftech" şirkəti PUA sistemlərinin istehsalı və təkmilləşdirilməsi sahəsində fəaliyyət göstərir. Şirkət tərəfindən sərgidə müxtəlif növ zirehli nəqliyyat vasitələri və mobil müdafiə sistemləri təqdim olunur.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Baykar"dır. 1986-cı ildən fəaliyyət göstərən "Baykar" şirkəti ölkədə ilk yerli PUA sistemlərini istehsal edərək müdafiə və aviasiya sənayesində inqilab yaradıb. Şirkət sərgidə "Akıncı" adlı PUA, "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsullarını təqdim edir.

Qətər Dövləti də sərgidə ilk dəfə milli stendlərlə iştirak edir. "Barzan Holdings" dövlətə məxsus müdafiə və təhlükəsizlik şirkətidir. Şirkət Qətərin Müdafiə Qüvvələrinin inkişafını və modernləşdirilməsini dəstəkləmək məqsədilə müxtəlif sahələrdə fəaliyyət göstərir. "Barzan Holdings" sərgidə Qətərin müdafiə və təhlükəsizlik texnologiyalarını nümayiş etdirir.

Sərgidə Ukraynanı bu ölkənin Müdafiə Sənayesi Müəssisələrinin Milli Assosiasiyası ("NAUDI") təmsil edir. 2020-ci ildə yaradılan "NAUDI"nin fəaliyyət sahəsinə zirehli nəqliyyat vasitələri, özüyeriyən haubitsalar, PUA-lar, radarlar, radioelektron mübarizə vasitələri, kamikadze dronları, müşahidə və kəşfiyyat sistemləri, artilleriya, sursat və s. daxildir. Assosiasiyanın tabeliyindəki müəssisələr Ukrayna Müdafiə Nazirliyini NATO standartlarına cavab verən müasir hərbi texnika və sursatlarla təmin edən əsas təchizatçılardır.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Nazirliyinin stendində də oldu. Bildirildi ki, Müdafiə Nazirliyi sərgidə ilk dəfə öz stendi ilə təmsil olunur. Stenddə silahlanmada olan müasir silah sistemləri, o cümlədən Xüsusi Təyinatlı Qüvvələrin təchizat vasitələri sərgilənir. Eyni zamanda, Müdafiə Nazirliyinin tabeliyində olan təmir müəssisələrinin imkanları da təqdim edilir.

Sərgidə, həmçinin ziyarətçilərə Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri barədə ətraflı məlumat verilir.

Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

"Azərsilah" QSC tərəfindən sərginin açıq havada nəzərdə tutulmuş ərazisində zirehli maşınlar, kəşfiyyat və kamikadze dronları, o cümlədən PUA-lar nümayiş etdirilir.

Sumqayıt Texnologiyalar Parkı (STP) da sərgidə fəal iştirak edir. STP regionda ərazisinə görə ən böyük sənaye məhsulları istehsal edən mərkəzlərdən biridir. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan STP 30-dan artıq istehsal sahəsi ilə öz sektorunun lideridir. Sərgidə şirkət tərəfindən silah və sursat, hava bombaları və hava raketləri, simulyatorlar və təlim sistemləri ilə yanaşı, yerüstü hərbi təlim avadanlıqları da nümayiş olunur.

İtaliya da sərgidə ilk dəfə iştirak edir. Bu ölkənin "Exclases Group" şirkəti aviasiya və kosmik sənaye üzrə marketinq, satış və texniki ekspertiza sahələrində ixtisaslaşmış müəssisədir. "Exclases Group" 2008-ci ildən etibarən "Leonardo Helicopters" şirkətinin etibarlı tərəfdaşı kimi hava gəmilərinin və avadanlıqların satışı və marketinqi ilə məşğul olur. Sərgidə şirkətə məxsus olan "Agusta Westland 109" helikopteri təqdim edilir.

Sərginin açıq havadakı ərazisində Azərbaycan Müdafiə Nazirliyi tərəfindən də zirehli texnikalar nümayiş etdirilir.

Türkiyənin "Baykar" şirkəti açıq havada da öz məhsullarını təqdim edir. Ziyarətçilər şirkətin istehsalı olan "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsulları ilə yaxından tanış ola bilərlər.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, "ADEX" və "Securex Caspian" sərgiləri iştirakçılar, ziyarətçilər və müxtəlif ölkələrdən gələn ekspertlər arasında təcrübə mübadiləsi aparmaq, həmçinin məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə şərait yaratmaq baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Builki sərgilərin əvvəlkilərdən fərqi daha çox ölkədən şirkət və nümayəndə heyətinin qatılmasıdır. İştirakçı ölkələrin sayının getdikcə artması isə bu sərgilərin bir çox dövlətin hərbi-sənaye müəssisələrinin diqqətini cəlb edən tədbir olduğunu təsdiqləyir.

***AZƏRTAC***

# "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinin iştirakçılarına

**Hörmətli sərgi iştirakçıları və əziz qonaqlar!**

Sizi "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayıram. Azərbaycana xoş gəlmişsiniz!

Ölkəmiz mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə və böyük peşəkarlıqla təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirmişdir. Azərbaycanın belə genişmiqyaslı və son dərəcə əhəmiyyətli tədbirləri keçirmək üçün müasir infrastruktura malik və təhlükəsizlik baxımından sabit ölkə olması dünya ictimaiyyəti tərəfindən hər zaman müsbət qiymətləndirilir. Bu il ölkəmizdə baş tutacaq dünyanın qlobal xarakterli mötəbər beynəlxalq tədbirlərindən sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 da bunun bariz nümunəsidir. Əminliklə söyləmək olar ki, artıq beşinci dəfədir təşkil olunan "ADEX" sərgisi əvvəlki illərdəki kimi yenə də yüksək səviyyədə keçiriləcəkdir. Müdafiə sənayesi də karbon tullantılarının azaldılması baxımından böyük potensiala malikdir. Hesab edirəm ki, COP29 öncəsi keçirilən "ADEX-2024" sözügedən mövzunun peşəkar müzakirəsi üçün əlverişli platformadır.

"ADEX" dost və müttəfiq ölkələrin tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında unikal rol oynayır. Bu sərgi dünya silah bazarında ixraca təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq, beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün geniş imkanlar yaradır. Tədbirdə dünyaca məşhur yüzlərlə şirkət öz məhsullarını nümayiş etdirir. "ADEX" müxtəlif ölkələrin öz müdafiə və müdafiə sənayesi sahələrini gücləndirmələri, istehsal imkanlarını artırmaları, müasir və innovativ vasitələri tətbiq etmələri və təcrübə mübadiləsi aparmaları baxımından önəmli tədbirdir.

Xüsusi qeyd edim ki, Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi məsələlərinə dövlət tərəfindən xüsusi diqqət yetirilir və bu sahələrin daha da inkişafı prioritet istiqamətlərdəndir. Son illərdə ölkəmizin müdafiə sənayesi çox sürətlə inkişaf edir. Mövcud istehsal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsi ilə yanaşı, yeni istehsal sahələrinin yaradılması üzrə işlər uğurla həyata keçirilir. Düzgün aparılmış islahatlar nəticəsində ölkəmizdə istehsal edilən müdafiə təyinatlı məhsulların çeşidi artırılmışdır və bu gün Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Həm Azərbaycanın Silahlı Qüvvələri müasir silah növləri ilə təchiz edilir, həm də dünya ölkələrinin müdafiə sənayesi şirkətləri istehsal etdiyimiz məhsullarla yaxından maraqlanırlar. Bir çox dost və müttəfiq dövlətlərlə müdafiə sənayesi sahəsində yeni əməkdaşlıqlar qurulur, mövcud əlaqələr uğurla davam etdirilir. Azərbaycan müdafiə sənayesi sahəsində dinamik inkişafa nail olmaqla hərbi-texniki imkanlarını genişləndirir.

Beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərimizin işğaldan azad edilməsində müstəsna rol oynamış Azərbaycan hərbi sənaye kompleksinin gücü və qüdrəti, ölkəmizdə istehsal olunan müasir silahlar da "ADEX" sərgisi çərçivəsində nümayiş olunur. Təsadüfi deyil ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də lokal xarakterli antiterror əməliyyatları zamanı Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində bu gün diqqətlə öyrənilir.

"ADEX" ilə paralel olaraq, hüquq mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirən "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi də keçirilir. Bu sərgidə nümayiş etdirilən məhsulların da iştirakçılar tərəfindən maraqla qarşılanacağına əminəm.

Əziz qonaqlar, bir daha hər birinizi Azərbaycanda görməkdən məmnunluğumu bildirir, bütün iştirakçılara və hər iki sərginin işinə uğurlar arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 23 sentyabr 2024-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 iyun tarixli 81 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 7.1-ci bəndin birinci cümləsində “saylı Əlavəsində” sözləri “nömrəli əlavəsində” sözləri ilə əvəz edilsin.

**2** Həmin Qaydaların 1 nömrəli əlavəsi – “İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında aparılan malların Siyahısı” yeni redaksiyada verilsin (əlavə olunur).

**3** Həmin Qaydaların 2 nömrəli əlavəsi – “İxracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) Siyahısı” üzrə:

3.1. “İxrac” hissəsinin “Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi” abzası ləğv edilsin;

3.2. “İdxal” hissəsinin üçüncü abzasının “Malların adı” sütunundan “Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr,” sözləri çıxarılsın.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bir ay müddətində:

4.1.1. ixracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında həyata keçirilən malların Siyahısı üzrə xarici iqtisadi fəaliyyətin mal nomenklaturası kodlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

4.1.2. bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan əlavənin “Qeyd” hissəsinin 1-ci bəndində göstərilən malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası kodlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 24 sentyabr 2024-cü il**

**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nın 1 nömrəli əlavəsi**

## İxracı və idxalı Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında həyata keçirilən malların

## SİYAHISI

**1** Döyüş təyinatlı hərbi texnika, hərbi silah, döyüş sursatı, onların layihələndirilməsi və istehsalı üçün avadanlıq, ehtiyat hissələr, həmçinin elmi-texniki məlumat, material və texnologiyalar (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına münasibətdə).

**2** Barıt, partlayıcı maddələr və qurğular, partlayış vasitələri, tezalışan maddələr və pirotexniki məmulatlar.

**3** Nüvə materialları, texnologiyaları, avadanlıqları və qurğuları, xüsusi qeyri-nüvə materialları.

**4** Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələr, psixotrop maddələr, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələr, narkotik vasitə və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlıq.

**5** Qan, qan komponentləri və onlardan hazırlanan preparatlar.

**6.** Emal edilməmiş almaz (ixracına münasibətdə).

**7.** İonlaşdırıcı şüa mənbələri, o cümlədən radioaktiv maddələr (radioaktiv tullantılar da daxil olmaqla), belə mənbələrin və maddələrin istehsalı üçün nəzərdə tutulan avadanlıq, təsərrüfat-məişət və tibbi əhəmiyyətli aparatlar istisna olmaqla, şüa verən aparatlar.

**Qeyd:**

**1** Bu Siyahı yivli və yivsiz idman, ov silahlarının və ya hədəfə atəş açmaq üçün digər silahların, kombinasiya edilmiş yivli və yivsiz silahların, onların hissə və ləvazimatlarının, patronlarının, pnevmatik silahlar üçün güllləciklərin (yalnız ov üçün nəzərdə tutulan barıt, döyüş sursatı istisna olmaqla, yalnız ov və idman üçün nəzərdə tutulan mallar) idxalına və ixracına şamil edilmir və göstərilən malların (əşyaların) idxalı və ixracı Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları”na uyğun olaraq tənzimlənir.

**2** Bu Siyahıda və bu Siyahının “Qeyd” hissəsinin 1-ci bəndində göstərilən mallar üzrə xarici iqtisadi fəaliyyətin mal nomenklaturası kodları, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

# Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının peşə bayramı günlərinin təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Hər il avqustun 23-ü Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilsin.

**2** Hər il sentyabrın 26-sı Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilsin.

**3** Hər il martın 16-sı Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilsin.

**4** “Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 avqust tarixli 2997 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 758 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 24 sentyabr 2024-cü il**

# Hikmət Hacıyev Putinin xüsusi nümayəndəsi ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakıda Rusiya prezidentinin Yaxın Şərq və Afrika ölkələri üzrə xüsusi nümayəndəsi, Rusiyanın XİN rəhbərinin müavini Mixail Boqdanovla görüşüb. Bu barədə məlumatı Rusiya XİN yayıb.**

Məlumata görə, sentyabrın 23-də baş tutan görüş zamanı tərəflər qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Nazirlər Kabinetində 2025-ci il üzrə dövlət büdcəsi və icmal büdcə layihələrinin müzakirəsi

**Sentyabrın 24-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilmiş hökumətin iclasında 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi, sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə olunub.**



Nazirlər Kabinetindən verilən məlumata görə, tədbirdə çıxış edən Baş nazir Əli Əsədov “Büdcə sistemi haqqında” Qanuna müvafiq olaraq 2025-ci il dövlət və icmal büdcə layihələrinin, həmçinin növbəti üç il üçün icmal büdcənin göstəricilərinin, sosial-iqtisadi inkişaf proqnozlarının Nazirlər Kabinetinə təqdim edildiyini deyib.

Baş nazir qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası, regional və beynəlxalq müstəvidə uğurlu addımları yeni reallıqlar yaradıb və bu reallıqlar 2025–2028-ci illəri əhatə edən növbəti ortamüddətli dövrdə Azərbaycanın yeni inkişaf mərhələsindəki strateji baxışını şərtləndirib.

Cari ilin Vətənimiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə əlamətdar olduğunu vurğulayan Əli Əsədov Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq ölkəmizin bütün suveren ərazisində növbədənkənar prezident və parlament seçkilərinin keçirildiyini, onların nəticələrinin xalqımızın Heydər Əliyev yoluna sədaqətini, Prezident İlham Əliyevin zəfərlərə yol açan uğurlu və məqsədyönlü siyasətinə inam və etimadını bir daha nümayiş etdirdiyini, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına birmənalı dəstəyinin növbəti ifadəsi olduğunu diqqətə çatdırıb.

O, Prezidentin Sərəncamına əsasən hər il sentyabrın 20-nin ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd olunacağını deyib. Qeyd edib ki, bu Sərəncam bu tarixi hadisənin əbədiləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

“Qlobal miqyasda artan geosiyasi gərginliklərə, beynəlxalq əmtəə bazarlarında volatil qiymətlərə, dünya ölkələrində borc və büdcə kəsirinin artmasına baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub. Cari ilin ötən dövrü ərzində əlverişli xarici mühit və “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya”sının uğurlu icrası nəticəsində ölkədə iqtisadi fəallığım davam etməsi, o cümlədən qeyri- neft-qaz sektorunun bütün sahələrində müsbət artım templəri müşahidə olunmaqdadır”, - deyən Baş nazir qeyd edib ki, 8 ayda ümumi daxili məhsul 4,3 faiz artıb, o cümlədən qeyri-neft sektorunda 7,0 faiz artım olub. Qeyri-neft sənayesində isə 7,8 faiz artım qeydə alınıb. Hazırda ölkənin strateji valyuta ehtiyatları 73 milyard dolları ötüb. Bu göstərici cari ilin sonuna gözlənilən ÜDM-in 100 faizi deməkdir və xarici dövlət borcunu 14 dəfəyə yaxın üstələyir. Birbaşa xarici dövlət borcumuzun səviyyəsi aşağıdır. Sentyabrın 1-i tarixinə bu göstərici 5,3 milyard dollar olmaqla ÜDM-in 7,5 faizini təşkil edir. Dünya üzrə ərzaq məhsullarının qiymətlərinin nisbətən azalaraq sabitləşməsi və bunun idxal qiymətlərinə təsiri, valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi inflyasiyanın aşağı səviyyədə olmasını şərtləndirib. O cümlədən tərəfimizdən təsdiq edilmiş müvafiq Tədbirlər Planının icrası antiinflyasiya tədbirlərinə öz töhfəsini verməkdədir, 2024-cü ilin 8 ayında orta illik inflyasiya 1,3 faiz, illik inflyasiya isə 3,5 faiz olub.

Baş nazir qeyd edib ki, ötən dövr ərzində müsbət makrofiskal göstəricilər, dünya enerji bazarlarında əlverişli qiymət, profisitli tədiyə balansı, dövlət büdcəsinə əlavə gəlir daxilolmaları nəticəsində 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılıb. Nəticədə büdcə gəlirləri 2,2 milyard manat, büdcə xərcləri isə təxminən 3.0 milyard manat artıb. Yenidən baxılmış büdcə ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, Böyük Qayıdışa dair Dövlət Proqramının icrası, beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili üzrə zəruri olan bir sıra əlavə xərclərin maliyyələşdirilməsinə imkan yaradıb.

Diqqətə çatdırılıb ki, 2025-ci il və növbəti üç ili əhatə edən Ortamüddətli Xərclər Çərçivəsi mövcud xarici və daxili makroiqtisadi mühit, büdcə siyasətinin əsas istiqamət və hədəfləri, büdcə qaydasının hədəfləri və makroiqtisadi proqnozlar nəzərə alınmaqla hazırlanıb. Növbəti il və ortamüddətli dövr üçün büdcə siyasəti aşağıdakı əsas çağırışlar nəzərə alınmaqla müəyyən edilib:

– “2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya”sında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi;

- Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə “Böyük Qayıdış”ın təmin edilməsi;

- ölkənin hərbi-müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi;

- NMR Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası;

- əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması üçün əlavə sosial dəstək paketi;

- dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının təmin olunması.

Daha sonra bir sıra ümumi məlumatları diqqətə çatdıran Əli Əsədov deyib: “2025–2028-ci illərdə makrofiskal çərçivənin parametrləri büdcə qaydasının ortamüddətli lövbərlərinə və Dövlət Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə saxlanılmasına əsaslanaraq hazırlanıb. Növbəti ilin büdcə hesablamalarında neftin qiyməti 70 dollar götürülüb. 2025-ci ildə dövlət büdcəsinin gəlirləri 36 milyard 616 milyon manat, xərcləri isə 39 milyard 667 milyon manat proqnoz edilir. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4 faizdir. Makroiqtisadi proqnozlara əsasən, 2025-ci ildə Ümumi Daxili Məhsulun 3,5 faiz, qeyri-neft sektoru üzrə 4,9 faizlik real artım tempi proqnozlaşdırılır. Ortamüddətli dövrdə isə qeyri-neft sektoru üzrə ÜDM-in artım tempi 5 faiz nəzərdə tutulur. Ortamüddətli perspektivdə neft-qaz sektorunda hasilatın azalması ilə artım tempinin zəifləməsi fonunda qeyri-neft iqtisadiyyatının inkişafı əsas hədəflərdən biridir”.

Prezidentin apardığı uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın artan iqtisadi imkanlarının əhalinin sosial müdafiəsinin və rifah səviyyəsinin təmin edilməsinə də mühüm töhfələr verdiyini vurğulayan Baş nazir qeyd edib ki, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmağa davam edəcək. Bütövlükdə, bütün istiqamətlər üzrə sosialyönümlü xərclər dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edir. 2025-ci ildə əməkhaqqı və sosial ödənişlərdə yeni artımlar 2 milyondan artıq vətəndaşı əhatə edəcək. Müasir-innovativ təhsilin inkişafı və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması məqsədləri üçün növbəti ilin dövlət büdcəsində daha böyük vəsait nəzərdə tutulub. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 17 faizini təşkil edir.

İşğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın birbaşa iştirakı və rəhbərliyi ilə geniş bərpa-quruculuq işlərinin sürətlə həyata keçirildiyini vurğulayan Ə.Əsədov bu məqsədlər üçün indiyədək dövlət büdcəsindən 17,5 milyard manata yaxın vəsait ayrıldığını, 2025-ci ildə daha 4 milyard manat vəsaitin ayrılmasının nəzərdə tutulduğunu bildirib. Deyib ki, “Böyük Qayıdış” çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi prosesi davamlı şəkildə həyata keçirilir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən birinin “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edildiyini xatırladan Ə.Əsədov bu ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan olunduğunu vurğulayıb, gələn il iqlim dəyişikliyi üzrə ayrılmış büdcə vəsaitləri də daxil olmaqla bütövlükdə, “yaşıl büdcə” xərclərində 16 faizdən çox artımın nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Baş nazir Azərbaycanın dünya miqyasına siyasi nüfuzunun artdığını, Avrasiyanın mühüm nəqliyyat və logistika qovşağı, həmçinin Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi statusunun möhkəmləndiyini, beynəlxalq nəqliyyat dəhlizlərinin, xüsusilə də Orta və Şimal–Cənub dəhlizlərinin inkişafı üçün tərəfdaş ölkələrlə davamlı olaraq birgə səylər göstərdiyini vurğulayıb.

Sonra maliyyə naziri Samir Şərifov “Azərbaycan Respublikasının 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri haqqında”, iqtisadiyyat naziri Mikayıl Cabbarov “Azərbaycan Respublikasının 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında”, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev “2025-ci il üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri” mövzularında məruzə ediblər.

Müzakirəyə yekun vuran Baş nazir Əli Əsədov qarşıda duran əsas vəzifələri elan edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Hökumət qarşısında qoyulan bütün vəzifə və tapşırıqların vaxtında, yüksək keyfiyyətlə və tam şəkildə icra olunacağına əminliyini ifadə edib.

Qeyd edək ki, büdcə zərfinə daxil olan sənəd və məlumatlar Azərbaycan Prezidentə təqdim olunacaq.

***XQ***

# Prezidentin nitqi: Müstəqil dövlətçiliyin manifesti

I MƏQALƏ

**Əminəm ki, Milli Məclis və onun deputatları öz işi ilə ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini bundan sonra da verəcək və Azərbaycanın dayanıqlı inkişafı təmin ediləcəkdir.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**



## Parlamentdən dünyaya mesaj və xalqa müraciət

Prezident İlham Əliyev elə liderlərdəndir ki, hər bir situasiyada əsas olan məqamları məharətlə dinləyicilərə və maraq göstərənlərə izah edə bilir. Aktual olan məsələləri gündəmə gətirir, dərin təhlilini aparır və əsaslı proqnozlar verir. Azərbaycan dövlətçiliyinin inkişafı, müstəqil xarici siyasət və bütövlükdə, yeni tarixi mərhələ kontekstində ifadə etdiyi fikirlərin hər biri üzərində düşünmək zərurəti yaranır. Onların kompleks halda yaratdıqları semantik, siyasi, ideoloji və geosiyasi mənaları isə fəaliyyətin başlıca istiqamətlərinin manifesti təsiri bağışlayır.

Milli Məclisdəki son nitqində vurğulanan özəlliklərin hər biri xüsusi qaydada yer almışdır. Burada mövcud vəziyyəti izah etməklə Azərbaycan dövlətçiliyi üçün faydalı olan fəaliyyət istiqamətlərinin müəyyən edilməsi üzvi surətdə birləşmişdir. Bu prizmada Prezidentin nitqinin bir sıra məqamları üzərində dayanmaq lazım gəlir.

## Müstəqillik dövrü seçkilərində bir ilk

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini elan edəndən bu yana bütün ərazisində seçki keçirmək imkanına malik olmamışdı. Ermənistan havadarlarının ciddi yardımı ilə ölkə ərazisinin müəyyən hissəsini işğal etmişdi və geri çəkilmək fikrində deyildi. Bu təcavüzün zərərli nəticələrindən biri müstəqil Azərbaycanın tam ərazisində dövlətimizin seçki keçirməsi imkanının əldən alınmasından ibarət idi. Həmin dövrdə yaradılmış ATƏT-in Minsk Qrupu isə məhz bu kimi, beynəlxalq hüquqa uyğun olmayan təzadı aradan qaldırmaq əvəzinə, müxtəlif bəhanələrlə hüquqsuzluğun ömrünü uzatmaqla məşğul oldu. Yaradılan andan düz 30 ilə yaxın müddətdə həmin bədnam qrup və onun həmsədrləri tutduqları yanlış yoldan dönmədilər.

Bununla Cənubi Qafqazda geosiyasi və hüquqi paradoks vəziyyəti bir növ "normaya" çevrildi – Ermənistan və havadarları özlərini inandırdılar ki, "elə belə də olmalıdır". Ancaq real politika məntiqi ilə düşünənlər bu vəziyyəti nonses kimi qiymətləndirdilər və onun bütövlükdə, daimi olmayacağına inandılar.

Lakin bu geosiyasi və hüquqi paradoks II Qarabağ savaşına qədər qaldı. Həmin müddətdə Azərbaycanın tam ərazisində seçki keçirmək imkanından məhrum edilməsinin beynəlxalq təşkilatlar tərəfindən hüquqi qiyməti verilmədi. Beynəlxalq təşkilatların işi ancaq separatçı ermənilərin və rəsmi İrəvanın işğal ərazisində təşkil etdikləri süni seçkini sözdə qınamaq olurdu. Onu tanımırdılar, lakin olmaması üçün də real addım atmırdılar. Bu da onu göstərirdi ki, beynəlxalq güclər gizli olaraq təcavüzkarı dəstəkləyir və məsələni ədalətli həll etmək fikrində deyillər.

## İkinci Qarabağ savaşı və tam suverenlik

Vətən savaşı hər şeyi tamamilə dəyişdi. Azərbaycan cəmi 44 günə "seçki paradoksu"nu aradan qaldırdı. Bütün bunlara görə, Prezident İlham Əliyevin parlamentdəki nitqində söylədiyi aşağıdakı fikirlər tarixi təsdiqedici əhəmiyyət kəsb edir: "İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir".

Deməli, Milli Məclisin hazırkı tərkibi faktiki olaraq Vətən savaşının yaratdığı yeni regional geosiyasi reallığın və tarixi uğurların birbaşa məntiqi nəticəsidir. Burada Prezidentin vurğuladığı ərazi bütövlüyü, tam suverenlik, xalqın əyilməz ruhu və lider-xalq birliyi millət vəkillərinin fəaliyyətlərinin başlıca stimulverici və istiqamətləndirici "mayaklar"ı olmalıdır. Dövlət başçısı parlamentə daşıdığı məsuliyyəti incəliklə anladır.

## "Seçki paradoksu"nun həlli

İlham Əliyevin Milli Məclisə seçkinin ümumi geosiyasi və siyasi özəlliyini də həmin kontekstdə gözəl ifadə etmişdir. Dövlət başıısı vurğulamışdır: "Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir... Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu".

Birincisi, 2024-cü il Azərbaycan tarixində iki mühüm məqama görə qalacaqdır: Prezident və parlament seçkiləri qısa ara ilə ardıcıl keçirilmişdir.

İkincisi, müasir müstəqillik tariximizdə ilk dəfə olaraq ölkənin bütün ərazisində keçirilmişdir. Bu iki məqam birgə 2024-cü ilin dövlətçilik tariximizdə yeri və rolunu rəmzləşdirmişdir. Bu tarixi milli yaddaşın vacib elementinə çevirmişdir.

Buradan fəlsəfi anlamı olan iki aspektdə bütövləşmə hadisəsi ilə bağlı qənaət əldə edə bilərik. Seçkidə prezident və parlament növlərinin vahid strateji xətt üzrə bir-birini tamamlaması mühüm hadisədir. Bununla Azərbaycan müstəqil dövlət olaraq seçkinin tam ərazidə hüquqa və suverenliyə xidmət etməsinə regionda ilk nail olan dövlət kimi tarixə düşdü. Qonşu dövlətlərdən heç biri buna hələlik nail ola bilməmişdir. Gürcüstanın iki bölgəsi işğal altındadır, Ermənistan isə özünə aid olmayan ərazidə "özünə aid olan seçki" keçirməyə cəhd göstərməklə, ümumiyyətlə, müstəqil dövlət anlayışına xələl gətirmişdir. Özü üçün bu anlayışın gerçəkçi məzmununu geosiyasi və siyasi saxtalaşdırmış və hüquqi baxımdan mənasızlaşdırmışdır.

Müstəqil dövlət kimi Azərbaycan prezident və parlament seçkilərini tam ərazisində demokratik qaydada keçirməklə həm də müasir müstəqil dövlət obrazını dünyaya təqdim etmişdir. Azərbaycan dövlətçilik ənənəsində tarixən mövcud olan üç qanun (hüquq) növünün ikisini ardıcıl olaraq reallaşdırmışdır. Onlardan biri dövlət başçısının legitim seçilməsi ilə rəhbər miqyasında qanunların inklüzivliyi və legitimliyini təmin etməkdir. Digəri isə parlament seçkisinin legitim keçirilməsi ilə xalq təmsilçilərinin qəbul edəcəkləri qanunların inklüzivliyinə nail olmadır.

## Müstəqillik və suverenlik üç qanunun işığında

Dövlətçilik ənənəsi baxımından məsələnin digər vacib qanuni tərəfi Prezidentin ifadə etdiyi "xalqın güclü iradəsi", "birliyi" və "dövlətin gücü" anlayışlarının təmsil etdiyi "xalqın əyilməz ruhu" anlamı ilə bağlıdır. Burada faktiki olaraq Azərbaycan toplumunun özünüformalaşdırması, özünüinkişafı və öztəkamül üsulu ifadə edilmişdir. Bununla Prezident Azərbaycan dövlətçiliyində üç mühüm qanun (hüquqi) aspektini vəhdətdə təqdim etmişdir: dövlət başçısı (lider) – parlament (xalqın təmsilçiləri), toplumun özünü yaratma fəlsəfəsi (toplumsal özünütəşkil qanunu).

Bunlar Azərbaycan parlamentinin tarixi rolunun çox vacib ideya və feili təməlləridir. Burada İlham Əliyev müstəqil dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən iki məqamı da parlamentarların diqqətinə çatdırmışdır. Həmin məqamlar Prezidentin "Yeni dövr, yeni çağırışlar" səslənişinin məzmun və məqsəd özəlliyindən qaynaqlanır. Onlar suverenlik gününün təsis edilməsi və Qərbi Azərbaycan istiqamətində fəaliyyətin yeni səviyyəyə yüksəldilməsidir.

## Yeni dövr, yeni çağırışlar: Dövlət suverenliyi günü

Ləyaqətli toplumlar və müstəqil dövlətlər həmişə tarixi saydığı hadisələri simvollaşdırmaqla onu xalqın yaddaşının bir elementinə çevirir. Azərbaycan müstəqil dövlət olaraq bu məsələyə ciddi diqqət yetirir. Ölkə Prezidenti sentyabrın 20-ni "dövlət suverenliyi günü" kimi rəmzləşdirməklə müstəqil dövlətçilik kontekstində tarixi addım atmışdır. Bununla bağlı Prezidentin Milli Məclisdə ifadə etdiyi aşağıdakı fikirlər çox maraqlıdır: "Dövlət suverenliyinin bərpa edilməsindən cəmi bir il keçir. Üç gün bundan əvvəl biz artıq bu günü bayram günü kimi qeyd etmişik".

Sentyabrın 20-nin suverenlik günü kimi yaddaşlara həkk olunması statik olay deyildir. Prezident nitqində bunun üçün başlıca şərti də açıqlamışdır. Yəni suverenlik gününün rəmzləşməsi arxayınçılıq üçün, yaddaşda belə bir tarixin varlığı ilə ancaq qürur duymaq üçün deyildir. Yəni "Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək".

Buradan Prezident tərəfindən müstəqil dövlətçiliyə aid hər bir simvolun, rəmzləşmənin və onların yaddaş elementinə çevrilmələrinin əhəmiyyətli bir cəhəti ilə bağlı nəticə çıxara bilərik. Suverenlik günü rəmz kimi Azərbaycan vətəndaşlarını daim dövlət və milli maraqlar naminə fəallığa səsləyir. Azərbaycan vətəndaşları bu mənada, yaradıcı olmalı və ölkənin yeni uğurlar əldə etməsi istiqamətində çalışmalıdırlar. Bunun ilk nümunəsini isə Prezident özü göstərir.

Müstəqil Azərbaycanda bu prosesin getməsi əlamətdar hadisədir. Bu o deməkdir ki, Azərbaycanda müstəqil dövlət quruculuğu tam siyasi varislik prinsipi çərçivəsində davam edir. Xatırlayaq: Ulu öndər Heydər Əliyev keçirdiyi görüşlərin birində bəyan etmişdi ki, Azərbaycan yalnız müstəqil dövlət kimi mövcud olacaq, heç kimin əsarəti altına düşməyəcək, kimsənin təsiri altında olmayacaq. Bütün bunlar tam suverenliyin əlamətləridir. Prezident İlham Əliyev Suverenlik Günü təsis etməklə iki məqamı qabartmışdır.

Birincisi, Azərbaycan tam suverenliyini Vətən müharibəsi və antiterror tədbirlərində əldə edilən qalibiyyətlər sayəsində təmin etmişdir. Bu baxımdan suverenlik haqqında danışmaq Azərbaycanın təbii haqqı və hüququdur.

İkincisi, Azərbaycan dövləti tam suverenlik anlamını tarixi yaddaş elementinə çevirməklə bu istiqamətdə əbədi irəliləmək, yəni kimsənin əsarəti altına düşməmək iradəsini ortaya qoymuşdur.

Nəhayət, Prezident İlham Əliyev bütün bunları 2024-cü ildə formalaşmış parlamentdə bəyan etməklə müstəqil dövlətçiliyin qanunyaradıcı ruhda inkişaf etdiriləcəyi əzmini nümayiş etdirmişdir. Azərbaycan parlamenti bundan sonra da dövlətçiliyə aid mühüm bəyanatların yeri, yaddaşı və qanunyaradıcı ruhu olacaqdır!

Suverenliyin tarixi yaddaş və fəaliyyət motivasiyası kimi daha geniş kontekstdə mənası Prezidentin vurğuladığı Qərbi Azərbaycan istiqamətinin prioritetliyi prizmasında daha aydın dərk edilir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ermənilərin təhlükəli oyunları

## *Azərbaycan istənilən ssenariyə hazırdır*

**Ötən nömrələrimizdə Qərbdə, ilk növbədə ABŞ-də "Qarabağ məsələsinin "diriltmə" prosesinə başlanılması barədə məlumat vermişdik. Bunu sentyabrın 19-da ABŞ Konqresində Tom Lantos İnsan Haqları Komissiyasında "Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan haqları" mövzunda keçirilən dinləmələr də təsdiqləyir. Dinləmələrdə sabiq separatçı rejimin nümayəndələri, xüsusən də "artsax respublikasının ombudsmanı" kimi təqdim edilən Geqam Stepanyan da iştirak edib. ABŞ, Fransa və erməniləri siyasi alətə çevirmək istəyən digər ölkələr belə hesab edirlər ki, "Qarabağ məsələsində" Ermənistanı dəstəkləməklə bir tərəfdən Bakıya təzyiq göstərə biləcəklər, digər tərəfdən isə Cənubi Qafqaz bölgəsində mövcudluğunu gücləndirəcəklər.**



Ermənilərin çox qucaq dəyişdiklərini rahatlıqla deyə bilərik. Bunu əminliklə deməyə tarixi faktlar da əsas verir. Ermənilərin dönük xislətindən geniş danışmağa ehtiyac duymuruq, bununla bağlı kifayət qədər faktlar, məlumatlar var. Ona görə də, iki əsrdən çox ruslara qulluq etmiş ermənilər indi də Qərbin qucağına atılırlar. Xüsusilə də İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın humanist və postmüharibə sindromundan əziyyət çəkən bir xalqın hökumətinə göstərdiyi anlayışlı siyasətdən sui-istifadə edən ermənilər Qərbdə macəra axtarırlar. Rusiya–Ukrayna müharibəsindən sonra geosiyasi vəziyyətin yaratdığı gərginliyin fonunda Qərbin Cənubi Qafqaz regionunda güclənməyə çalışması tendensiyasını fürsət kimi qiymətləndirən İrəvandakı qüvvələr valı dəyişməyə çalışırlar.

Buna görədir ki, Ermənistan bu yaxınlarda müxtəlif platformalarda və müxtəlif səviyyələrdə bəyan etdi ki, hətta ixtisar edilmiş formada da olsa, hansısa sülh müqaviləsini imzalamağa hazırdır. Xüsusilə də sentyabrın 10-da "İrəvan dialoqları" Beynəlxalq Forumunun açılışında Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycana sülh müqaviləsinin artıq razılaşdırılmış mətnini imzalamağa dəvət edildiyini bildirərək, sənəddə 13 bəndin və preambulanın tam razılaşdırıldığını, üç bəndin isə qismən razılaşdırıldığını bildirmişdi: "Sülhün və münasibətlərin bərqərar olması ilə bağlı razılaşdırılmış mətni ən qısa zamanda imzalamağa hazır olduğumu təsdiqləmək istəyirəm. Biz artıq razılaşdırılanları götürməyi, imzalamağı, əsas sənədə sahib olmağı və sonra qalan məsələlərin müzakirəsini davam etdirməyi təklif edirik".

Ermənistan xarici işlər nazirliyinin rəhbəri Ararat Mirzoyan da rəhbərinin dediklərini təkrarlayır. Fransanın Avropa və xarici işlər naziri Stefan Sejourne ilə birgə keçirilən mətbuat konfransında bildirmişdi ki, Ermənistan Azərbaycanla tezliklə sülh müqaviləsi imzalamağa hazırdır: "Biz razılaşdırılmış mətni tez bir zamanda imzalamağa hazırıq".

Maraqlıdır, İrəvanı belə tələsməyə hansı amillər vadar edir? Axı may ayında elə Paşinyan da, Mirzoyan da tam başqa mövqe sərgiləyirdilər. Paşinyan jurnalistlərlə görüşündə qeyd etmişdi ki, müqavilənin imzalanması üçün oradakı bütün prinsiplər razılaşdırılmalıdır. Hələ 2023-cü ildə Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan "Azatutyun" radiosunun sualına cavab olaraq bildirmişdi ki, "danışıqlarda belə bir yanaşma var: Əgər hər şey razılaşdırılmayıbsa, deməli, hələ heç nə razılaşdırılmayıb". İndi nə oldu ki, İrəvan yarımçıq sülh müqaviləsini imzalamağa razılaşır?

Məsələ ondadır ki, ermənilərin əsas məqsədi razılaşdırılmamış məqamların qaldığı ixtisar edilmiş sülh müqaviləsi ilə Azərbaycanın əl-qolunu bağlamaqdır. Ermənistan rəhbərliyinin ideyasına görə, o, bu natamam sazişi imzaladıqdan dərhal sonra Qərb nəzarətçilərinin dəstəyi ilə öz planının aktiv mərhələsinə keçmək istəyirdi. Yəni bir daha bütün platformalarda beynəlxalq strukturların və ya ayrı-ayrı Qərb dövlətlərinin (məsələn, ABŞ və Fransanın) iştirakı ilə Qarabağ ermənilərinin, onların təhlükəsizliyini təmin edən bədnam təminatların qaytarılması ilə bağlı məsələləri aktuallaşdırmağı planlaşdırırdı.

Təbii ki, Azərbaycan qısa zamanda İrəvanın və onun havadarlarının planını anladı və qabaqlayıcı addım atdı. Bakı açıq şəkildə bəyan etdi ki, Ermənistan hakimiyyətinin razılaşdırılmamış müddəaları istisna olmaqla, sülh sazişi layihəsinin imzalanması təklifini qəbuledilməz hesab edir. Eyni zamanda, o da birmənalı olaraq vurğulandı ki, Ermənistan layihənin mətnindən uyğun olmayan müddəaları çıxarmaqla sülh sazişinin imzalanmasına çağırış edir və bununla da mövcud problemləri növbəti mərhələyə saxlamağa çalışır. Ancaq Azərbaycan dəfələrlə bildirib ki, belə müqaviləni imzalamayacaq. Bununla bağlı Prezident İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı çıxışında vurğuladı ki, razılaşdırılmamış müddəaların sülh müqaviləsindən çıxarılması primitiv və qeyri-adekvat addımdır: "Mətndən çıxarılmış, yəni, onların istəyi ilə çıxarılması nəzərdə tutulan müddəalar vacibdir. Onlarsız sülh müqaviləsi natamam olacaq".

Azərbaycanın mövqeyi reallıqlara adekvatdır. Yəni Bakı istəyir ki, iki ölkə arasında münasibətlərin gələcəyinə gizli minalar qoyulmasın. Ancaq Ermənistanın konstitusiyasında ölkəmizə qarşı ərazi iddiaları qalır və belə olan halda İrəvan Azərbaycanın ərazi bütövlüyünü sənədlə necə tanıya bilər? Ermənistan və onun müttəfiqləri sülh müqaviləsinin yarımçıq variantı ilə Azərbaycanın əl-qolunu bağlamaq planının baş tutmadığını başa düşdükdən sonra "B" planına keçdilər və "ixtisar olunmuş müqavilə" imzalandıqdan sonra əvvəllər səsləndirməyi planlaşdırdıqları məsələləri açıq şəkildə qaldırmağa başlayıblar. Xüsusən də mövqeyini sərtləşdirən İrəvan Qərbin dəstəyindən ilhamlanaraq getdikcə daha çox "Dağlıq Qarabağ" və "etnik təmizləmə"dən danışır, qisas haqqında getdikcə daha ciddi düşünür.

Vaşinqtonun İrəvanla hərbi təlimlər keçirməsi və bununla da Ermənistan silahlı qüvvələrinin səviyyəsinin yüksəldilməsi bəhanəsi ilə ABŞ-nin Ermənistanla strateji tərəfdaşlığının güclənməsi regionda yeni hərbi münaqişə ehtimalını xeyli artırır. Eyni sözləri Fransa barədə də demək olar. Məsuliyyətsiz bəyanatları və addımları ilə Paris sülhə yox, geosiyasi maraqlarını təmin etmək üçün erməni kartından istifadə etməyə çalışır. Bölgədə sülhün əldə olunmasına kömək etmək istəyinin açıqlanmasına baxmayaraq, Vaşinqton və Fransa faktiki olaraq Ermənistanı Azərbaycanla yeni müharibəyə hazırlayırlar. Aydındır ki, bu ölkələr və digərləri Azərbaycanın müstəqil şəkildə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə barışmaq istəmirlər. Bu səbəbdən də Qərbdə Azərbaycan əleyhinə geniş kampaniya başladılıb.

Ancaq ermənilər sadə bir reallığı unudurlar- keçmişindən dərs götürməyənin axırı fəlakətli olur. Osmanlı dövlətinin ağır günlərində Qərb ölkələrinin əlində alətə çevrildiklərinə görə hansı fəlakətlərlə üzləşdiyini bütün dünya bilir. İndi də ermənilər alət olmağa razılaşırlar. Qərbin təhlükəli planının bir hissəsi olmağa həvəs göstərirlər. Amma bu təhlükəli oyunlar Ermənistana çox baha başa gələ bilər. Azərbaycan rəhbərliyi xəbərdarlıq edir. Prezident İlham Əliyev parlamentdəki çıxışında Bakının sülh gündəminin əsas prioritetlərini bir daha diqqətə çatdırdı. Azərbaycanın real təklifləri ilə razılaşmaq və ya onlardan imtina etmək artıq Ermənistanın öz işidir. Bakı istənilən ssenariyə hazırdır.

***S.ELAY***
***XQ***

# Ölkəmiz üzünü yeniliyə tutub

(əvvəli 1-ci səhifədə)

"Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu", – deyə qeyd edən İlham Əliyev İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsinin ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açdığını bildirdi. 30 illik işğaldan sonra Azərbaycanın genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoyduğunu və ilk nəticələrin göz qabağında olduğunu MM-in tribunasından bəyan edən cənab Prezident son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsi məsələsini də önə çəkdi.

Azərbaycanın İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini bütün dünyaya qəbul etdirə bildiyini deyən dövlətimizin başçısı bunu qəbul etmək istəməyən ölkələrin və dairələrin mövcudluğuna da diqqəti çəkdi: "Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız iddialar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz".

*

Birmənalı olaraq deyə bilərik ki, 2024-cü ildə bədxahlarımızın xoşuna gəlməyən, tarixi əhəmiyyətinə kölgə salmağa çalışdıqları ən önəmli hadisələr kimi prezident və parlament seçkilərini qeyd etməmək mümkün deyil. Həm fevralın 7-də Prezident seçkilərinin, həm də sentyabrın 1-də gerçəkləşən parlament seçkilərinin ölkənin bütün ərazisində keçirilməsi Azərbaycan dövlətinin gücünün, xalqın əyilməz ruhunun dünyaya nümayişi idi. Amma cənab Prezident MM-dəki çıxışında bunlara arxada qoyduğumuz mərhələ kimi baxmağın, özümüzü qarşıda duran məsələlərin həllinə kökləməyimizin vacibliyini vurğuladı: "Dövlət suverenliyinin bərpa edilməsindən cəmi bir il keçir. Üç gün bundan əvvəl biz artıq bu günü bayram günü kimi qeyd etmişik. Bununla bərabər, demək istərdim ki, arxayınlaşmaq üçün heç bir əsas yoxdur. Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək".

Cənab Prezident bu vacib məsələlərin hamısını, qarşıda bizi gözləyən yeni, güclü və qürurlu Azərbaycanı gözlərimiz önündə sərgilədi. Bununla yanaşı, o, həm də ölkəmizə qarşı hansı ideoloji təxribatların baş verdiyini açıq şəkildə bəyan etdi. Digər tərəfdən, erməniləri silahlandıranlara, onları Azərbaycana qarşı müharibəyə təhrik edənlərə, bölgədə sabitliyi pozmağa çalışanlara çox ciddi mesajlar göndərdi. Biz sülh haqqında düşündüyümüz zaman, bədxahlarımız bunun "səhv yol" olduğunu sübuta yetirmək üçün hər cür təxribata əl atırlar.

Əslində, sanki tarixin qaranlıq bir guşəsində fəaliyyət göstərən ABŞ-nin həmin konqresmenləri, senatorları, erməni lobbisinin çaldığı havaya oynayanlar özləri səhv yolun yolçularıdırlar. Azərbaycan beynəlxalq hüquqa, dünyanın düzəninə zidd heç bir hərəkətə yol verməyib.

*

Şərqdə belə bir deyim var: "Təzəni tikməyənə qədər köhnəni sökməyin". İndi durub bizə dünyanın yeni düzənindən, müasir standartlardan danışanların diqqətinə çatdırmaq lazımdır ki, hələ təzə heç nə formalaşmayıb. Amma bu, o demək deyil ki, köhnəni də silib atmalıyıq. Nə qədər ki, yeni birgəyaşayış qaydaları, müasir dəyərlər sistemi gündəmə gəlməyib, köhnə qanunlar toplusu öz qüvvəsində qalır. Azərbaycan bu gün atdığı bütün addımlarını ədalət prinsipinin təsbit olunduğu həmin qanunlarla tənzimləyir.

Təəssüf ki, həmin ermənipərəst qüvvələrin böyük qismi üçün neoimperializm, neomüstəmləkəçilik keçmişdən qalma zərərli davranış sistemi sayılmır. Onlar nəinki arxivə göndərilməli olan bu pis vərdişlərdən əl çəkmək barədə düşünmürlər, əskinə, onları hələ də gündəmə gətirməyin yollarını arayır, yeni təşəbbüsləri buxovlamaq yolunu tutublar. Amma Azərbaycan və onun ətrafında cəm olmuş mütərəqqi birlik buna imkan verməyəcək. Bəli, onların məqsədi yeniliyi vurub dağıtmaqdırsa, bizim missiyamız quruculuq, inteqrasiya və güclü dövlətdir. Azərbaycan bu aksiomu son 4 ildə təkrar sübuta yetirib.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı**

Prezident İlham Əliyev yeni seçilmiş Milli Məclisin tribunasından çıxışı zamanı Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsinə, o cümlədən Qarabağ və Şərqi Zəngəzur üzərində suverenliyini bərpa etməsinə baxmayaraq, ölkəmizin hələ də müxtəlif təhlükələrlə üzləşdiyini bildirib. Bu təhlükələrdən ən başlıcası bir sıra dövlətlərin Ermənistanı Azərbaycana qarşı silahlandırmaları, onu yeni qarşıdurmaya təhrik etmələridir.

Ermənistanı silahlandıran əsas Qərb ölkəsi Fransadır. Bu ölkənin Cənubi Qaqfaz siyasətində dəyişən heç nə yoxdur. Rəsmi Paris tərəfindən Ermənistanın silahlandırılması həm də o deməkdir ki, İkinci Qarabağ müharibəsində ağır məğlubiyyətlə üzləşən ölkə qısa müddətdə hərbi gücünü artıra bilsin və Azərbaycan qarşısında duruş gətirə bilsin. Aydın məsələdir ki, Ermənistanın silahlandırılması bölgədə növbəti toqquşma ehtimalını artıra bilər. Doğrudur, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla yeni müharibədə maraqlı olmadığını bildirir. Amma bu da faktdır ki, o, ordusuna tam nəzarət edə bilmir. Özü bir neçə dəfə etiraf edib ki, Ermənistan ordusunda "beşinci kolon" mövcuddur. Bu isə o deməkdir ki, həmin "beşinci kolon" müxtəlif xarici dairələrin əlində Azərbaycana qarşı alətə çevrilə bilər. İrəvan yenə bölgədə öz maraqlarını təmin etməyə çalışan güclərin əlində "maşa"ya çevrilməkdədir. Ancaq, cənab Prezidentin dediyi kimi, bunlar xalqımızın iradəsinə heç cür təsir edə bilməzlər.

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışını hazırda dünyada cərəyan edən proseslər kontekstində qiymətləndirməliyik. Dövlət başçımızın bütün mesajları günün aktual məsələləri ilə səsləşən çağırışlardır. Bəli, dünyanın gündəmi durmadan dəyişir, dolğunlaşır. Amma burada bir iddia vardır ki, o, öz yerini başqa məqamlara vermir. Söhbət təhlükəsizlik məsələsindən gedir. Çünki, təhlükəsizlik bütün uğurların rəhnidir. Onsuz heç bir tərəqqi, irəliləyiş mümkün deyil. Bu səbəbdən müəyyən xalqların, toplumların inkişafını ləngitməkdən ötrü güc mərkəzləri, ilk növbədə, həmin bölgələrdə münaqişəli vəziyyətləri yaratmağa çalışırlar. Yerli xalqları yolundan sapdırmağı hədəfləyən həmin qüvvələr öz maraqlarını təmin etməyi düşünürlər.

Cənubi Qafqaz bölgəsi aktual məqamlar çərçivəsində nümunə sayıla bilər. Burada çoxlu risklərin kultivasiyası gedir. Ermənistanı silahlandırmağa girişənlərin məqsədi bölgədə eskalasiya ocağı yaratmaqdır. Bu mənada, Prezident İlham Əliyevin "Biz güclü olmalıyıq" tezisi, çağırışı bütün zamanlar üçün aktual olaraq qalacaq. Dünyanın aparıcı dövlətlərinin riyakarlığını, ikiüzlülüyünü, saxta siyasətlərini gördük. Onlar həm də Azrbaycanın inkişafının qarşısını almaq istəyirlər. Bunlar artıq şübhə doğurmayan çılpaq həqiqətlərdir. Anti-Azərbaycan cəbhəsini formalaşdıran Fransanın yanında ABŞ, Kanada, Niderland, digərləri dayanıb. Dövlət başçımızın qeyd etdiyi kimi, məhz buna görə hərbi-sənaye kompleksimizi müasirləşdirmək, ordumuzu gücləndirmək kimi ən vacib məsələlər günün tələbidir.

Sanki ermənipərəst düşərgə Azərbaycanın işğalçının dərsini verərək ədaləti bərpa edən kimi hərəkətə keçdilər. İndi bizi küncə sıxışdırmağa, imtiyazlarımızı heçə çevirməyi düşünürlər ki, ermənilər üçün xüsusi şərait yaratsınlar.

Bunlar hansı səbəbdən baş verir? Çünki Azərbaycan siyasi iradəyə malik, yeri gələndə "yox" deməyi bacaran müstəqil məmləkətdir. Əgər hansısa məsələ onun milli maraqları ilə üst-üstə düşmürsə, gələcəyə yönəlik planlarına ziddirsə, Azərbaycan bu təşəbbüsləri dərhal rədd edir və rəsmi Bakının qətiyyəti, bacarığı bəzilərində qıcıq doğurur, onlara rahatlıq vermir. Problemlər, maneələr təşkil etməklə Azərbaycanı ram etməyə girişənlər, əslində, Ermənistanı özlərinin korporativ maraqlarına qurban verməyə hər an hazırdırlar.

# COP29 Sədrliyinin "Atəşkəs çağırışı"na dəstək

**Beynəlxalq Sülh Günü münasibətilə COP29 Sədrliyi Birgə Atəşkəs Çağırışı elan edib. Bu təşəbbüs sülh və iqlim tədbirlərinin ayrılmaz əlaqəsini vurğulayır, beynəlxalq əməkdaşlığa çağırır.**

İslam Əməkdaşlığı Gənclər Forumunun Avrasiya Regional Mərkəzi bu çağırışa uyğun olaraq, Avrasiya bölgəsindəki İslam ölkələrindən 100-dən çox gənclər və vətəndaş cəmiyyəti təşkilatlarını bir araya gətirən mühüm onlayn görüş təşkil edib. Müzakirədə "COP29 naminə Birgə Atəşkəs Çağırışı"nı dəstəkləyən və beynəlxalq əməkdaşlığa çağıran bəyanat qəbul edilib.

***XQ***

# Kanaklar Fransanın cinayətini ifşa edirlər

**Kanaklar bu il mayın 13-dən - Yeni Kaledoniyadakı indiki hadisələrin başlanğıcından etibarən Fransa bu uzaq ərazidə köhnə müstəmləkə kabusunu yenidən canlandırmağa başlaması ilə bağlı bəyanat yaymışlar.**




Açıqlamada qeyd edilir ki, müstəmləkəçi dövlətin adanın cənubundakı Mont-Dore kommunasında yerləşən Sent-Luis qəbiləsinə münasibəti, təəssüf ki, Əlcəzair müharibəsi zamanı yerli əhaliyə qarşı rəftarı xatırladır. Heç bir xəcalət çəkməyən dövlət qeyri-mütənasib güc münasibətinə baxmayaraq, zərərsizləşdirilməli və susdurulmalı olan 1200 cinayətkarla iş aparırmış kimi davranır: "Tarixinə iz qoymuş qəbiləmiz 3 övladının öldürülməsinə layiq idimi? Bu gənclər siyasi ideallarını cəsarətlə müdafiə etdikləri üçün öldürülmüşdü".

Bəyanatda daha sonra deyilir ki, 1981-ci ildə edam edilən müstəqillik lideri Pierre Declercqin sui-qəsdçilərinin peşman olmadıqları görünür: "Əminliklə bildiyimiz tək şey budur ki, bu dövlət üçün nə hüquqa hörmət edilməsi, nə də insan həyatlarının itirilməsi onun ilahi missiyasını yerinə yetirməyinə əngəl törətmir. Buna əmin olmaq üçün, sadəcə olaraq, bizim yollarımızda qanunsuz şəkildə dövr edən hərbi avtomobillərin sayının artmasını müşahidə etmək kifayətdir. Əgər Sent-Luisdəki hazırkı sistem dövlətin bütün ərazini nəzarətdə saxlamaq iddiası üçün bir "qəza testi" kimi təsvir edilirsə, bilsin ki, bütün bir qəbiləni şəhid etmək bəlkə də Kanakın müstəqillik arzusunu boğmaqdan daha asan olacaq".

Bəyanatı Qəbilə klan başçıları Şurasının sədri Eugene Decoire və şuranın üzvü Yohann Vamytan imzalayıblar.

***XQ***

# İrəvana və onun havadarlarına sərt xəbərdarlıq

(əvvəli 1-ci səhifədə)

Ulu öndər Heydər Əliyev vaxtilə böyük müdriklik göstərərək "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" demişdir. Zaman böyük dövlət xadiminin necə haqlı olduğunu ortaya qoydu. Həqiqətən də əgər vaxtilə əsas ixrac neft boru kəməri haqqında müqavilə imzalanmasaydı, bunun nəticəsində ölkəmizə valyuta axınının daxil olması təmin edilməsəydi, iqtisadiyyatımız inkişaf etdirilməsəydi, ordu quruculuğuna böyük diqqət yetirilməsəydi, hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Torpaqlarımızın işğaldan azad olunması uzun illər ərzində yürüdülən düşünülmüş siyasətin məntiqi nəticəsidir.



Prezident İlham Əliyevin qeyd etdiyi kimi, indi dünyada nəinki siyasətlə məşğul olanlar, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışının tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər. Bizim isə siyasətimiz, əslində, uzun illər ərzində bu istiqamətdə aparılırdı. İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır.

Bəli, Azərbaycan vətəndaşları beynəlxalq hüquq anlayışnın tamamilə sarsıldığının canlı şahidləridir. BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi rayonlardan çıxması ilə bağlı 1993-cü ildə qəbul etdiyi 4 qətnamənin 27 il ərzində kağız üzərində qalması bunun bariz nümunəsidir. Halbuki biz TŞ-nin bəzi ölkələrlə bağlı qəbul etdiyi qətnamələrin üzərindən heç 24 saat keçməmiş, necə deyərlər, mürəkkəbi qurumamış icra edildiyinin də şahidiyik. Dövlətimizin başçısı, haqlı olaraq qeyd etdi ki, əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər.

Cənab İlham Əliyevin toxunduğu digər çox mühüm məsələ Ermənistanın yürütdüyü ikitirəli siyasətlə bağlı oldu. Qeyd etdi ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə və xülyalarla yaşayırlar. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Üzdə bunu desələr də, onların işləri, siyasətləri, addımları tam əks mənzərə yaradır.

Hər bir məsələni doğru təsbit edən dövlətimizin başçısının bu fikirləri ciddi xəbərdarlıqdır. Prezidentin fikirləri Ermənistan iqtidarının addımlarının rəsmi Bakı tərəfindən diqqətlə izlənildiyindən və təhlil edildiyindən xəbər verir. Bu isə o deməkdir ki, qələbədən sonra Azərbaycanda arxayınlaşma hissi yaranmayıb. Əksinə, fəaliyyətimiz daha da intensivləşib.

Prezident İlham Əliyev onu da bildirdi ki, bu günə qədər heç bir funksional mahiyyət daşımayan ATƏT-in Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Doğrudan da Qarabağ münaqişəsinin həlli üçün yaradılmış Minsk qrupunun saxlanılmasına heç bir zərurət yoxdur. Çünki münaqişə tam və birdəfəlik həll olunub. Amma qrupun saxlanılması yalnız ölkəmizə qarşı ərazi iddialarını yeni müstəviyə daşımaq məqsədi güdə bilər.

"Bu gün Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar – bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib" – deyən Prezident İlham Əliyev Qələbəmizi həzm edə bilməyən xarici dairələrin bizə qarşı yeni planlar hazırladıqlarını qeyd etdi. Onun sözlərinə görə, media kampaniyası, qarayaxma, iftira, böhtan kampaniyaları da məhz bu mövzunu daim gündəlikdə saxlamağa, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı çirkin hərəkətlərə başlamağa xidmət edir: "Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur".

Azərbaycan Ordusu hazırda dünyanın ən yaxşı 50 ordusu sırasındadır. Bu fakt hərb üzrə aparıcı beynəlxalq araşdırma mərkəzləri tərəfindən dəfələrlə təsdiqlənib. 44 günlük Vətən müharibəsindən ötən dövr ərzində Azərbaycan öz hərbi gücünü böyük dərəcədə artırıb. Yeni silahlı birləşmələrin yaradılması, Xüsusi Təyinatlı Qüvvələrin sayının bir neçə dəfə artırılması, həmçinin Komando qüvvələrinin yaradılması bunun mühüm göstəricilərindəndir. Xüsusi Təyinatlı Qüvvələr mənsubları ölkə daxilində və xaricdə ən çətin hərbi təlimləri icra edirlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov** "XQ"-yə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyevin Milli



Məclisdəki proqram xarakterli çıxışında Azərbaycan dövlətinin prioritet istiqamətləri göstərilib. Onun sözlərinə görə, dövlətimizin başçısı çox mühüm və mənalı fikirlər səsləndirdi. Qeyd etdi ki, orduda çox böyük islahatlar, təkmilləşdirmə işləri aparılır: "Regionda və dünyada gedən proseslər Azərbaycanın güclü olmasını tələb edir. Ölkəmizi gözü götürməyən, suveren və heç kimdən asılı olmayan ölkə kimi qəbul etmək istəməyən qüvvələrin mövcudluğu bizim müdafiə xərclərini gələcəkdə də artırmağımızı zəruri edir".

Ordu quruculuğu istiqamətində çox böyük işlər aparıldığını vurğulayan Ş.Ramaldanov Vətən müharibəsindən sonra Xüsusi Təyinatlı Qüvvələrin say tərkibinin bir neçə dəfə artırıldığını, yeni silahlı birləşmələrin, o cümlədən Komando qüvvələrinin yaradıldığını və onların sayının ildən-ilə artacağını qeyd etdi: "Ordumuzun şəxsi heyəti müasir silahlarla silahlanır. Paralel olaraq hərbi sənaye kompleksi də inkişaf etdirilir. Hərbi sənaye kompleksinin inkişafı isə ilk növbədə dövlətini gücünün, iqtisadi qüdrətinin göstəricisidir. Digər tərəfdən isə Azərbaycan bu məsələdə də müstəqil olur. Yəni biz silah-sursat alışı məsələsində də müstəqil dövlətə çevrilirik. Birinci Qarabağ müharibəsi zamanı ölkəmiz silah-sursat alışı məsələsində çox ciddi çətinliklərlə üzləşmişdi. İkinci Qarabağ müharibəsində də hərbi sənaye kompleksimiz inkişaf etmiş və tələb olunan silah-sursatın müəyyən hissəsini daxili istehsal hesabına qarşılamışdıq".

Müsahibimiz qeyd etdi ki, müharibədən 4 il ötməsinə baxmayaraq, Ermənistan sülh və dövlətlərarası sazişin imzalanmasından yayınır, prosesi uzadır: "Reallıqda sülh müqaviləsi hələ də bağlanmayıb və biz müharibə şəraitindəyik. Belə olan təqdirdə Ermənistan sürətlə silahlanır. Silahlanma ilə paralel olaraq revanşist niyyətli qüvvələr baş qaldrmağa başlayıblar. Onlara müəyyən vədlər verən dairələr var. ABŞ və Avropa öz maraqlarını təmin etmək üçün Ermənistanı sülh müqaviləsi imzalamaqdan yayındıran əsas qüvvədir".

Ş.Ramaldanov onu da bildirdi ki, Prezident İlham Əliyevin niqtində bir əminlik də var idi. Onun sözlərinə görə, dövlət başçımızın nitqində Azərbaycanın özünü bütün xarici təzyiq və təsirlərdən qoruduğuna və gələcəkdə də qoruyacağına əminlik duyulurdu. Bu əminlik isə Prezident İlham Əliyevin böyük idarəçilik qabiliyyətinə, liderlik xüsusiyyətinə, eləcə də Azərbaycan xalqının dövlət başçımıza möhkəm dəstəyinə və onun ətrafında sıx birləşməsinə əsaslanır.

***Səxavət HƏMİD***
***XQ***

# Xalqımızın Qarabağ rəşadəti quruculuq meydanında davam edir

(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısının nitqində diqqətə çatdırılan həmin nəticələri ifadə edən göstəricilərə qısaca nəzər salaq:

– İkinci Qarabağ müharibəsi başa çatandan bu ilin sonuna qədər xərclənməsi nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edib. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib;

– keçmiş məcburi köçkünlərin məskunlaşdırılması istiqamətində geniş miqyaslı layihələrin gerçəkləşdirilməsi nəticəsində 8 mindən çox insan Qarabağ və Şərqi Zəngəzura, doğma yurd yerlərinə qovuşub;

– infrastruktur layihələri sürətlə həyata keçirilib, 3 min kilometr avtomobil yolu inşa edilib;

– ümumi layihələr sırasında 70 kilometr uzunluğunda 45 tunel və 450 körpünün çətin relyef şəraitində inşası nəzərdə tutulur;

– dəmir yolları, 2 beynəlxalq hava limanı istifadəyə verilib;

– enerji potensialının gücləndirilməsi diqqətdə saxlanılıb və 3 il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilib və bu proses davam etdirilir;

– yaşayış sahələrinin salınması sürətlə həyata keçirilir, məktəblər, xəstəxanalar, sosial obyektlər tikilir və bütün bu tikinti-quruculuq işləri keçmiş məcburi köçkünlərin ləyaqətli şəkildə məskunlaşdırılmasına xidmət edir.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirilir. "Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, – həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə", – deyə ölkə rəhbəri bildirib.

İşğaldan azad edilən ərazilərimizdə infrastrukturun yenidən qurulması, yaşayış sahələrinin yaradılması ilə yanaşı, düşmənin yerlə-yeksan etdiyi mədəni, tarixi irsimizin bərpası da diqqətdə saxlanılır, bu istiqamətdə önəmli layihələr gerçəkləşdirilir. Bütün bunlar Azərbaycanın güclü maliyyə imkanlarından, xalqımızın, dövlətimizin güc-qüdrətindən, eyni zamanda, texniki imkanlara malik olmasından xəbər verir.

Şübhəsiz ki, qısa zaman ərzində belə geniş miqyası təşəbbüslərin uğurla gerçəkləşdirilməsini yüksək səviyyəli kadr hazırlığı şərtləndirir. Çünki bu işləri görmək dövlət başçımızın nitqində vurğuladığı kimi, 3 min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da böyük peşəkarlıq tələb edir.

Qarabağ və Şərqi Zəngəzurun uğurla dirçəldilməsini şərtləndirən əsas amillərdən biri də odur ki, Azərbaycan bu əzəli-əbədi yurd yerlərimizin yenidən qurulmasına hələ müharibə getdiyi bir dönəmdə başlayıb. Məsələn, Ağdərə rayonunda artıq yol infrastrukturunun inşasına 44 günlük İkinci Qarabağ müharibəsi bitməmiş start verilib. Bax, elə bu faktı Azərbaycanın hərbi gücünə olan inamı, iqtisadi potensialının nəyə qadir olduğu şərtləndirib.

Şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq layihələrinin icrası bundan sonra daha da sürətlənəcək. Büdcədən bu məqsədlə ayrılan vəsaitin həcmi getdikcə artırılacaq.

Onu da deyək ki, belə nəhəng tikinti işləri ölkəmizin maliyyə gücü ilə gerçəkləşdirilir. Bununla bağlı Prezident İlham Əliyev Milli Məclisinin sözügedən iclasında bildirdi ki, Qarabağda bərpa-quruculuq işlərini Azərbaycan indiyədək öz hesabına reallaşdırıb. "Bu günə qədər bizə bərpa işlərində köməklik edən Özbəkistan və Qazaxıstan qardaş dövlətlər olub. Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilibdir və hazırda Qırğızıstan Respublikası da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam. Bundan başqa necə deyərlər, bizə bir daş da müftə verilməmişdir. Biz bütün bu işləri öz hesabımıza edirik. Dünyanın bir çox donor təşkilatları var, onlar, necə deyərlər, bu məsələyə biganədirlər. Halbuki bu böyük ərazini bu vəziyyətdə görən minlərlə xarici nümayəndə olub".

Dövlətimizin başçısı nitqində cari ilin iqtisadi göstəricilərinə də toxunub. Səkkiz ayda iqtisadiyyatın 4 faizdən çox artdığı, qeyri-neft sektorunda bu göstəricinin 7 faiz olduğunu bildirən ölkə rəhbəri son illər ərzində Azərbaycanın xarici borcunun ildən-ilə aşağı salındığını və bunun hazırda ümumi daxili məhsula nisbətdə cəmi 7,5 faiz təşkil etdiyini bildirib: "Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni, əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, – biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir...".



Qeyd edək ki, Azərbaycanın xarici dövlət borcunun azalması bir sıra amillərlə bağlıdır. Bu, ilk növbədə, düşünülən uzun müddətli strategiyanın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam – "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, 2022–2025-ci illər üzrə yenilənən bu strategiyada ortamüddətli dövr ərzində dövlət büdcəsi qarşısında makroiqtisadi sabitliyə xələl gətirilməməsi, büdcənin gəlir və xərclərinin ahəngdarlığının təmin edilməsi, habelə tədiyə balansının tarazlığının pozulmasının qarşısının alınması, Dövlət Neft Fondunun aktivlərinin iqtisadi təhlükəsizliyinin qorunması, işğalçıdan təmizlənən ərazilərdə yenidənqurma işlərinin, habelə dövlətin əsas funksiyalarının (sosial təminat, səhiyyə, müdafiə, dövlət borcuna xidmət və s.) maliyyələşdirilməsi kimi bir sıra çağırışlar meydana gəlib.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmasına xüsusi yer verilib. Bundan başqa sənəddə şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, eləcə də dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanmanın təşkil edilməsi kimi mühüm əhəmiyyətli istiqamətlər vurğulanıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizə, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

***

Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin sentyabrın 23-də keçirilən ilk iclasında dövlətimizin başçısı çıxışında ölkə iqtisadiyyatının perspektivdə inkişafının diqqət mərkəzində saxlanılacağının zəruriliyini xatırladıb. Bunsuz gələcək planların həllinin, o cümlədən vətəndaşların sosial rifahının daha da yaxşılaşdırılmasının mümkünsüzlüyünü vurğulayan Azərbaycan lideri 2018-ci ildən bu yana 7 milyard manatlıq və 4 milyon insanı əhatə edən 4 sosial islahatlar paketinin həyata keçirildiyini diqqətə çatdırıb. Ölkə rəhbəri, eyni zamanda, son 5 il ərzində Azərbaycanda minimum əməkhaqqının 2,7 dəfə, minimum pensiyanın 2,5 dəfə artdığını və gələn ildən əməkhaqqı və pensiyanın yenə də artırılacağını qeyd edib.

Ölkə rəhbərinin vurğuladığı bu göstəricilər Azərbaycanın ümumi siyasətini təcəssüm etdirir. Həmçinin bu önəmli rəqəmlərə əsaslanan təməlin daha da möhkəmlənməsi üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas şərtdir. Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda çox sayda yeni istehsalat sahələrinin açılması da bu şərtin gerçəkləşməsindən qaynaqlanır.

***VB AYRAMOV***
***XQ***

---

# Bakıda "ADEX-2024" və "Securex Caspian" sərgiləri

**Dünən Bakıda regionda müdafiə sənayesinə həsr edilmiş ən nəhəng tədbir olan "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi açılıb.**




"Bakı Ekspo Mərkəzi"ndə 3 gün davam edəcək sərgilərin açılış mərasimində dövlət və hökumət rəsmiləri, Azərbaycandakı diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, xarici ölkələrin nümayəndə heyətləri, digər əlaqədar qurumların nümayəndələri iştirak ediblər.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev Azərbaycan Prezidenti İlham Əliyevin sərgi iştirakçılarına məktubunu oxuyub. Sonra sərginin iştirakçıları və qonaqları VIP turda iştirak ediblər.

Bu genişmiqyaslı tədbir regionun ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişidir. 2024-cü ildə "ADEX" və "Securex Caspian" sərgilərinin miqyası daha da genişlənərək, əvvəlki illərlə nisbətdə ekspozisiyada artım nümayiş etdirir. Sərgilərdə 40 ölkədən 218-dək şirkət iştirak edir. İştirakçı ölkələr Azərbaycanla yanaşı ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, İspaniya, İsrail, İtaliya, Litva, Macarıstan, Pakistan, Qətər, Rusiya Federasiyası, Serbiya, Sinqapur, Slovakiya, Türkiyə, Ukrayna və digərləridir.

Builki sərgilər iştirakçıların ümumi sayının 34 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Macarıstan, Qətər, Sinqapur və Slovakiya 2022-ci il ilə müqayisədə sərgilərin yeni iştirakçılarıdır. 14 ölkə – Azərbaycan, Belarus, Çexiya, Çin, İtaliya, İsrail, Macarıstan, Pakistan, Qətər, Rusiya, Serbiya, Slovakiya, Türkiyə və Ukrayna sərgilərdə milli pavilyonla iştirak edirlər. 2022-ci il ilə müqayisədə iştirakçıların sayında 32 faiz artım qeydə alınıb.

"ADEX" sərgisinin sponsorları Türkiyənin "Baykar", İsrailin "Israel Aerospace Industries" və Qətərin "Barzan Holdings" şirkətləridir.

"ADEX" sərgisi ilə paralel olaraq təşkil edilən "Securex Caspian" sərgisində hüquq-mühafizə, sərhəd, xilasetmə, yanğınsöndürmə və xüsusi xidmət orqanları üçün ləvazimatların, kompleks mühafizə sistemlərinin və silahların perspektivli modellərini nümayiş etdirilir.

***XQ***

---

# "İdeoloji mübarizədə din amili: Mediadan gözləntilər"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və qurumun Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə təşkilatçılığı ilə Şuşada təşkil edilən "İdeoloji mübarizədə din amili: Mediadan gözləntilər" mövzusunda ikigünlük seminar dünən sessiyalarla davam edib.**

Seminar çərçivəsində ikinci sessiyada "Dini radikalizmlə mübarizə və media" mövzusu müzakirə olunub. Sessiyanın moderatoru Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov olub.

Sessiyada çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib ki, dini radikalizm anlayışı həqiqi dini dəyərlərdən tamamilə uzaqdır. Media nümayəndələri müqəddəs məqamlar barədə yazarkən diqqətli olmalı, insanların mənəvi hisslərinə qarşı həssas yanaşmalı, həqiqi mənbələrə istinad etməlidirlər.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəis müavini Zeyni Hüseynov qeyd edib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və hüquq-mühafizə orqanlarının birgə təşkilatçılığı ilə respublika ərazisində konfranslar təşkil olunur, radikalizm və ekstremizm kimi neqativ meyillərə qarşı qabaqlayıcı tədbirlər görülür. Gənclərin zərərli təbliğatın hədəfinə çevrilməsinin qarşısını almaq üçün media vasitəsilə sağlam maarifləndirmə zəruridir.

Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin İnzibati və hərbi normativ aktlar idarəsinin məsləhətçisi Natiq Mirzəyev qeyd edib ki, xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında mətbuat nümayəndələrinin fəaliyyəti xüsusi önəm daşıyır. Media mənsubları dindən sui-istifadə və dini siyasiləşdirmək cəhdlərini, bunun törədə biləcəyi fəsadları və digər bu kimi amilləri daim diqqətdə saxlamalı, mövzuya son dərəcə həssaslıqla yanaşmalıdırlar.

***XQ***

---

# Ermənipərəst ABŞ konqresmeni ölkəmizi şantaj edir

**Qərbi Azərbaycan İcması ABŞ Konqresində ermənipərəst konqresmen Adam Şiffin 2024-cü il sentyabrın 18-də təqdim etdiyi növbəti anti-Azərbaycan qanun layihəsini qətiyyətlə pisləyir və qınayan bəyanatla çıxış edib.**

Açıqlamada bildirilir ki, bədnam layihənin həm adı, həm də məzmunu və təxribat xarakterli və yanlışdır: "Qarabağ ermənilərinin Azərbaycan dövlətinin reinteqrasiya və vətəndaşlıq təkliflərini rədd edərək sərbəst şəkildə ölkəni tərk etdikləri nəzərə alınmadığından Şiffin layihəsi böhtan üzərində qurulub. Konqresmen 300 min azərbaycanlının Ermənistandan, 700 min azərbaycanlının isə uzun müddət işğal altında saxlanılmış Azərbaycan ərazilərindən etnik təmizləmə nəticəsində zorla çıxarılmasını və ölkəmizin, eləcə də azərbaycanlıların əmlakına, iqtisadiyyatına və mədəni irsinə vurulan yüz milyardlarla ABŞ dolları dəyərində ziyanı bilərəkdən görməzliyə vurmaqla bu vandallığı dəstəkləmişdir".

Bəyanatın sonunda qeyd edilir ki, təqdim olunan qanun layihəsi ermənipərəst qanunvericinin Azərbaycana qarşı şantaj cəhdidir; "Bu addım həm də ABŞ–Azərbaycan münasibətlərinə ciddi zərbə vurmağı hədəfə alıb".

***XQ***

---

# Çeçenistanda saxlanılan vətəndaşlarımız ölkəyə gətirildi

**Xarici İşlər Nazirliyi Çeçenistanda saxlanılan azərbaycanlılarla bağlı məsələyə aydınlıq gətirib.**



Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Çeçenistanda saxlanılan Azərbaycan vətəndaşları artıq ölkəyə gətirilib:

"Azərbaycan vətəndaşları 1975-ci il təvəllüdlü Şirinov Elxan Əkbər oğlunun, 1982-ci il təvəllüdlü Məhərrəmov Vüqar Nazim oğlunun və 2004-cü il təvəllüdlü Rzayev Nihad Tafdıq oğlunun saxlanıldığı barədə məlumat daxil olan kimi, vətəndaşlarımızın ölkəmizə geri qaytarılması məqsədilə dərhal Rusiya Federasiyası Xarici İşlər Nazirliyinə nota ünvanlanıb, Rusiya XİN-i və digər aidiyyəti qurumları ilə danışıqlar aparılıb. Bununla yanaşı, saxlanılmış vətəndaşlarımız ilə səfirliyimiz tərəfindən telefon danışığı baş tutub.

Vətəndaşlarımızın ölkəmizə geri qaytarılması istiqamətində aparılmış iş nəticəsində, qeyd edilən vətəndaşlarımız 21 sentyabr tarixində Rusiya Federasiyası ilə dövlət sərhəd keçid məntəqəsindən quru yolla Azərbaycana qayıdışı təmin edilib".

***XQ***

*Müxbirimiz Qarabağda*




# Ağdam yenidən ağ günlərinə qovuşur

## *Dövlət başçısının bölgəyə səfəri yeni önəmli layihələrə meydan açdı*

### II yazı

**Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 19-da Ağdama növbəti səfəri zamanı açılışında iştirak etdiyi sənaye müəssisələri, "İmarət" tarixi kompleksi, "Aghdam City Hotel" mehmanxanası, dörd bir tərəfdə sürətlə davam edən bərpa-quruculuq işləri, gerçəkləşdirilən yeni layihələrlə tanış olduqca qürur duymamaq mümkün deyildi. Bütün bunlar o deməkdir ki, Zəngilan, Laçın, Füzuli, Şuşa, Xocalı kimi, tezliklə Ağdamda da həyat əvəlkindən də yüksək səviyyədə axarına düşəcək.**

### Müasir istehsal sahələri, yeni iş yerləri

Ağdam Sənaye Parkındakı sənaye müəssisələri ilə tanışlığımızın davamında ən müasir avadanlıq quraşdırılmış "Mister Decor" MMC-nin divar kağızları istehsalı zavodunun direktoru Əli Əliyevin verdiyi məlumat isə bizi xüsusən qürurlandırdı:

– Ağdamda divar kağızlarının istehsalına başlanması nəinki Azərbaycanda, ümumilikdə, Cənubi Qafqaz regionunda ilk təcrübədir. Belə ki, dünyanın əksər ölkələrində divar kağızlarından istifadə edilsə də, istehsalçı dövlətlərin sayı azdır. Bu isə zavodun məhsullarını həm yerli, həm də xarici bazarda satışına geniş imkanların mövcudluğunu göstərir. Müəssisə rəhbəri artıq xarici bazara çıxmaq istiqamətində də iş getdiyini, müəssisənin nümayəndəsinin danışıqlar aparmaq üçün qardaş Özbəkistanda olduğunu bildirdi. Hədəf bazar kimi isə, əsasən, Orta Asiya dövlətləri nəzərdə tutulub.

Qeyd edək ki, 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti statusunu almış "Mister Decor" MMC-nin investisiya həcmi 8 milyon manatdır. Alman texnologiyasından istifadə edilən müəssisədə illik 2,1 milyon rulon divar kağızının istehsalı nəzərdə tutulub. Burada ilkin mərhələdə 18 nəfər daimi işlə təmin edilib ki, onların da əksəriyyəti Ağdamın və ətraf rayonların



sakinləridir. Ümumilikdə isə 76 nəfər işlə təmin ediləcək. Zavod üçün yeni avadanlıqlar sifariş edilib və 2025-ci ilin mart ayında ikinci istehsal xəttinin işə salınmması nəzərdə tutulub.

Evlərimizin divarlarını bəzəyəcək yüksək keyfiyyətli, zövq oxşayan divar kağızlarının hazırlanmasında iştirak edən işçilərdən biri, rayonun Üçoğlan kəndindən olan Səbuhi Əhmədli məmnunluğunu bizimlə bölüşür:

– Doğma Ağdamımızda belə bir iş yerinin yaradılması haqqında xəbər tutan kimi, müraciət etdim, işə qəbul olundum. Bir müddət işi öyrətdilər. İndi divar kağızlarının rənglənməsi bölməsindəki avadanlıqlar üzrə operator işləyirəm. İnanın ki, həqiqətən sevincimizin həddi-hüdudu yoxdur. Ağdamın yenidən inkişaf etməsini görmək, zavodların açılması, ağdamlıların öz şəhərinə qayıdaraq burada işləməsi hər birimizdə xoşbəxtlik duyğusu yaradır. Bütün bunlar üçün isə, ilk növbədə, dövlətimizin başçısına minnətdarıq.

Ağdam Sənaye Parkında üz tutduğumuz növbəti ünvan "Metkons" MMC-nin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodudur. Müəssisənin direktoru Nicat Hacıyev bildirdi ki, Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyalarının tətbiq olunduğu zavodun illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalıdır. Ümumi investisiya dəyəri 3,9 milyon manat olan müəssisədə hazırda əksəriyyəti Ağdam rayonundan olmaqla 47 nəfər işləyir. Yaxın 2 ay ərzində isə ümumilikdə 90 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Zavodda istehsal olunan məhsullar ilkin mərhələdə daxili bazar üçün nəzərdə tutulub. Bir daha qeyd etmək yerinə düşər ki, Ağdamda sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasının sürətlə icra edilməsinə böyük töhfədir. Çünki işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq layihələrinin icrası zamanı bundan əvvəl tanış olduğumuz zavodların olduğu kimi, "Metkons"-un da istehsal etdiyi məhsullara kifayət qədər tələbat var. Ona görə də, havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodu ilk olaraq bu tələbatın qarşılanması istiqamətində fəaliyyət göstərəcək.

Eyni sözləri Azərbaycan Prezidentinin Ağdam Sənaye Parkında açılışını etdiyi daha iki istehsal müəssisəsi – parkın rezidentləri "Prof-Dam" MMC-nin dam örtükləri istehsalı və "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodları haqqında da söyləmək mümkündür.

"Prof-Dam" MMC-nin dam örtükləri istehsalı zavodunun direktoru Arif Ataşov bildirdi ki, investisiya dəyəri 8,5 milyon manat olan müəssisə ildə 1,4 milyon kv.metr profilli təbəqələrin, 1 milyon kv.metr metalkirəmit lövhələrin, 1 milyon kv.metr sendviç panellərin, habelə 2 min ton dam aksessuarı istehsalı gücünə malikdir. İstehsal olunan məhsulların 90 faizi yerli, 10 faizi isə xarici bazar üçün nəzərdə tutulub. Burada da əksəriyyəti Ağdam və ətraf rayonlardan olmaqla ümumilikdə 40-dək iş yeri yaradılacaq. Tanış olduğumuz sonuncu zavod olan "Rail Trans Service" MMC-nin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunda isə 60 nəfər işlə təmin ediləcək.

Müəssisənin direktor müavini Əhmədiyyə Baxışov məlumat verdi ki, 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan zavodun investisiya dəyəri 8,92 milyon manatdır. İllik istehsal gücü 5 min ədəd rabitə və işarəvermə, 250 ədəd mikroprosessor mərkəzləşmə sistemi avadanlığı həcmindədir. İstehsal olunan mallar daxili və xarici bazarlar üçün nəzərdə tutulub.

### Erməni vandalizminin yaraları sağaldılır

Ağdam Sənaye Parkı ilə tanışlığımız xoş təəssüratlarla, ümidverici məqamlarla yadda qaldı. Burada ilkin mərhələdə görülən işlərin, həyata keçirilən layihələrin miqyası həqiqətən də heyrətamizdir. Ağ-



damın ilk sənaye müəssisələrinin rəhbərlərinə, işçi heyətlərinə fəaliyyətlərində uğurlar arzulayıb, üz tutduq dövlət başçısının bərpadan sonra açılışını etdiyi "İmarət" kompleksinə.

Kompleksin İşçi Qrupunun üzvü Nərgiz Abdullayeva məlumat verdi ki, Ağdam rayonunda erməni vandalizminin qurbanına çevrilərək dağıdılıb talan edilmiş tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu kompleks xanın ilk mülklərindəndir. İşğal zamanı digər tarixi-mədəni və dini abidələrimiz kimi, İmarət də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb.

Nə qədər acı olsa da, Qarabağda və Şərqi Zəngəzurda dinc azərbaycanlılara qarşı insanlığa sığmayan cinayətlər törətmiş erməni faşistləri eyni vəhşilikləri məscidlərimizə, dini-tarixi abidələrimizə, mədəniyyət, təhsil ocaqlarımıza qarşı da nümayiş etdiriblər. Bu vandallığın ən ağlasığmaz nümunəsi isə ermənilərin məscidlərimizdə donuz saxlamaları, müqəddəs ziyarətgahlarımızı təhqir etmələridir. İmarət Kompleksi də işğal dövründə eyni aqibəti yaşayıb. Bu mənada kompleksin bərpası tarixi irsimizə sahib çıxmaq baxımından böyük əhəmiyyətə malikdir.

N.Abdullayeva onu da bildirdi ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2023-cü ildə Ağdam İmarət Kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılıb. Hazırda isə kompleksin ərazisindəki 6 min kvadratmetrlik sahədə yerləşən tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri ikinci mərhələdə davam etdirilir. Aparılan araşdırmalar nəticəsində 213 müsəlman qəbri aşkar olunub. Onlardan 18-i türbələrin içərisində yerləşir.

Kompleks artıq ziyarətçilər üçün də açıqdır. Bura gələn qonaqlar, turistlər burada yaradılmış park, ziyarətçi mərkəzi, muzey və kafenin xidmətlərindən istifadə edə biləcəklər. Gecəni Ağdamda qonaq qalmaq istəyənlər isə İmarətin yaxınlığında yerləşən, yenicə açılmış "Aghdam City Hotel"ə üz tuta bilərlər. Elə biz də otellə tanış olmaq, haqqında ətraflı məlumat almaq üçün yollanırıq səfər marşrutumuzun növbəti dayanacağı olan "Aghdam City Hotel"ə.

Ağdam şəhərinin mərkəzinə yaxın yerdə inşa edilmiş hotelin fəaliyyətə başlaması xüsusilə əlamətdardır. Belə ki, gündən-günə böyüməkdə olan, yeni inkişaf yolu ilə irəliləyən Ağdama işləmək və turizm məqsədilə gələnlərin sayı sürətlə artmaqdadır. Bu isə təbii olaraq, şəhərdə yerləşmə məsələsini aktuallaşdırır. "Aghdam City Hotel"in işə salınması sözügedən məqamın da diqqətdə saxlanıldığını göstərir. Artıq şəhərə gələn qonaqlar gecələmək üçün yer tapmaqda problemlə üzləşməyəcəklər. Üstəlik, hotelin açılışı regionda turizmin müxtəlif növlərinin inkişafı baxımından da mühüm rol oynayacaq.

Mehmanxananın direktoru Murat Kodan söylədi ki, 5 mərtəbədən, 130 nömrədən ibarət olan oteldə qonaqların zövqünü oxşayan interyer işləri görülüb. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans və iclas zalları yaradılıb, həmçinin restoran və barlar qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır. Onu da öyrəndik ki, oteldə fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş 4 otaq da mövcuddur. "City Hotel"də qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes və SPA mərkəzləri də yaradılıb.

Dövlət başçısının Ağdama növbəti səfərinin izi ilə üz tutduğumuz budəfəki məkan təməli yenicə qoyulmuş "İmarət" stadionunun yerləşəcəyi ərazidir. İdmansevərlərə yaxşı məlumdur ki, vaxtilə Ağdamın "Qarabağ" futbol komandasının ev oyunlarını keçirdiyi "İmarət" stadionu da işğal dövründə erməni vəhşiləri tərəfindən tamamilə dağıdılıb. Bu gün isə Azərbaycan Prezidenti yeni, daha müasir, UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa edilməsi nəzərdə tutulan stadionun təməlini qoymaqla bütün dünyaya nümayiş etdirir ki, biz mənfur qonşularımız kimi dağıtmaqla deyil, qurub-yaratmaqla, tikməklə, düşmənin darmadağın etdiyi yerləri yenidən cənnətə çevirməklə məşğuluq. Çünki biz bu yerlərin əsl sahibləriyik!



"İmarət" haqqında məlumat verən Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elmir Mehdiyev bildirdi ki, stadionun inşası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir. Gənclər və İdman Nazirliyinin sifarişi ilə hazırlanmış unikal layihə əsasında tikiləcək "İmarət" stadionu 11 min 700 nəfərlik tamaşaçı tutumuna malik olacaq. Təbii ot örtüklü stadionda UEFA tələblərinə uyğun VVIP, VIP lounge, konfrans zalı, iclas otaqları, hakim otaqları, komandalar üçün soyunma-geyinmə sahələri, media otaqları, muzey, şərhçi otaqları və digər inzibati, köməkçi sahələr tikiləcək. Kompleksə əlavə məşq meydançası, qaçış zolağı, avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri, texniki bina və qurğular da daxildir.

Gələcəkdə şəhər əhalisi stadionun ərazisindən park, əyləncə zonası kimi də istifadə edə biləcək. Bu məqsədlə stadionda fitnes zalı, kafe, restoran, idman malları mağazaları və digər ictimai xidmət sahələrinin yaradılması nəzərdə tutulur.

### Ağdam Qayıdışın astanasında

Ağdama səfərimizin son mərhələsi rayonun Xıdırlı və Kəngərli kəndlərində aparılan tikinti işlərinin gedişi ilə tanışlıq oldu. Tikintisi sürətlə davam edən kəndlərin küçə və həyətlərini gəzdikcə əmin olduq ki, çox keçməyəcək biz bu müqəddəs torpaqlarımıza ayaq basanda erməni vəhşiliyinin acı, ürək dağlayan nəticələri ilə deyil, gözəlliklərlə, doğma yurdlarına dönmüş insanların çöhrəsindəki xoşbəxt təbəssümlə qarşılaşacağıq.

Bizi bu istiqamətlərdə müşayiət edən Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarətmə Xidmətinin mətbuat katibi Leyla Sarabi öz doğma sakinlərini qarşılamağa hazırlaşan kəndlərdə görülən işlər barədə ətraflı məlumat verdi:

– Rayonda quruculuq işlərinin geniş vüsət aldığı yaşayış məskənlərindən biri olan Xıdırlı kəndində 5 min 93 nəfərin məskunlaşdırılması planlaşdırılıb. 2022-ci ilin oktyabrın 4-də təməli qoyulan Xıdırlıda bərpa-tikinti-quruculuq işləri yüksək sürətlə davam etməkdədir. Ümumi sahəsi 418 hektar olan ərazinin tam layihələndirilməsi, həmin sahədə 1379 fərdi yaşayış evinin inşası planlaşdırılır.

Burada məskunlaşdırılacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 170 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 2 min 951 nəfərin köçürülməsi üçün 2, 3, 4 və 5 otaqlı olmaqla 719 fərdi evin tikilməsi planlaşdırılır. Həmin evlərin hamısının torpaq və bünövrə işləri, 643 fərdi evin isə hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. Ərazidə, mərkəzi kommunikasiya sisteminin və yol infrastrukturunun, çoxfunksiyalı bina, ailə-sağlamlıq mərkəzi, bayraq meydanı, klub, icma mərkəzi, məktəb, bağça, xalq sənətkarlıq emalatxanası, satış köşkləri və digər obyektlərin tikintisi də davam etməkdədir.

Kəngərli kəndində də bir-birindən yaraşıqlı evlərin tikintisi və təmiri plana uyğun davam etdirilir. Kəngərlidə 2 min 44 nəfərdən ibarət 632 ailənin məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə 1279 nəfərin köçürülməsi üçün 292 fərdi ev inşa edilir. Bütün evlərin torpaq, bünövrə və hörgü işləri, həmçinin 278 fərdi evin isə xarici tamamlama işləri başa çatdırılıb. Hazırda 94 fərdi ev üzrə daxili bəzək işləri görülür və mebel avadanlığı quraşdırılır.

Kəngərli kəndində də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə sakinlərin işlə təmin olunması nəzərdə tutulur.

Səfərimizin sonunda fürsətdən istifadə edib dövlət başçısının bir gün öncə təməlini qoyduğu Eyvazxanbəyli kəndinə də baş çəkirik. Eyvazxanbəylinin layihələndirilən ümumi ərazisi 300 hektara yaxındır. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpapaqlar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib. Kənddə 4 min 38 nəfərin məskunlaşdırılması məqsədilə 1091 fərdi evin tikilməsi nəzərdə tutulub.

Xatırladaq ki, Ağdam rayonunun 212 minə yaxın əhalisindən 162 min 397 nəfəri məcburi köçkün kimi respublikamızın 62 şəhər və rayonunda məskunlaşıb. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, hazırda Ağdam şəhərində və bir sıra kəndlərində bərpa-quruculuq işləri aparılır və bu ilin sonunadək həmin ərazilərin bir hissəsinə əhalinin köçürülməsi nəzərdə tutulub.

Vətənimizin hər qarışı kimi əziz olan Ağdamın da azad, firavan günlərinin yeni tarixi hesabı açılıb. Artıq 4 ildir ki, müqəddəs torpaqlarımızın bağrını yaran düşmən mərmiləri deyil, traktorların, kənd təsərrüfatı texnikalarının kotanları, malaları, biçin alətləridir. Çünki topraq, Qorqud Dədəmiz dediyi kimi, həm də əkib-becərdikcə Vətən olur! Biz indi bütün dünyaya göstəririk ki, öz yurdumuzu düşməndən geri almağı bacardığımız kimi, onu dirçəltməyə, gözəlləşdirməyə də hər imkanımız var.

Qarabağın mərkəzi rayonu Ağdam ölkə Prezidentinin rəhbərliyi və nəzarəti ilə xarabalıqlardan baş qaldırıb ucalır, yenidən ağ günlərinə qovuşur.

***Mahir RƏSULOĞLU***
***XQ***

**Ağdam**

# Müasir dövrdə milli ideyanın hədəfləri

**Milli ideya Azərbaycan dövlətinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olması, dünya birliyində mövqeyinin güclənməsi və xalqımızın milli kimliyinin möhkəmlənməsi baxımından böyük əhəmiyyət daşıyır. Ölkə əhalisinin müstəqil dövlətçilik və vətənpərvərlik amalları ətrafında sıx birləşməsində milli ideya mühüm rol oynayır. Bu ideyanın qarşısında müxtəlif hədəflər dayanır ki, onların sırasında ideoloji təhlükəsizliyin təmin olunması xüsusi önəm kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında ideoloji təhlükəsizliyə xüsusi diqqət yetirməsi bu məsələnin aktuallığını bir daha göstərdi.**



Azərbaycan Prezidenti çıxışında ideoloji təhlükəsizliyin dövlət qurumlarının və vətəndaş cəmiyyəti fəallarının diqqət mərkəzində olmasının vacibliyini bildirdi ki, bu da bir sıra səbəblərdən irəli gəlir. Onların arasında xarici dairələrin ölkəmizə qarşı apardığı ideoloji təhdidlər xüsusi yer tutur. Məlumdur ki, həmin dairələr həmişə Azərbaycanda vətəndaş həmrəyliyinə və xalq-iqtidar birliyinə xələl gətirməyə, hakimiyyətin apardığı siyasətə kölgə salmağa çalışıblar. Onlar ideoloji təxribatlara əl atmaqla ölkəmizdə ictimai rəyi çaşdırmağa, cəmiyyətdə qarşıdurmalar və gərginlik yaratmağa cəhd ediblər. Hətta bir-biri ilə rəqabət aparan xarici dairələr qarayaxma kampaniyasında bir araya gəliblər. Onlar ölkəmizin gələcəyi ilə bağlı qeyri-obyektiv fikir formalaşdırmağa çalışır, xüsusilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasının guya qeyri-mümkünlüyünü mütəmadi olaraq təbliğ edirdilər. Xalqımızın birliyi və Prezident İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində bu cür ideoloji təxribatların qarşısı alındı. 44 günlük Vətən müharibəsində şanlı Qələbə xarici dairələrin Azərbaycan xalqına və dövlətinə qarşı hazırladıqları ideoloji təxribatlara böyük zərbə vurdu.

Azərbaycana qarşı apardıqları böhtan kampaniyası dəfələrlə uğursuzluqla nəticələnsə də, təəssüf ki, xarici dairələr hazırda da məkrli niyyətlərindən əl çəkməyiblər. Onlar ölkəmizi qazandığı uğurlardan çəkindirməyə çalışır, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması faktını həzm edə bilmir, hərbi və iqtisadi, həmçinin siyasi-ideoloji vasitələrlə Ermənistanda revanşist meylləri gücləndirməyə cəhd göstərirlər. Bütün bunlar Azərbaycanda müasir dövrün reallıqlarına adekvat cavab verən milli ideyanın təkmilləşdirilməsini və onun mühüm tərkib hissələrindən biri olan ideoloji təhlükəsizliyin möhkəmləndirilməsini tələb edir.

## Qlobal çağırışlar və milli ideya

Azərbaycanın davamlı inkişafı müasir dövrün çağırışları nəzərə alınmaqla milli ideyaya yeni baxışların və yanaşmaların meydana gəlməsini şərtləndirir. Milli ideyanın qarşıdakı dövr üçün hədəfləri Prezident İlham Əliyevin apardığı siyasətdə öz əksini tapır. Xüsusilə Azərbaycan Prezidentinin bu il fevralın 14-də parlamentdə andiçmə mərasimində və sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasındakı çıxışlarında sadaladığı dövlətimizin qarşısında duran vəzifələr həm də milli ideyanın hədəflərini təşkil edir.

Qeyd edək ki, qloballaşma dövründə milli ideya böyük əhəmiyyət daşıyır. Çünki qloballaşma şəraitində milli ideya xalqın kimliyinin qorunub saxlanılması və mənəvi-əxlaqi dəyərlərlə uzlaşmayan mənfi təsirlərin qarşısının alınması üçün təsirli vasitələrdən biri kimi çıxış edir. Milli ideya vətəndaş həmrəyliyinə xələl gətirə biləcək mənfi meyllərin qarşısını alır ki, bu da ictimai-siyasi sabitlik şəraitində davamlı inkişafın təmin edilməsi üçün vacib amillərdən biridir.

Dövlətin və xalqın inkişafında milli ideyanın mühüm rol oynamasının nəticəsidir ki, bu məsələyə dair geniş müzakirələr aparılır, müxtəlif elmi-nəzəri baxışlar irəli sürülür. Məsələn, klassik yanaşmada milli ideyaya ümumbəşəri dəyərlər kontekstində baxılır. Hesab edilir ki, bu dəyərlər xalqın formalaşmasına və inkişafına ciddi təsir göstərir. Milli ideya vətəndaşların dövlət və cəmiyyət qarşısında üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirmələrini şərtləndirən dürüstlük, fəzilət və ədalət kimi idealları, milli kimliyi möhkəmləndirən dəyərləri, etik və əxlaqi normaları təşviq edir.

Tarixi-mədəni yanaşmada milli ideyanın inkişafında varislik prinsipinə xüsusi diqqət yetirilir. Bu kontekstdə göstərilir ki, mədəni irsin nəsillərdən nəsillərə ötürülərək qorunub saxlanılması və zənginləşməsi milli ideyanın inkişafını stimullaşdırır. Psixoloji yanaşmada milli ideyanın formalaşmasının və inkişafının, eyni zamanda, milli kimliyin psixoloji xüsusiyyətləri öyrənilir. Qlobal yanaşmada milli ideya qlobal çağırışlar kontekstində tədqiq olunur. Bu istiqamətdə aparılan araşdırmalardan aydın olur ki, qloballaşma prosesi milli ideya ilə bağlı ənənəvi baxışlardan fərqli olaraq yeni yanaşmalar yaradır.

Müasir dövrdə qlobal problemlərin həlli sahəsində milli ideyanın üzərinə mühüm vəzifələr düşür. Onların sırasında cəmiyyətin müxtəlif sahələrini əhatə edən davamlı inkişaf strategiyalarının həyata keçirilməsi mühüm yer tutur. Milli ideya qarşısında qlobal çağırışların optimal həlli yollarının axtarışı, dünya dövlətləri və beynəlxalq təşkilatlar ilə səmərəli əməkdaşlığın möhkəmləndirilməsi, bəşəriyyəti narahat edən problemlərin həllinin vacibliyinə dair ictimai rəyin formalaşdırılması, ölkənin tərəqqisi və yüksək sosial rifah üçün maddi, intellektual resurslardan səmərəli istifadə olunması kimi vəzifələr dayanır.

İnformasiya cəmiyyətinin, süni intellekt texnologiyalarının və rəqəmsallaşmanın milli ideyaya təsiri çoxşaxəli xarakter daşıyır. Elmi-texniki tərəqqi sahəsində qazanılan nailiyyətlər milli ideyanın özündə ehtiva etdiyi dəyərlərin və normaların yenidən nəzərdən keçirilməsinə səbəb olur. Bu aspektdə milli ideyanın hədəfləri aşağıdakılardır:

- Qabaqcıl tədqiqat mərkəzlərinin yaradılması, innovasiya infrastrukturunun inkişaf etdirilməsi;
- süni intellekt sahəsində tədqiqatların dəstəklənməsi, stimullaşdırılması üçün dövlət proqramlarının və konsepsiyalarının həyata keçirilməsi;
- süni intellekt texnologiyaları ilə işləmək bacarığına malik yüksəkixtisaslı mütəxəssislərin hazırlanması;
- qlobal bazarda rəqabət qabiliyyətinin gücləndirilməsi üçün süni intellektin imkanlarından istifadə olunması;
- ənənəvi sənaye sahələrini yeni texnologiyalara uyğunlaşdırmaqla onların rəqabət qabiliyyətinin artırılması və s.

## Tarixi irs və müasirlik

Müasir dövrdə Azərbaycanda milli ideya ilə bağlı araşdırmaların aparılmasının aktuallıq kəsb etməsi həm milli inkişaf strategiyasının, həm də qlobal çağırışların yaratdığı reallıqlarla sıx bağlıdır. Qeyd edək ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli ideya məsələsi cəmiyyətdə müzakirə olunan əsas mövzulardan birinə çevrildi. Xüsusilə 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra azərbaycançılıq məfkurəsinin ictimai şüurda özünə mühüm yer tutması istiqamətində məqsədyönlü dövlət siyasətinin aparılmasına başlanıldı. Azərbaycançılıq tolerant və multikultural mühit yaradan, milli özünüdərki və kimliyi möhkəmləndirən ideologiya kimi müstəqil dövlət quruculuğunun uğurla həyata keçirilməsində əhəmiyyətli rol oynadı, xalqımızı ümummilli maraqlar ətrafında sıx birləşdirdi. Aydın oldu ki, milli ideyanın səfərbəredici gücü özünü Vətənini sevən hər bir azərbaycanlının xalqına və dövlətinə sevgisində, bu sahədə üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməsində göstərir.

Milli ideyanın əsaslandığı dəyərlər aşağıdakılardır:

- Müstəqil dövlətçilik və suverenlik;
- qanunun aliliyi;
- insan hüquqları;
- sosial ədalət;
- milli kimlik;
- tarixi-mədəni irs;
- dini-mədəni müxtəliflik;
- vətəndaş həmrəyliyi və s.

Milli ideya mənəvi-əxlaqi dəyərlərin və mədəni ənənələrin qorunub saxlanılaraq nəsillərdən nəsillərə ötürülməsini təmin etməklə xalqımızın tarixi yaddaşının möhkəmlənməsində mühüm rol oynayır. İctimai şüurda “Biz kimik?”, “Bizim milli kimliyimizin mahiyyəti nədən ibarətdir?” kimi suallara cavab verən milli ideya insanlarda keçmiş, indi və gələcək haqqında baxışlar formalaşdırır, varislik prinsipinə əsaslanmaqla xalqımızın çoxəsrlik mənəvi-əxlaqi dəyərlərini zənginləşdirir. Milli ideyanın möhkəmlənməsində mədəni irs, elm və təhsil, iqtisadi inkişaf və sosial rifah, ictimai təşəbbüslər və vətəndaş fəallığı, həmrəylik kimi amillər xüsusi yer tutur. Xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi hadisələrə, milli kimliyin qorunmasında vacib rol oynayan adət-ənənələrə hörmətlə yanaşılması insanları həmrəylik şəraitində ümummilli məqsədlər ətrafında birləşdirən amillərdən biridir. Ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində uğurların əldə olunması, sağlam əsaslara söykənən siyasi sistemin mövcudluğu milli ideyanın inkişafı və onun həyata keçirilməsi üçün əlverişli şərait yaradır.

Milli ideyanın siyasi-hüquqi əsasları öz əksini Azərbaycan Respublikasının Konstitusiyasında tapır. Konstitusiyanın ümumxalq səsverməsi - referendum yolu ilə qəbulu həm də bu sənəddə ifadə olunan ideoloji baxışların xalqımızın iradəsini təcəssüm etdirdiyini göstərir. Konstitusiyada Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrini davam etdirəcəyi, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar olunmasının vacibliyi, keçmiş, indiki və gələcək nəsillər qarşısında məsuliyyətin dərki və digər ideoloji baxışlar öz əksini tapır. Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olunması, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlətin qurulması, layiqli həyat səviyyəsinin təminatı, dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq və s. ali məqsədlər kimi bəyan edilir. Milli ideyadan irəli gələn hədəflər öz əksini Konstitusiya ilə yanaşı, dövlət proqramlarında və konsepsiyalarında tapır.

Milli ideyanın hədəfləri aşağıdakılardır:

- Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması;
- hüquqi və dünyəvi dövlətin möhkəmləndirilməsi;
- xalqın layiqli həyat şəraitində yaşamasının təmin olunması;
- vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi;
- tolerantlıq ənənələrinin qorunması;
- dünya dövlətləri ilə bərabərhüquqlu münasibətlərin inkişaf etdirilməsi və s.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı ilə xalqımızın qazandığı möhtəşəm Zəfər nəticəsində milli ideyanın əsas hədəflərindən birinə (Azərbaycan dövlətinin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi) nail olundu. Bu tarixi hadisə sübut etdi ki, milli ideyanın xalqımızda yaratdığı yüksək vətənpərvərlik əhvali-ruhiyyəsi müharibədə Qələbəni təmin edən mühüm amillərdən biridir. Milli ideyanın yuxarıda sadaladığımız digər hədəflərinə nail olunması istiqamətində aparılan ardıcıl və məqsədyönlü dövlət siyasəti nəticəsində böyük uğurlar əldə edilir. Bütün bunlar göstərir ki, ümummilli lider Heydər Əliyev tərəfindən milli ideologiya səviyyəsinə qaldırılmış azərbaycançılıq məfkurəsindən irəli gələn vəzifələri Prezident İlham Əliyev uğurla, yaradıcı şəkildə həyata keçirir.

Milli ideya cəmiyyəti birliyə, ümummilli məqsədlər naminə koordinasiyalı fəaliyyətə, vətəndaşları ictimai proseslərdə fəallıq göstərməyə səfərbər edir. Bu ideya

- milli və ümumbəşəri dəyərlərə əsaslanır;
- xalqımızın çoxəsrlik adət-ənənələrini və dəyərlərini təcəssüm etdirir, onları dünya sivilizasiyasının nailiyyətləri və qabaqcıl, mütərəqqi ideyaları ilə zənginləşdirir;
- Azərbaycan dövlətinin inkişafına, ölkəmizdə əmin-amanlığın qorunmasına xidmət edir;
- siyasi, dini-etnik və sosial mənsubiyyətindən asılı olmayaraq, ölkə vətəndaşlarını, xaricdə yaşayan soydaşlarımızı ümummilli məqsədlər ətrafında birləşdirir;
- Vətənə məhəbbət, azadlıq və müstəqillik ideallarına sədaqəti möhkəmləndirir və s.

Milli ideyanın təkmilləşdirilməsi ideoloji təhlükəsizliklə sıx bağlıdır. Belə ki, ideoloji təhlükəsizlik cəmiyyətin sabitliyinə və onun inkişafının əsasında dayanan dəyərlərə təhdid yaradan dağıdıcı ideologiyaların qarşısını alır. İdeoloji təhlükəsizlik xalqın milli kimliyinin mühüm elementləri olan adət-ənənələrin və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına kömək edir. Həmçinin milli maraqlara zidd olan ideologiyaların yayılmasının qarşısını almaqla xalqın vahidliyini möhkəmləndirir. İdeoloji təhlükəsizlik nə qədər güclü olarsa, milli ideyanın qarşısında dayanan hədəflərə uğurla nail olunur.

İdeoloji təhlükəsizliyə təhdidlər aşağıdakılardır:

- Milli ideyaya zidd olan, cəmiyyətdə qeyri-sabitlik və münaqişələr yaratmaq niyyəti güdən ideoloji cərəyanları yaymaq cəhdləri;
- informasiya texnologiyalarından sui-istifadə etməklə mili-mənəvi dəyərləri və milli kimliyi aşındırmağa cəhd göstərilməsi;
- terrorçu təşkilatlarının və ekstremist qrupların radikalizmi təbliğ edən zərərli ideologiyalar vasitəsilə qarşıdurma yaratmaq niyyətləri;
- insanların ideoloji baxışlarını manipulyasiya etmək üçün psixoloji metod və vasitələrdən istifadə olunması və s.

## Milli ideyanın təkmilləşdirilməsi: Ənənələr və yeniliklər

Milli ideya cəmiyyətin inkişaf dialektikasına uyğun olaraq təkmilləşmə mərhələlərini keçir. Dövrün tələbləri və mövcud ictimai gerçəklik milli ideyanın ictimai-siyasi mühitə uyğunlaşmasını tələb edir.

Milli ideyanın təkmilləşdirilməsini şərtləndirən səbəblər aşağıdakılardır:

- Milli ideya insanları ümummilli maraqlar ətrafında birləşdirir ki, bu da xalqın və dövlətin inkişafı üçün çox vacibdir;
- cəmiyyətin inkişaf səviyyəsindən irəli gələrək milli ideyanın qarşısında yeni hədəflər dayanır;
- milli ideyanın təkmilləşdirilməsi milli kimliyin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət daşıyır;
- milli ideya vətəndaşların ictimai-siyasi proseslərdə yaxından iştirak etməsini stimullaşdırır;
- beynəlxalq aləmdə dövlətin nüfuzunun artmasında milli ideya mühüm rol oynayır;
- milli ideya özündə qlobal problemlərin həlli ilə bağlı strategiyaların işlənib hazırlanmasını, həyata keçirilməsini ehtiva edir və s.

Milli ideyanın təkmilləşdirilməsini şərtləndirən amillər sırasında modernləşmə prosesi xüsusi yer tutur. Modernləşmə milli ideyaya müxtəlif istiqamətlər üzrə təsir göstərir. Məsələn, texnoloji tərəqqinin yaratdığı dəyişikliklər nəticəsində ənənəvi dəyərlərə münasibətdə yeni yanaşmalar meydana gəlir. Bu halda milli ideyanın əsas vəzifəsi modernləşmənin gətirdiyi bütün xüsusiyyətləri deyil, yalnız xalqımızın mentalitetinə uyğun olan və mütərəqqi xarakter daşıyan dəyərləri əxz etməkdir. Milli ideyanın tərkib hissələrindən biri olan adət-ənənələrə gəlincə, qeyd etməliyik ki, məhz onların vasitəsilə ictimai şüurun kommunikativ funksiyasının yerinə yetirilməsi mümkün olur.

Milli ideyanın təkmilləşdirilməsi Azərbaycan xalqının ümummilli maraqlarını, milli-mənəvi dəyərlərini və sosial-iqtisadi şəraiti nəzərə alan balanslaşdırılmış yanaşma tələb edir. Bu məqsədlə qlobal çağırışların obyektiv qiymətləndirilməsi, innovasiyaların, elmin və təhsilin inkişafının stimullaşdırılması, mədəniyyətlərarası və dinlərarası dialoqun genişləndirilməsi və digər amillər vacib əhəmiyyət daşıyır.

Azərbaycanda milli ideyanın təkmilləşdirilməsini şərtləndirən əsas səbəblərdən biri də dünyanın ideoloji məkanda təsir dairələrini genişləndirməyə çalışan radikal ideoloji cərəyanların milli təhlükəsizliyə təhdidlər yaratmaq cəhdləridir. Müasir dünya mürəkkəb ideoloji ziddiyyətlərlə xarakterizə olunur, bəşəriyyət əvvəlki dövrlərlə müqayisə edilməyəcək dərəcədə heç bir sərhəd tanımayan qlobal problemlərlə qarşılaşır, dünyada sülh və harmoniya, əməkdaşlıq və qarşılıqlı etimad kimi dəyərlərə mənfi təsir göstərilir. Bu cür mənfi proseslərə qarşı siyasi-ideoloji mübarizənin aparılmasında milli ideyanın üzərinə böyük vəzifələr düşür.

**Vüqar SƏLİMOV,**
**fəlsəfə doktoru**

---

**Daşkənddə “Rəqəmsal əsrdə həqiqət axtarışı: Dezinformasiya ilə mübarizə” mövzusunda Azərbaycan–Özbəkistan Media Forumu keçirilib.**

# Daşkənddə Azərbaycan – Özbəkistan Media Forumu

*“Rəqəmsal əsrdə həqiqət axtarışı: Dezinformasiya ilə mübarizə”*

2023-cü ilin avqustunda Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı imzalanan “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında media sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsi” çərçivəsində təşkil edilən məclisin açılışında Özbəkistan Prezidentinin mətbuat katibi Şerzod Əsədov media sahəsində iki ölkə arasında media sahasində təcrübə mübadiləsinin genişləndiyini, bunun real nəticələrə gətirib çıxardığını qeyd edib.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Azərbaycanın və Özbəkistanın media qurumları arasında əməkdaşlığın qurulması və genişləndirilməsi ilə bağlı önəmli hədəflərdən söz açıb. Azərbaycan Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov müasir çağırışları cavablandıran, çoxtərəfli əməkdaşlığa dəstək verən uğurlu media modellərinin mübadiləsinin əhəmiyyətini vurğulayıb.




Özbəkistan Ali Məclisi Senatının İnformasiya siyasəti və dövlət orqanlarında şəffaflığın təmin edilməsi komitəsinin senatoru Mahmud Parpiyev dezinformasiyaya qarşı birgə mübarizənin zəruriliyini qeyd edib. Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Azərbaycan ilə Özbəkistan arasında dostluq əlaqələrinin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Forumunun birinci sessiyasında “Dezinformasiya ilə mübarizədə beynəlxalq təcrübələr” mövzusu ətrafında müzakirələr aparılıb.

Özbəkistan Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi direktorunun birinci müavini Dilşod Səidcanovun moderatorluq etdiyi iclasda Beynəlxalq Münasibətlər üzrə İnformasiya və Analitik Araşdırmalar Mərkəzinin direktoru Sancar Vəliyev, Azərbaycan Teleradio Verilişləri QSC-nin sədri Rövşən Məmmədov, “Trend” İN-nın baş direktoru İlqar Hüseynov çıxış ediblər.

Forumun ikinci sessiyası “Dövlət və qeyri-dövlət media təşkilatlarının Özbəkistan və Azərbaycan əhalisinin media savadlılığının artırılmasında rolu” mövzusuna həsr olunub.

“Xəzər” Media Mərkəzinin baş direktoru Murad Dadaşovun moderatorluq etdiyi müzakirədə Özbəkistan Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyinin Media təhsilində rəqəmsal texnologiyaların inkişafı şöbəsinin müdiri Tohir Umarov, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, “Report” İA-nın direktoru Fuad Hüseynəliyev çıxış ediblər.

Sonuncu panel sessiyası “Kütləvi informasiya və kommunikasiyalar sahəsində Özbəkistan və Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi” mövzusunda keçirilib.

Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyinin təhlil və planlaşdırma idarəsinin müdiri Marat Aitovun moderatorluğu ilə aparılan üzakirələrdə Özbəkistanın Milli Televiziya və Radio Şirkəti “Dunö Buylab” telekanalının direktoru Nodir Tulyaqanov, Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov, Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin prorektoru Nozima Murodova, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin beynəlxalq münasibətlər şöbəsinin müdiri Nigar Hüseynova çıxış ediblər.

Bununla da Media Forumu işini başa çatdırıb.

***Qulu KƏNGƏRLİ***
***XQ-nin Mərkəzi Asiya müxbiri***

# Elmlə ictimai fəaliyyətin qovşağında

**Akademik elmin müasir dövrdəki əsas simalarından biri olan Rafael Hüseynov Azərbaycanda və onun hüdudlarından kənarda görkəmli ədəbiyyatşünas alim və tanınmış ictimai xadim kimi qəbul olunur. Onun Azərbaycanın tarixi və mədəniyyətinə, ədəbiyyatı və incəsənətinə həsr edilmiş sanballı elmi əsərləri və müstəqil dövlətçilik ideallarına həsr edilən ictimai fəaliyyəti azərbaycançılıq idealına xidmətin ifadəsidir.**



Rafael Hüseynovun elmi tərcümeyi-halı, bütövlükdə, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilə üzvi surətdə bağlıdır. Belə ki, 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin məzunu kimi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun fəlsəfə tarixi şöbəsində baş laborant olaraq əmək fəaliyyətinə başlayan Rafael Hüseynov daha sonra Şərqşünaslıq İnstitutunda, eləcə də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində kiçik elmi işçilikdən baş elmi işçiliyə, şöbə müdirliyinə və direktorluğadək məsuliyyətli yol keçmişdir. O, elmi tərcümeyi-halının mühüm hadisəsi olan "Baba Tahir və onun poetik irsi" mövzusunda yazdığı namizədlik dissertasiyasını 1980-ci ildə, "Məhsəti Gəncəvinin yaradıcılıq bioqrafiyasının kompleks tədqiqi"nə həsr edilmiş doktorluq dissertasiyasını isə 1992-ci ildə uğurla müdafiə etmişdir. Filologiya elmləri doktoru, professor Rafael Hüseynov 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə Akademiyanın həqiqi üzvü seçilmişdir. Milli akademik qurumun həqiqi üzvü kimi o, Azərbaycanda şərqşünaslıq–ədəbiyyatşünaslıq elminin inkişafına, yeni elmi nəsillərin yetişib hazırlanmasına mühüm töhfələr verir.

Akademik Rafael Hüseynov artıq 21 ildir ki, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru kimi fəaliyyətini uğurla davam etdirməkdədir. Rafael Hüseynovun rəhbərliyi dövründə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə bu mötəbər elm və mədəniyyət ocağına "Milli" statusu verilmişdir. Akademik Rafael Hüseynovun böyük zəhməti sayəsində Ədəbiyyat Muzeyinin ekspozisiyası müstəqil Azərbaycan dövlətinin müasir prinsiplərinə və ədəbi-tarixi proseslərin reallıqlarına uyğun olaraq tamamilə yenidən qurulmuş, muzeydə çoxəsrlik Azərbaycan ədəbiyyatının sanki canlı salnaməsi yaradılmışdır. Bununla yanaşı, bu gün həmin muzey Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tərkibində həm də ölkəmizin əsas elmi mərkəzlərindən biri olmaq funksiyasını yüksək səviyyədə yerinə yetirir. Beynəlxalq və ölkə miqyaslı ciddi elmi tədbirlərə evsahibliyi etməsi Ədəbiyyat Muzeyinin ədəbiyyat elminin də inkişafında özünəməxsus rol oynadığını göstərir. Son illərdə burada ilk dəfə olaraq Dissertasiya Şurasının yaradılması və uğurla fəaliyyətini davam etdirməsi isə Ədəbiyyat Muzeyinin tarixinə yazılacaq hadisə kimi akademik Rafael Hüseynovun xidməti sayılmağa layiqdir. Bu da mahiyyəti etibarilə muzey işi sahəsində təkrarsız hadisələrdəndir ki, Rafael Hüseynov əfsanəvi xalq qəhrəmanı Mehdi Hüseynzadənin – Mixaylonun Sloveniyanın Novo Qoritsa şəhərində muzeyini yaradıb.

Tanınmış alimin müstəqil Azərbaycan dövlətinin quruculuğunda və inkişafında müstəsna rolları olan görkəmli şəxsiyyətlərin – ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərindən bəhs edən "Böyük yolun həqiqəti" (2020) və "İkinci olmayacaq" (2023) kitabları müstəqil dövlətçilik təfəkkürü ilə yazılmış və çoxillik elmi axtarışların nəticəsi kimi meydana çıxmış fundamental tədqiqatlardır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr olunmuş əsərləri zəngin arxiv sənədləri və dövrü mətbuat materialları əsasında yazılmış müstəqil tədqiqatlardan ibarətdir. Ulu öndər Heydər Əliyevin mənalı və şərəfli tərcümeyi-halının bir çox qiymətli səhifələri, xüsusən, Cənubi Azərbaycanla əlaqədar olan tarixi məqamlar ilk dəfə olaraq akademik Rafael Hüseynov tərəfindən aşkar edilərək elmi tədqiqata cəlb olunan nadir sənədlər və materiallar əsasında geniş ictimaiyyətə təqdim olunub. Eyni zamanda, görkəmli dövlət xadiminin Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini kimi də çoxcəhətli fəaliyyətinə dair az məlum olan bir çox hadisələri və faktları da Heydər Əliyevşünaslığa Rafael Hüseynov tərəfindən daxil edilib. Akademik Rafael Hüseynovun Azərbaycan radio və televiziyasında dahi şəxsiyyətin həyatı və mübarizəsinin unudulmaz məqamlarına həsr etdiyi verilişlər də Heydər Əliyev ideallarının təbliği, yeni nəsillərə çatdırılması baxımından əhəmiyyətlidir.

600-dən artıq elmi məqalənin, o cümlədən 20 monoqrafiyanın titul səhifəsində müəllif kimi akademik Rafael Hüseynovun imzası var. Əsərlərinin bir çoxu xarici ölkələrdə, ümumilikdə, 25 dildə çap olunub. Onun "Baba Tahir dübeytiləri" (1988), Hüseyn Cavid haqqında "Əbədi Cavid" (1987, 2007), Məhsəti Gəncəvi haqqındakı "Məhsəti – özü, sözü, izi" (2005), Azərbaycanın sənət tarixinə həsr edilmiş "Min ikinci gecə" (1988), "Hamısı ulduz" (2012), "İmzamız" (2012), Məhəmməd Füzuli haqqında "Yoxdan var" (2014), Azərbaycan ədəbiyyatının klassikləri haqda "Söz heykəli" (2012), "Sözün meracı" (rus dilində, 2014), "Məkansız və zamansız Nəsimi" (Azərbaycan, rus və ingilis dillərində, 2019), "Nizami Gəncəvinin əbədi səsi" (ingilis dilində, 2021) və sair əsərləri mühüm elmi yenilikləri və yüksək nəzəri səviyyəsi ilə seçilən ciddi elmi tədqiqatlardır. O, XIV əsrin böyük Azərbaycan musiqişünası Əbdülqadir Marağayinin "Məqasid ül-əlhan" əsərini və onun şeirlərini farscadan Azərbaycan dilinə tərcümə edib, haqqında tədqiqatlar aparıb. Onun orta əsr Azərbaycan klassikləri İsmayıl ibn Yəssar (VIII), Baba Kuhi Bakuvi (XI əsr), Qətran Təbrizi (XII əsr), Mücirəddin Beyləqani (XII əsr), Zülfüqar Şirvani (XIII əsr) və başqaları haqqında əsərləri orta əsrlər Azərbaycan klassik ədəbiyyatının həyatı və ədəbi-ictimai fəaliyyəti az öyrənilmiş simalarına həsr edilmiş sanballı elmi-tədqiqat əsərləridir. Azərbaycan Şərqşünaslığında məhz Rafael Hüseynovun xidmətləri sayəsində Məhsətişünaslıq müstəqil elmi istiqamətə çevrilib. Onun axtarışları və yeni elmi yanaşmaları ilə Azərbaycan Füzulişünaslıq elmi qiymətli əlavələrlə zənginləşdirilib.

Rafael Hüseynovun XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Firudin bəy Köçərli, Məhəmməd Hadi və onlarla digər görkəmli simaları haqqında son illərdə apardığı tədqiqatlar, çap etdirdiyi məqalələr bu tarixi dövrün yeni səhifələrinin açılmasına xidmət edir. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas yaradıcılarından biri olan Hüseyn Cavidin həyatı və yaradıcılığına həsr olunan fundamental tədqiqatları ilə Rafael Hüseynov ədəbiyyatşünaslıq elmində zirvə fəth etməyə nail ola bilib. Akademikin "Vaxtdan uca" monoqrafiyası Azərbaycan cavidşünaslığının əfsanəsi olaraq qalmaqdadır. Alimin sovet dövrü Azərbaycan ədəbiyyatının görkəmli simaları Rəsul Rza, Mikayıl Müşfiq, Əli Tudə, Cəfər Mücri, Anar, Vaqif Səmədoğlu və başqalarından bəhs edən tədqiqatlarında o, çətin siyasi-ideoloji mühitdə də böyük ədəbiyyatın yaradılmasının mümkünlüyü haqqındakı həqiqətləri açıb göstərmişdir. Həmçinin Rafael Hüseynovun XX əsr Azərbaycan mədəniyyətinin görkəmli simaları Üzeyir Hacıbəyli, Asəf Zeynallı, Bülbül, Fatma Muxtarova, Müslüm Maqomayev, Qara Qarayev, Vaqif Mustafayev, Hacıbala Hüseynov haqqında araşdırmaları yenilikləri və elmi sanbalı ilə seçilir. Bütün bunlarla Rafael Hüseynov Azərbaycan ədəbiyyatı ilə yanaşı, incəsənətimizin də mahir tədqiqatçılarından biri olduğunu meydana qoyur. Onu da qeyd etmək lazımdır ki, Rafael Hüseynovun incəsənət xadimlərinə həsr etdiyi tədqiqatları da onun ədəbiyyatşünaslıq əsərlərində olduğu kimi, professional səviyyədə yazılıb. Artıq Rafael Hüseynov şərqşünaslıq və ədəbiyyatşünaslıqla eyni səviyyədə sənətşünaslıq sahəsində də ixtisaslaşmışdır. Akademikin müxtəlif incəsənət hadisələrinə və ayrı-ayrı teatr və musiqi xadimlərinə, rəssamlara həsr etdiyi tədqiqatlar yeni sənətşünas nəsillər üçün qiymətli istinad mənbələridir.

Görkəmli alim Rafael Hüseynov həm də pedaqoji fəaliyyətlə ardıcıl olaraq məşğul olub. O, 1987-1989-cu illərdə Bakı Dövlət Universitetində dərs deyib, 1990–1991-ci illərdə Üzeyir Hacıbəyli adına Musiqi Akademiyasında Mədəniyyət tarixi kafedrasının müdiri vəzifəsində çalışıb. Bundan başqa, Rafael müəllim 1995–1998-ci illərdə Xəzər Universitetində Azərbaycan ədəbiyyatı və Azərbaycan mədəniyyəti fənlərini, 1999–2001-ci illərdə Bakıda Amerika Universitetində Azərbaycan, Şərq ədəbiyyatı və Azərbaycan mədəniyyəti fənlərini tədris edib. O, respublikada ilk dəfə olaraq Azərbaycanşünaslıq kafedrasının yaradıcısı və müdiri olub. Eyni zamanda, 2008–2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan və türk xalqları ədəbiyyatı tarixi" fənnini tədris edib, Qədim ədəbiyyat və folklor kafedrasının professoru kimi fəaliyyət göstərib. Bütün bunlarla bərabər, o, respublikamızda ilk dəfə olaraq latın qrafikası əsasında "Əlifba" dərsliyinin də müəllifidir.

Rafael Hüseynov bədii yaradıcılıqla da məşğul olur. Ədəbiyyatşünas alimin librettosu əsasında bəstəkarlar Faiq Sücəddinov "Füzuli" operasını, Oqtay Rəcəbov "Heydər oratoriyası"nı və "Mete Xaqan" baletini yazıblar. O, eyni zamanda, "Nəsimi" baletinin də libretto müəllifidir. Rafael Hüseynov böyük dövlət xadimi Heydər Əliyevə həsr edilmiş nəğmələr silsiləsindən ibarət "Şah əsər Azərbaycan" adlı albom-kitabın müəllifidir. Onun heca və əruz vəznlərində yazılmış bir çox şeirləri həqiqi sənət örnəkləridir. Şeirlərindən bir çoxuna mahnılar bəstələnib. Rafael Hüseynovun klassik Şərq ədəbiyyatından etdiyi tərcümələri də əhəmiyyətli ədəbiyyat mətnləridir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi də Rafael Hüseynov ölkəmizdə və beynəlxalq miqyasda geniş iş aparır. Deputat kimi o, 20 ildən artıq dövrdə elm və mədəniyyət sahəsində qanunvericilik bazasının formalaşdırılmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq səviyyədə təbliğ və müdafiə olunmasında daim fəal və aydın siyasi mövqe nümayiş etdirir. Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasının və AŞPA-nın Mədəniyyət, Elm, Təhsil və Mətbuat Komitəsinin üzvü olaraq, Rafael Hüseynov ölkəmizin müstəqil dövlətçilik maraqlarının qorunması və daha da möhkəmləndirilməsi yollarında bütün enerjisi, var qüvvəsi ilə çalışıb. Azərbaycanın klassik və müasir ədəbiyyatından, incəsənət xadilmlərindən bəhs edəndə olduğu kimi, Avropa Şurasının Parlament Assambleyasının iclaslarında da həmişə azərbaycançılıq mövqeyindən çıxış edib. Ölkəmizə qarşı ikili standartlara, məkrli və qərəzli münasibətlərə cavab verəndə də o, əsl azərbaycanlı kimi çıxışlar etməklə Azərbaycanın gur səsinin yüksəlməsinə məsuliyyətlə xidmət göstərib. Bütün bunlara görə Rafael Hüseynovun elmi fəaliyyəti ilə ictimai fəaliyyəti üzvi surətdə bir-birini tamamlayır. Bu günlərdə VII çağırış Milli Məclisə seçkilərdən sonra formalaşan parlamentin sədr müavini seçilməsini isə onun qanunverici orqanda səmərəli fəaliyyətinin nəticəsi kimi dəyərləndirmək lazımdır.

Rafael Hüseynov Türkiyə, Fransa, Rusiya, Gürcüstan, Özbəkistan, Türkmənistan, Hindistan, Belarus və sair ölkələrdə keçirilən beynəlxalq konqres və simpoziumlarda, həmçinin ölkəmizdə təşkil olunan elmi-mədəni və ictimai-siyasi tədbirlərdə məruzələrlə çıxış edərək Azərbaycan ədəbiyyatı və mədəniyyətini uğurla təmsil və təbliğ edir. Alimin rəhbərliyi ilə 23 fəlsəfə, 14 elmlər doktoru hazırlanıb.

Ədəbiyyat məsələlərinə və mədəniyyətə aid Azərbaycan radiosunda 1975-ci ildən etibarən hər həftə yayımlanan "Axşam görüşləri" proqramının müəllifi kimi Rafael Hüseynov bu gün də fəaliyyətini uğurla davam etdirir. Gələn il 50 yaşı tamam olacaq "Axşam görüşləri" verilişi Azərbaycan efirinin ən uzunömürlü müəllif proqramı kimi Ginnesin Rekordlar siyahısına daxil edilə bilər. Rafael Hüseynov həm də 2021-ci ildən Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalında ölkəmizin ədəbi-mədəni keçmişində xüsusi rol oynamış zəka sahibləri, onların keçdikləri həyat və sənət yolundan, zəngin fəaliyyətlərindən bəhs edən silsilə buraxılışları yayımlanan "Vətənim" layihəsinin ssenari müəllifi və rejissorudur.

Akademik Rafael Hüseynov Respublika Elmi Tədqiqatları Əlaqələndirmə Şurası nəzdindəki Filologiya Şurasına uzun illər ərzində rəhbərlik edib. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Dissertasiya Şurasının sədri, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü kimi səmərəli fəaliyyət göstərməkdədir. Rafael Hüseynov Azərbaycan Yazıçılar Birliyinin Beynəlxalq Rəsul Rza Mükafatı Komissiyasının sədri vəzifəsində də ədəbiyyatımızın inkişaf etdirilməsi və dəyərləndirilməsi məqsədilə fəal iş aparır.

Görkəmli elm xadimi, akademik Rafael Hüseynovun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 avqust 2024-cü il tarixli sərəncamı ilə Rafael Baba oğlu Hüseynov ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif olunmuşdur. O, 2005-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, 2018-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalını, 2019-cu ildə Azərbaycan Respublikası Milli Məclisinin "Parlament" medalını və 2023-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalını almışdır. Oksford Universitetinin Beynəlxalq "Elmdə ad" mükafatını qazanan Rafael Hüseynov 2021-ci ildə "Nizami Gəncəvi İli"ndəki səmərəli elmi fəaliyyətinə görə, 2022-ci ildə isə "Şuşa İli"ndə Qarabağ–Şuşa mövzusunda apardığı tədqiqatlarına görə AMEA Rəyasət Heyətinin Fəxri fərmanlarına layiq görülmüşdür.

Akademik Rafael Hüseynov hazırda ömrünün və ictimai-siyasi fəaliyyətinin ən yetkin və məhsuldar dövrünü yaşayır. Onun Azərbaycan ictimai fikri, mədəniyyəti və ədəbiyyatını beynəlxalq miqyasda tanıtmaq, təbliğ etmək sahəsində həyata keçirmək istədiyi daha geniş planları var. Azərbaycan klassik ədəbiyyatının daha dərindən öyrənilməsi və geniş ictimaiyyətə çatdırılması sahəsində də Rafael Hüseynovun üzərinə düşən öhdəliklər çoxdur. Ölkəmizin ictimai-siyasi həyatında da həmişə olduğu kimi, Rafael Hüseynovun sözünə ehtiyac var. Görkəmli ədəbiyyatşünas-şərqşünas alim və tanınmış ictimai xadim, akademik, Milli Məclisin vitse-spikeri Rafael Hüseynova beynəlxalq miqyasda və respublikamızda elmlə ictimai-siyasi fəaliyyətin qovşağında Azərbaycan dəyərlərinin, elmimizin, mədəniyyətimizin inkişafı yollarında daha böyük uğurlar arzulayıram!

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***akademik***

# Bakıda XV Beynəlxalq Multikulturalizm Məktəbi

**Dünən Bakıda "Sülhün, dialoqun və tolerantlığın qorunmasında mədəni irsin rolu" mövzusunda XV Beynəlxalq Multikulturalizm Məktəbində məşğələlər başlanıb.**



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkil etdiyi bu məktəb qurumun "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin davamıdır. Budəfəki məşğələlərdə 21 ölkədən – Azərbaycan, Rusiya, Türkiyə, Çin, Serbiya, Yaponiya, Qazaxıstan, Rumıniya, Moldova, Özbəkistan, Hindistan, Mərakeş, Bolqarıstan, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Qırğızıstan, İraq, Pakistan, Əlcəzair, Mozambik və Konqodan olan 30-a yaxın tələbə iştirak edir. Layihə oktyabrın 1-dək davam edəcək.

Multikulturalizm Məktəbi Bakı şəhəri ilə yanaşı, Şuşa, Laçın və Ağdam rayonlarında da fəaliyyət göstərəcək. İştirakçılar Şuşa, Laçın və Ağdam şəhərlərinə səfər edəcək, Azərbaycanın işğaldan azad edilən tarixi torpaqlarında mədəni irsin vəziyyəti və aparılan quruculuq işləri ilə yaxından tanış olacaqlar. İştirakçılara Azərbaycandakı multikultural mühit, tolerant əhval-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında ətraflı məlumat veriləcək.

Tələbələr "Azərbaycan Multikulturalizm modelinin xüsusiyyətləri", "Mədəniyyət və inancın kəsişməsi: Dini müxtəlifliyin Azərbaycan nümunəsi", "Qafqaz Albaniyası irsi siyasi diskursda", "Azərbaycan mədəni irsinə qarşı vandalizm aktları" mövzularında mühazirələr dinləyəcəklər. Layihə çərçivəsində BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, BBMM-in icraçı direktoru Rəvan Həsənovla görüşülər də planlaşdırılır.

Beynəlxalq Multikulturalizm Məktəbi çərçivəsində "Öz xalqını təqdim et" adlı musiqili axşamlar təşkil olunacaq. Burada iştirakçı tələbələr öz xalqlarının mədəniyyəti, adət ənənələri ilə bağlı təqdimatlar edəcəklər.

Məktəbin açılışı günü müdavimlər və təşkilatçılr Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



# Neftçala və Biləsuvarda da günəş elektrik stansiyası tikiləcək

**Bərpaolunan enerji potensialı baxımından çox zəngin olan Azərbaycan neft və qaz sahələrində region, eləcə də dünya üçün təhlükəsizlik, habelə iqtisadi mənada dəyər mənbəyinə çevrilib. Neft və qaz dəhlizlərini yaradan və bununla beynəlxalq aləmə uğur nümayiş etdirən respublikamız “yaşıl” enerjinin reallaşmasında da dünyada lider mövqedə olan ölkələr sırasında yer alıb.**



Ölkəmizdə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda “yaşıl” enerji növləri uğurla gerçəkləşdirilir və onun dünya bazarlarına nəqli enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlanılır.

Azərbaycanda son illər sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub. Belə ki, “Masdar” şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq günəş və Abşeron–Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyalarının tikintisi ilə bağlı, ümumilikdə 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən 3 yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Avropa Yenidənqurma və İnkişaf Bankının bu günlərdə yayılan məlumatında adı çəkilən maliyyə qurumunun Neftçala rayonunun Bankə qəsəbəsində “Banka Solar” günəş fotoelektrik stansiyasının layihələndirilməsi, tikintisi və istismarı üçün 80 milyon dollara qədər uzunmüddətli kredit verəcəyi bildirilir. Məlumatda əsasən, layihənin ümumi dəyərinin 280 milyon dollar təşkil etdiyi vurğulanır və onun həyata keçirilməsini bir sıra digər beynəlxalq maliyyə institutlarının da dəstəkləyəcəyi gözlənilir. Stansiyanın tikintisini isə Birləşmiş Ərəb Əmirliyinə məxsus “Masdar” şirkətinin törəmə strukturu olan “Abu Dhabi Future Energy Company”nın reallaşdıracağı qeyd edilir.

Layihə yekunlaşandan sonra Azərbaycanın enerji sisteminə 315 MVt günəş enerjisi əlavə ediləcək və bu, təbii qazla işləyən elektrik stansiyalarını əvəz etməyə imkan verəcək. Ən başlıcası isə təşəbbüsün gerçəkləşməsi ölkəmizin Paris sazişi çərçivəsində bərpaolunan enerji məqsədlərinə çatmasına kömək edəcək. Proqnoza əsasən, layihə həyata keçirilməsi ilə il ərzində 314 min ton CO2 emissiyası azalacaq, həmçinin Azərbaycanın aşağı karbonlu iqtisadiyyata keçidində və istilik generasiyasından asılılığın azaldılmasında müsbət nəticə əldə olunacaq.

Ekspertlər bildirirlər ki, layihə Avropa Yenidənqurma və İnkişaf Bankının “yaşıl” iqtisadiyyata keçid strategiyasına uyğundur. Başqa sözlə, Neftçalada günəş elektrik stansiyasının tikilməsi ölkəmizin elektrik enerjisi istehsalının artımına töhfə verəcək ki, bu da Azərbaycanın “yaşıl” gündəliyinin irəliləməsində mühüm addımdır. Layihə ərazisi su quşları üçün Əsas Biomüxtəliflik Zonası ilə kəsişir. Lakin araşdırmalara əsasən, günəş elektrik stansiyasının tikilməsi quşların prioritet biomüxtəlifliyinə təhlükə yaratmır.

Stansiyanı “Navahı” yarımstansiyası ilə birləşdirəcək 330 kV-luq 80 kilometrlik elektrik xətti Şirvan Milli Parkı və miqrasiya dəhlizinin yaxınlığında yerləşən mühüm ornitoloji ərazinin yaxınlığından keçir. Xəttin tikintisinə məsul olan Azərbaycan hökuməti Dünya Bankının ekoloji və sosial standartlarına riayət etmək, o cümlədən həssas zonalara təsirin qarşısını almaq və quşlar üçün riskləri minimuma endirmək məsuliyyətini öz üzərinə götürür.

Layihə Yenikənd, Bankə bələdiyyələrinə və Neftçala Rayon İcra Hakimiyyətinə məxsus ümumi sahəsi 973 hektar olan üç sahəni əhatə edir. Bu torpaqların tədqiqinin Energetika Nazirliyinə tapşırılması nəzərdə tutulur. 3,5 kilometrlik asfalt yolun və paralel 6 kV və 35 kV-luq elektrik xətlərinin yerləşdiyi düz yarımsəhra ərazinin bir hissəsi əvvəllər heyvandarlıq təsərrüfatlarının istifadəsində olub, lakin icarə müqaviləsi ləğv edilərək həmin təsərrüfatlara alternativ sahə ayrılıb. 6 kV-luq xəttin minimal pozuntularla köçürülməsi, asfalt yolun isə işlək vəziyyətdə saxlanılması qərara alınıb.

Avropa Yenidənqurma və İnkişaf Bankı Biləsuvar rayonunda 445 MVt gücündə “Biləsuvar Solar SPV” günəş elektrik stansiyasının işlənib hazırlanması, tikintisi və istismarı üçün isə 100 milyon ABŞ dollarına qədər uzunmüddətli kredit ayıracaq. Bankın məlumatına əsasən, layihənin ümumi dəyəri 380 milyon ABŞ dolları təşkil edir və onun reallaşdırılmasına bir sıra digər beynəlxalq maliyyə institutları da dəstək verəcək. Bu layihəni də “Abu Dhabi Future Energy Company” həyata keçirəcək. Yeni günəş stansiyası Azərbaycanda bərpa olunan enerjinin istehsal gücünü artıracaq və bu, qazla işləyən elektrik stansiyalarını əvəz etməyə və Paris Sazişinə uyğun olaraq karbon qazının azaldılması hədəflərinə nail olmağa kömək göstərəcək.

Məlumatda bildirilir ki, “Biləsuvar Solar SPV” günəş elektrik stansiyasını “Nəvahi” yarımstansiyasına birləşdirən 90 kilometrlik 330 kV-luq elektrik xətti iki əsas quş sahəsinin və mühüm miqrasiya dəhlizinin yaxınlığından keçir. Xəttin tikintisinə cavabdeh olan Azərbaycan hökuməti ekoloji cəhətdən həssas ərazilərdən yayınmaq və quşlar üçün riskləri minimuma endirmək üçün xəttin marşrutunu tənzimləmək də daxil olmaqla, Dünya Bankının ekoloji və sosial standartlarına riayət etməyi qarşıya mühüm vəzifə kimi qoyur.

Bütün bu layihələr qlobal çağırışların önündə gedən Azərbaycanın hazırda bir çox istiqamətlər üzrə yeni dövrün tələblərinə ən yüksək səviyyədə reaksiya verən ölkələrdən biri kimi tanındığını deməyə əsas verir. Belə çağırışlardan ən önəmlisi isə bütün dünyada ildən-ilə artan enerji tələbatının ekoloji cəhətdən təmiz, “yaşıl” yollarla ödənilməsidir. İstehsalı bərpa olunan enerji mənbələrinə əsaslanan bu cür potensial isə hazırda ölkə üzrə 27 min meqavat həcmində qiymətləndirilir.

Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürüldüyü və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılmasının (hazırda 17 faiz təşkil edir) hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla bu istiqamətdə bir çox işlər görülür. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da “yaşıl” enerji zonası elan etməsi bu hədəfə çatmağın mühüm istiqaməti kimi diqqət mərkəzində saxlanılır.

# COP29-un 2 yeni rəsmi tərəfdaşı da elan olunub




**COP29 tədbirinin iki yeni rəsmi tərəfdaşı elan olunub. Bunlar “NEQSOL Holding” və “GİLTEX” şirkətləridir. Bu tərəfdaşlıq hər iki müəssisənin dayanıqlı təcrübə və qlobal iqlim məqsədləri ilə bağlı əzmkarlığını nümayiş etdirir.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat ofisindən bildirildiyinə görə, “NEQSOL Holding” və “GILTEX” şirkətləri Azərbaycanın “Milli öhdəlik proqramı”nda fəal iştirak edir. Bu proqram çərçivəsində qarşıya qoyulan məqsədlərdən biri iqlim məqsədlərinə nail olmaq, gələcək ekoloji, sosial və korporativ idarəetmə strategiyalarını formalaşdırmaq, eləcə də yerli tərəfdaşlıq meyarlarının tələblərinə cavab vermək üçün bu şirkətlərin daxili potensiallarını qiymətləndirməkdir.

Məlumata əsasən, “NEQSOL Holding” və “GILTEX” strukturları COP29 Azərbaycan Əməliyyat Şirkətinin təlim sessiyalarına qoşulmaqla səriştələrini artırır, resursların idarə edilməsini optimallaşdırır və ölkəmizin iqlim fəsadlarına qarşı mübarizəsinə töhfə verirlər.

“NEQSOL Holding” şirkətlər qrupu telekommunikasiya, enerji, texnologiya və tikinti də daxil olmaqla, müxtəlif sahələrdə layihələr həyata keçirir. Sözügedən şirkətlər qrupu 11 ölkəni (Azərbaycan, Niderland Krallığı, Birləşmiş Krallıq, ABŞ, Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, BƏƏ və s.) təmsil edən 12 mindən çox əməkdaşı ilə bütün dünyada 25 milyon müştəriyə xidmət göstərir. COP29 “NEQSOL Holding” şirkətlər qrupuna iqlim dəyişmələri ilə bağlı qlobal təşəbbüslərə səmərəli töhfə vermək üçün qlobal liderlərlə əməkdaşlıq qurmaq, bilik mübadiləsi aparmaq və innovativ həll variantlarının müzakirəsini reallaşdırmaq imkanı yaradır.

Azərbaycanda və Cənubi Qafqaz regionunda fəaliyyət göstərən “GILTEX” MMC isə respublikamızda istehsal olunan pambıqdan hazırlanan tekstil məhsullar buraxır. Şirkətin istehsal müəssisələrinə iplik, tikiş, tibbi maska fabrikləri, eləcə də 2 toxuma və 2 boya fabriki daxildir. Rəsmi tekstil üzrə tərəfdaş olaraq, “GILTEX” tekstil sənayesi çərçivəsində dayanıqlılıq və ətraf mühitin mühafizəsi üzrə əməkdaşlığın inkişafına töhfə verəcəyini bildirir.

Yaradılan bu imkandan istifadə etməklə, COP29-un tərəfdaşları qlobal iqlim siyasəti ilə bağlı fəaliyyətlərini genişləndirəcək, dayanıqlılıq üzrə səylərini ön plana çıxaracaq və öz əsas biznes sahələrində iqlim fəaliyyətinə keçidi dəstəkləyəcəklər. COP29-un tərəfdaşı olmaqla, bu şirkətlər ekoloji siyasətlərin təkmilləşdirilməsində və 1,5 dərəcə hədəfi baxımından qlobal icmalara dəstək göstərilməsində oynadıqları mühüm və həlledici rolu nümayiş etdirəcəklər.

# Azərbaycan təmsilçisi BMT-nin Avropa enerji qurumunun vitse-sədri seçilib

**Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyi İsveçrənin Cenevrə şəhərində BMT-nin Avropa İqtisadi Komissiyasının Dayanıqlı Enerji Həftəsi çərçivəsində keçirdiyi tədbirdə ölkəmizi təmsil edib.**



Agentlikdən redaksiyamıza verilən məlumata görə, tədbirin COP29 və “Cənub–Şərqi və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya regionunda enerji keçidinin sürətləndirilməsi” adlı panelində təqdimatla çıxış edən Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin hidrogen və yaşıl texnologiyalar şöbəsinin müdiri Rəna Hümbətova enerji keçidi ilə əlaqədar planlar barədə məlumat verib, həmçinin respublikamızda istifadəsi nəzərdə tutulan “yaşıl” texnologiyaların tətbiqi ilə əlaqədar ehtiyac və üstünlüklər barədə danışıb.

Daha sonra BMT-nin Dayanıqlı Enerji Komitəsinin 33-cü iclası çərçivəsində bu təşkilatın seçkisi keçirilib və Rəna Hümbətova komitənin vitse-sədri seçilib. Daha sonra “Gələcəyə baxış: Davamlı Enerji Komitəsinin görəcəyi işlər” ilə bağlı sessiya reallaşdırılıb. Sessiyada yeni seçilmiş komitənin sədr və sədr müavinlərinin iştirakı ilə növbəti dövr üzrə dayanıqlı enerji sahəsində əsas istiqamətlərin inkişafına dair yanaşmalar barədə müzakirələr aparılıb.

Sessiyanın sonunda Dayanıqlı Enerji Komitəsinin yeni vitse-sədri Rəna Hümbətova enerji keçidinin sürətləndirilməsi üçün regional əməkdaşlığın vacibliyini vurğulayaraq, “yaşıl” enerji dəhlizlər konsepsiyası və həmin konsepsiyanın ayrılmaz hissəsi olan hidrogen enerjisindən danışıb.

# BMT-də “İqlim, sülh və insan mobilliyi” mövzusunda müzakirə



**Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı mənzil-qərargahında qurumun Baş Assambleyasının “Yüksək Səviyyəli Həftə”si çərçivəsində Azərbaycanın COP29 sədrliyi ilə “İqlim, sülh və insan mobilliyi” mövzusunda yüksək səviyyəli sessiya keçirilib. COP29-un prezidenti kimi Azərbaycanın və Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) birgə təşkil etdiyi müzakirəyə BMT-yə üzv dövlətlərin təmsilçiləri, eləcə də dünya birliyi agentliklərinin nümayəndələri, səfirlər və diplomatlar qatılıblar.**

Sessiyada IOM-un baş direktoru Emi Pop, COP29 sədrliyinin danışıqlar qrupunun müşaviri, Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov, İtaliyanın İqlim Dəyişikliyi üzrə xüsusi elçisi Françesko Korvaro və Münaqişələrin Həlli, Sülhməramlı və Sülh Quruculuğu üzrə Qahirə Beynəlxalq Mərkəzinin baş direktoru Əhməd Əbdül-Lətif çıxış ediblər.

Xüsusi tapşırıqlar üzrə səfir E.İskəndərov çıxışında bildirib ki, Azərbaycanın COP29 sədrliyi zamanı prioritetlərindən biri beynəlxalq sülh və təhlükəsizliyə töhfə verməkdir. Məhz buna görə COP29 ərəfəsində atəşkəs çağırışı üzərində beynəlxalq tərəfdaşlarla iş aparılır. Səfir dünya əhalisinin artım müşahidə olunduğu ərazilərin həm iqlim dəyişikliyindən, həm də münaqişələrdən əziyyət çəkdiyini, bu baxımdan da Azərbaycanın COP29 prezidenti qismində BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında təşkil etdiyi tədbirin dünya ölkələri üçün praktiki dəstəyin təmin olunması məqsədi daşıdığını vurğulayıb.

Azərbaycanın təşəbbüsü ilə noyabr ayının 15-nin “Sülhə Yardım Günü” kimi müəyyən olunduğunu, həmin ərəfədə sülh mövzusunda Bakıda bir sıra silsilə təbirlərin keçiriləcəyini diqqətə çatdıran diplomatın sözlərinə görə, COP29 çərçivəsində “Bakı, İqlim və sülh mərkəzi” təsis ediləcək ki, bu da gələcəkdə iqlim dəyişiklikləri və sülh mövzusunda dünya ölkələrinə öz töhfəsini verəcək.

Sessiyada çıxış edən IOM-in baş direktoru Emi Pop Azərbaycanın sədrliyi ilə COP prosesində sülh gündəliyinin irəli sürülməsini yüksək qiymətləndirib. COP29 çərçivəsində bu məsələ ilə bağlı konkret nəticələrin əldə olunacağına əminliyini bildirən baş direktor xüsusilə həssas kateqoriyalardan olan dünya əhalisinə beynəlxalq yardımın vacibliyindən, iqlim dəyişikliyinin gələcəkdə təmiz su, hava və münbit torpaqlar uğrunda münaqişələrə yol açmaması üçün qabaqlayıcı tədbirlərin görülməsinin önəmindən bəhs edib. E. Popun sözlərinə görə, Dünya Bankının məlumatlarında qeyd olunur ki, əgər qabaqlayıcı tədbirlər görülməzsə, bir çox bölgələrdə davam edən iqlim dəyişiklərinin nəticəsi olaraq 2050-ci ilə qədər 60 milyon insan məcburi köçə məruz hala və iqlim miqrantı olaraq öz yaşadığı bölgələri tərk edə bilər. Bu da ciddi həyəcan siqnalı deməkdir.

Tədbirdə su qıtlığı, ərzaq təhlükəsizliyi və torpaqların deqradasiyası kimi iqlimlə əlaqəli yerdəyişmənin kritik səbəblərini ortaya çıxaran problemlərlə bağlı mühüm müzakirələr aparılıb. Bununla yanaşı, panel iştirakçıları cari çağırışlar haqqında fikirlər səsləndirib və tövsiyələr veriblər. Sessiyada əsas nəticəsi iqlim və sülh təşəbbüsləri arasında boşluqların doldurulması, birgə fəaliyyətlər vasitəsilə əlaqələrin gücləndirilməsi üçün platformanın tədqiqi ilə bağlı fikir mübadiləsi də aparılıb.

Müzakirələrdə Azərbaycanın COP29-a hazırlığı, Bakının ev sahibliyi edəcəyi beynəlxaq tədbirdə müzakirə oluncaq “İqlim, sülh və insan mobilliyi” mövzusunda iqlimin müxtəlif ölçüləri ilə kəsişən kritik qlobal problemlərin həllində ortaya qoyulacaq nəticələr də geniş müzakirə olunub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Türk birliyinə doğru

# Ortaq Türk Əlifbası qardaş xalqların ünsiyyətinə geniş qapı açır

**Xəbər verdiyimiz kimi, ötən günlərdə ümumtürk rəmzlərindən biri, ümumi ünsiyyətə geniş qapı açan Ortaq Türk Əlifbası uzun müzakirələrdən sonra həyata vəsiqə aldı. Bu mövzu ilə bağlı müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru, Türk Dünyası Ortaq Əlifba Komissiyasının üzvlərindən biri, professor Nadir Məmmədlidir.**



**– Nadir müəllim, gəlin əvvəlcə əlifbalar tarixinə nəzər salaq.**

– Qədimdə Aralıq dənizinin sahillərində Finikiya adlı ölkə olub. Finikiyalılar bir neçə ixtira ilə tarixin yaddaşında qalıblar. Onlardan biri də əlifbadır. Finikiya tacirləri başqa şəhərlərə mal aparır, alış-veriş edirdilər. Çox vaxt onlar borc pul və ya nisyə mal verir və bu zaman həmin şəxslərlə sövdələşirdilər. Şifahi sövdələşmələr tez-tez pozulurdu. Beləliklə, tacirlər danışıq səslərini işarə edən hərflər yaratmalı oldular. Zaman keçdikcə Finikiya əlifbası unuduldu, lakin sonradan bu əlifbanın əsasında yunan və latın əlifbaları yaradıldı.

Dünyada 3 əlifba var ki, bir çox xalqar öz hərf sistemlərini yaradarkən onlardan istifadə ediblər. Bunlar latın, ərəb və kiril əlifbalarıdır. Türkdilli xalqların, eləcə də Azərbaycan türklərinin istifadə etdiyi əlifbalar içərisində ən qədimi Orxon-Yenisey əlifbasıdır. Sonradan Azərbaycan xalqı uzun əsrlər boyu ərəb əlifbasından istifadə edib. Keçən əsrdə biz gah latın, gah kiril əlifbasını qəbul etmiş, nəhayət, əsrin sonuna yaxın yenidən müstəqillik qazandıqdan sonra latın əlifbasını seçmişik. Əsrlər sonra latın qrafikalı Azərbaycan əlifbası əsasında ortaq türk əlifbası yaradılır.

**– Bəs Ortaq Türk Əlifbasına keçid hansı zərurətdən yaranıb?**

– Ortaq Türk Əlifbası ideyası yeni dövrün məsələsi deyil, bunun tarixi var. Müzakirələr 1991-ci ildən başlayıb. Hələ o vaxt məsələ qoyulmuşdu ki, 34 hərfdən ibarət ortaq türk əlifbası yaradılsın. Sadəcə, müəyyən səbəblərdən məsələ o zaman həllini tapa bilməyib. Hələ o vaxtlar latın, yoxsa kirill əlifbasına keçməklə bağlı suallar ortaya çıxırdı. Müəyyən mənada, ortaq əlifbanın yaradılması üçün şərait, birlik yox idi.

Bu əlifbanın qəbulu türk xalqları arasında qarşılıqlı anlaşma və əməkdaşlığın daha da inkişafına töhfə verəcək. Fərqli coğrafiyalarda yaşayan türk xalqları təhsildən iqtisadiyyata, siyasətdən ədəbiyyata qədər bir çox sahədə daha da yaxınlaşacaq, inteqrasiya sürətlənəcək. Bu, təkcə Türk dünyasının deyil, dünyanın və bölgənin gələcəyinə dərindən təsir edəcək bir addımdır. Ortaq yazı mədəni birliyin ilk şərtlərindəndir.

Ortaq Türk Əlifbasının yaradılması ilə bağlı əksər iclaslarda iştirak etmişəm. Bunların sırasında Astana, Almatı, Bişkek, İstanbul görüşləri də var. Orta Asiyada keçirilmiş sessiyalarda, simpoziumlarda iştirak edəndə məsələ qaldırılmışdı ki, 40 hərf olsun. Şübhəsiz, bunun da məntiqi əsası var idi. Məsələn, özbəklərin, qazaxların, qırğızların hərfi, səs artikulyasiyası Azərbaycan əlifbasındakından çoxdur. Lakin bu qərara gəlindi ki, 34 hərf kifayətdir.

**– Qeyd etdiniz ki, ortaq türk əlifbası ideyası təzə deyil.**

– Hələ 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultayda da bu barədə danışılıb. Zaman-zaman bu kimi önəmli sessiyalarda türklərin ortaq əlifbasının yaradılması məsələsinin vacibliyinə toxunulsa da, konkret əməli və real işlər görülməyib. Həqiqətən də, ortaq əlifbanın yaradılması asan məsələ də deyilmiş. Təxminən, 100 il sonra həllini tapa bildi.

**– Nadir müəllim, ortaq türk əlifbasının üstünlükləri nələrdir?**

– Türklərin ortaq əlifbasının yaradılmasının bir çox üstün cəhətləri var. Biz bunun həm də siyasi önəmindən söz aça bilərik. Ortaq əlifba türkdilli xalqların bir-birini başa düşmələrinə, yaxınlaşmalarına, möhkəmlənmələrinə və dəyərlərin birləşməsinə başlıca əsas yaradacaq. Artıq hər bir türk xalqı eyni əlifbadan istifadə edəcək. Məsələn, Azərbaycan əlifbasındakı "ə" hərfi bir çox xalqlarda yoxdur və bu, problem yaradır. Onun qarşılığı kimi "a" hərfinin üstündə iki qoşa nöqtə qoymaqla eyni səsi ifadə etmək olur. Belə əvəzetmə dünya dilçilik praktikasında qəbulolunandır.

Türkdilli əlifbanın üstünlüklərindən biri də odur ki, burada diftonq səslər yoxdur. Yəni, hər qrafik işarə yalnız bir səsi ifadə edir. Biz almanların əlifbasına baxdıqda görürük ki, 4 hərf bir səsi, ingilis dilində 2-3 hərf bir səsi bildirir. Lakin Azərbaycan əlifbasında olmadığı kimi, ortaq türk əlifbasında da belə diftonqlarla rastlaşmayacağıq.

**– Latın qrafikalı Azərbaycan əlifbası 32 hərfdən ibarətdir. Ortaq Türk Əlifbasında isə bu hərflərin sayı 34-dür.**

– 34 hərfin qəbul edilməsi o anlama gəlmir ki, biz onların hər birindən istifadə edək. Azərbaycan əlifbasının 32 hərfini yeni əlifba tam əhatə etdiyi üçün əlavə 2 hərfdən istifadə etmək məcburiyyətimiz yoxdur. Bu, digər türk xalqları üçün də keçərlidir. Türkiyənin əlifbasında 29 hərf var və onların da 34 hərfin hər birindən istifadə etməsi vacib deyil. Üstünlük odur ki, digər hərfləri bilməklə türkdilli xalqların ifadə etmək istədiyi mətni oxuya biləcəyik. Belə görünür ki, yeni əlifba yoxdur, türkdilli xalqların istifadə etdikləri ortaq hərflər bir sistem halında toplanıb. Biz əksər görüşlərimizdə bu qənaətə gəldik ki, ortaq türk əlifbasının yaradılması üçün ən uğurlu olan latın qrafikalı Azərbaycan əlifbasıdır. Çünki latın qrafikalı əlifbada bütün səslər tam olaraq yüksək səviyyədə ifadə edilib, yəni təmiz əlifbadır. Burada bir hərf bir səsi ifadə edir. Dildə qrafik işarənin eyni səsi ifadə etməsi qədər mükəmməl hərf sistemi Azərbaycan əlifbasında var.

**– Latın qrafikalı Azərbaycan əlifbasında olmayıb, ancaq ortaq türk əlifbasında olan hərflər hansılardır?**

– Bunlardan biri "sağır nun", digəri isə "ä" hərfidir. Əslində, "sağır nun" bizə yad deyil və əvvəllər də dilimizdə olub. Hətta indinin özün də belə Azərbaycanın Qərb rayonlarında şifahi nitqdə istifadə edilir. Səməd Vurğunun məşhur şeirlərinin birində ifadə etdiyi "Mən bir uşaq, sən bir ana, odur ki, bağlıyam sana" beytindəki son söz olan "sana" "sağır nun"un təsiridir. Bu səsin yenidən ortaq türk əlifbasında bizə qayıtması heç bir problem yaratmır. Türk xalqlarının ortaq əlifbasının əsas qayəsi odur ki, eyni xalqlar ortaq əlifbadan istifadə etməklə bir-birlərini başa düşsünlər.

**– Ortaq Türk Əlifbasının yaradılmasında türk xalqlarının hər biri eyni ideya, oxşar təkliflə çıxış edə bildilərmi? Masadan kənarda qalan oldumu?**

– Bu yerdə təəssüflə qeyd etməliyəm ki, türkmənlər bu ortaqlıqdan bir qədər kənarda qaldılar, "yaxalarını geri çəkdilər". Nəzərə alsaq ki, Türkmənistan qapalı dövlətdir və heç kim onları sorğulaya bilməz ki, niyə bu layihədə yaxından iştirak etmədiniz. Həmçinin müstəqil olmayan Türk dövlətləri var ki, ortaq əlifba hələlik onlara da aid deyil.

**– Ortaq Türk Əlifbası həyatımıza daxil olur və türk xalqları bir-birini yazıb oxuya biləcək. Amma düşünürük ki, biri digərini tam olaraq başa düşməyəcək. Çünki ortaq dil yoxdur, əlifba var. Nadir müəllim, sizcə, ortaq dilin yaranması gələcəkdə mümkün ola bilərmi?**

– Əslində, olduqca maraqlı və eyni zamanda bir çox yüksək tribunalarda səsləndirilmiş sualdır. Reallıq budur ki, bu, mümkün ola biləcək hadisə deyil. Onda belə çıxır ki, esperanto dil yaradılsın, bu da süni olar, doğru olmaz. Bir az özbək, bir az qazax, bir az Azərbaycan, bir az da digər türk dövlətlərinin dilindən söz götürməklə dil yaratmaq olmaz. Qarşıdurmalar qaçınılmaz olar. Çünki hər xalqa öz dili doğmadır və hər dövlət istəyəcək ki, onun dilinin sözləri əsas baza olsun. İnsanlara yeni dil öyrətmək də çox çətin olacaq. Amma ünsiyyət dili ətrafında düşünmək olar. Burada da iqtisadi cəhətdən güclü olan və təbliğ edilən ölkənin dili əsas olacaq. Bu mənada Türkiyə türkcəsi teleseriallar vasitəsilə bütün Orta Asiyaya nüfuz edib, hətta beynəlxalq danışıqda da istifadə edilir. Zaman özü sübut edir ki, Türkiyə türkcəsi daha qüdrətlidir. Bu mənada ünsiyyət dili kimi Türkiyə türkcəsi qəbul edilə bilər, amma ortaq türk dili məsələsi mümkün deyil. Həm də bu gün ortaq türk dili məsələsi də yoxdur.

**– Ortaq Türk Əlifbası ilə bağlı, nəhayət, ortaq məxrəcə gəlinməsi nəyin sübutu oldu?**

– Birmənalı şəkildə bu, türk xalqlarının bir-birinə daha da yaxınlaşmasının, dostlaşmasının, qüdrətlənmələrinin, müstəqil siyasət yeritmələrinin nəticəsidir. Ortaq əlifba bu əlaqələri daha da gücləndirəcək. Bu da bir çox sahələrin inteqrasiyasını sürətləndirəcək. Çox şey əlifbadan başlayır. Uşaqlar məktəbə gedəndə 1-ci sinifi əlifbadan başlayırlar. Əlifba özəkdir.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Azərbaycan – Özbəkistan müttəfiqliyinin məfkurə qaynaqları

**Bir ulu Atanın və Ananın övladları olan türk xalqları imperialist dairələrin zaman-zaman "parçala – hökm sür" siyasətinin məhrumiyyətlərinə sinə gərərək milli varlıqlarını qeyrətlə qorumuş, tarixi yaddaş üzərində ortaq dəyərləri günümüzədək yaşatmışlar. Zəmanəmizdə isə türk dünyasının hərtərəfli birliyi və həmrəyliyi xəyal və arzulardan güc alaraq davamlı olaraq gerçəkliyə çevrilir.**



Artıq qardaş xalqların həyatındakı əlamətdar hadisələr ortaq təntənələrə çevrilir, ümumi hədəflər miqyas və çevrəsini getdikcə daha da genişləndirir. 30 illik bir dövrdə Azərbaycanın qanlı yarasına çevrilmiş Qarabağ münaqişəsi Türk dünyasında da böyük ağrı doğurmuş, ərazilərimizin Vətən müharibəsi yolu ilə düşməndən təmizlənməsi isə ümumtürk zəfərinə çevrilmişdir. Azərbaycan – Özbəkistan dostluq və qardaşlığının son dövrdə yeni mərhələyə daxil olması ümumtürk birliyinə növbəti birgə töhfə olmaqla, ölkələrimiz arasında əməkdaşlığa strateji tərəfdaşlıq məzmunu gətirmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz bu yüksəklikdə münasibətləri hədəfə alaraq müstəqilliyin ilk illərində Özbəkistana rəsmi səfəri zamanı 2 ölkə arasında yeni şəraitdə formalaşan əlaqələrin timsalında türk dövlətləri arasında başlayan inteqrasiya prosesinin zəruriliyinin təkcə siyasi ehtiyacdan deyil, həm də mənəvi tələbatdan yarandığını vurğulamışdı.

Ulu öndər bildirmişdi ki, ötən iki əsrdə xalqlarımız dövlətçiliyini itirsə də, azadlıq və müstəqillik düşüncəsini milli yaddaşda qoruyub saxlamışdılar: "Xalqlarımız zəngin və qədim tarixə malikdirlər. Bəşər tarixinin əsrləri ərzində özbək və Azərbaycan xalqları dünya sivilizasiyasına, Şərq sivilizasiyasına nəhəng töhfələr vermişlər. Orta əsrlərdə və daha əvvəllər Şərqdə insan zəkası ilə elmdə yaradılanların hamısı bütün planetdə bəşər fikrinin inkişafında olduqca böyük rol oynamışdır. Dövlət müstəqilliyi şəraitində biz öz həyatımızı istədiyimiz kimi, milli ənənələrimiz, mənəvi dəyərlərimiz əsasında, görkəmli əcdadlarımızdan qalmış böyük elmi, mənəvi irs əsasında qura bilərik".

Ötən illərdə dövlətlərimiz və xalqlarımız həyatın bütün sahələrində təmasları dərinləşdirərək hərtərəfli əməkdaşlığın çevik, səmərəli, faydalı şəbəkəsini qurmuşlar. Xalqlarımızın həyatındakı önəmli hadisələr hər iki ölkədə və birgə keçirilən təntənələrdə eyni doğmalıq və təntənə ilə qeyd edilir.

Bu günlərdə dost və qardaş ölkənin Cizzax Dövlət Pedaqoji Universitetinin 50 illik yubileyi də ölkəmizdə qardaşlıq duyğuları ilə qarşılanır. Özbəkistanın bu ali təhsil müəssisəsini biz həm də regionda tanınan elmi-tədqiqat mərkəzi kimi tanıyırıq. Universitet yarıməsrlik yubileyinə qardaş ölkənin təhsil müəssisələri üçün gərəkli pedaqoji kadrlar hazırlamaqla, yüzlərlə elmi-tədqiqatların məhsuldar nəticələrini ortaya qoymaqla, ölkənin ictimai həyatında fəal iştirakı ilə gəlib.

Ali məktəbin 800-ə yaxın professor-müəllim heyəti yetirmələrini təkcə günün reallıqları ilə deyil, həm də tarixi keçmişin dərsləri ilə tərbiyələndirib. Cizzax Dövlət Pedaqoji Universiteti Özbəkistanda deyil, onun sərhədlərindən uzaqlarda da şərəfli müəllim adını yüksəldən onminlərlə müəllim yetişdirib. Həmin müəllimlər ordusunun hər bir üzvü çevrəsinə ziya saçıb, Stalin repressiyalarında həyatını itirmiş görkəmli özbək yazıçısı Abdulla Qədiri kimi milli kimliyin təsdiqi üçün çalışıb.

Universitet fəaliyyətinin ilk vaxtlarından özbək dili və ədəbiyyatının öyrədilməsini prioritet istiqamət seçib və ötən müddət ərzində bu istiqamətdə ardıcıl tədqiqatlar aparıb. Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfdaş elm-təhsil qurumu kimi Cızzaxdakı həmkarlarımızın 50 illik nailiyyətlərini öz uğurumuz kimi qəbul edirik.

Cizzax Dövlət Pedaqoji Universiteti ilə bundan sonrakı əməkdaşlığımız həm pedaqoji, həm də elmi tədqiqatlarda hər iki tərəf üçün məhsuldar olacaq. Fəaliyyətini 12 fakültə, 28 istiqamət və 35 şöbədə quran pedaqoji universitet ancaq 21 minə yaxın tələbənin pedaqoji və elmi işçilər kimi yetişməsi üçün deyil, onların hər birində bəşəri idealların, ümumtürk məfkurəsinin formalaşdırılması kimi missiyanın daşıyıcısıdır.

Milli-mənəvi dəyərlərimizin tarixi əsası orta əsrlərdən bəri böyük Nizami və Əlişir Nəvai, Məhəmməd Füzuli və Məhəmməd Babur, Nəsimi və Munis Xorəzmi, eləcə də digərlərinin yaradıcılığında formalaşıb və xalqlarımızı zaman-zaman bir-birinə yaxınlaşdırıb. Bu yaxınlıq əsrlər keçsə də, təkcə mövzu və ideya baxımından deyil, həm də Azərbaycan və özbək ədəbiyyatının klassik nümunələrindəki janr eynilikləri ilə də diqqəti çəkir.

Bu ortaq ideya və çağırışları şifahi və yazılı xalq yaradıcılığında – lakonik atalar sözləri və məsəllərdə olduğu kimi, nağıl və dastanların səsləndirildiyi epik janrlarda da görmək olur. İstər "Kitabi- Dədə Qorqud" və ya "Alpamış-Batır", "Koroğlu" və "Qoroğlu"da, istərsə də "Ağ atlı oğlanın nağılı" və "Kuntuqmış", "Tahir və Zöhrə" və yaxud "Şirin və Şokar" kimi ənənəvi süjet klişelerində bu bənzərlik heyrət doğuracaq səviyyədədir.

Milli mentalitet cizgiləri bu nümunələrin mahiyyətində yaranıb və formalaşıb. Hər iki xalqın daşıdığı dəyərlər ilk olaraq onların xalq yaradıcılıq nümunələrində, sonradan yazılı ədəbiyyatda, müxtəlif incəsənət əsərlərində boy verib. İctimai-siyasi formasiyalar dəyişsə də, dəyərlər və onun qidalandığı xalq yaddaşı deformasiyaya uğramadan qorunaraq saxlanılıb. Ən yaxın tariximizin faktları da bu prosesin davamlı olduğunu təsdiqləyir.

Yeri gəlmişkən, Azərbaycanın görkəmli yazıçısı, ictimai-siyasi xadim Mirzə İbrahimovun ötən əsrin 70-ci illərində Azərbaycan – Özbəkistan dostluğundan bəhs edən "Böyük dostluq" yazısında bu prosesin qaynaqları barədə danışılır. Müdrik nasir bunun köklərini bütün zamanların sınağından çıxmış kulturoloji qatlarda axtarırdı: "Türk dünyasının nəhəng fikir adamlarından biri, filosof-dramaturq Hüseyn Caviddən türklüyün mahiyyətini əxz edən Maqsud Şeyxzadənin taleyində bu bağlılığın əsaslarını görə bilirik".

"Mirzə Uluqbəy" əsərində zaman-zaman səslənən müxtəlif suallara cavab verən Maqsud Şeyxzadə Abdulla Qədiri kimi Stalin repressiyasının girdabına düşsə də, 25 illik sürgünlükdən sonra ikinci Vətən seçdiyi Özbəkistanda ayaq üstə dayana bildi. Bu, həmin Şeyxzadədir ki, 1997-ci il iyun ayının 18-də Azərbaycan Prezidenti Heydər Əliyev onu indiki nəsillərə belə tanıdırdı: "Maqsud Şeyxzadə, həqiqətən, görkəmli insan, Özbəkistanda özünə vətən tapmış və özündən sonra çox böyük irs qoyub getmiş azərbaycanlıdır".

Azərbaycanda olduğu kimi, qardaş Özbəkistanda da ziyalılar, xüsusən cəmiyyətlə gündəlik təmasda olan müəllimlər əcdadlarımızın mirası olan böyük elmi, mənəvi irs əsasında inkişafın nə qədər həyati əhəmiyyətli olduğunun fərqindədirlər. Bu ənənənin kökündə XXII əsrdə türk dünyasının və ümumilikdə, Şərqin ən böyük dəyərlər daşıyıcısı olmuş Nizami Gəncəvinin, ondan 250 il sonra Türküstanda, sivil dünyanın ən mütərəqqi ideallarını əsərlərində ifadə etmiş Əlişir Nəvainin formalaşdırdığı ideyaların ölməzliyi dayanır.

Sonrakı dövrdə Teymurilər intibahı incəsənət və elmin çiçəklənməsi dövrü kimi tarixə düşüb. Babası Əmir Teymurun siyasətini davam etdirən hökmdar Uluqbəyin adı isə tarixə müsəlman-türk dünyasında dinə tərəqqi amil kimi baxan azsaylı hökmdarlardan biri kimi yazılıb.

Əsrlər keçəndən sonra, 2023-cü ildə işğalçı Ermənistanın xarabazara döndərdiyi Füzuli şəhərinin bərpası zamanı burada ilk ümumtəhsil məktəbi binasının məhz qardaş Özbəkistan dövlətinin tikərək hədiyyə etməsinin böyük rəmzi mənası var. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyevanın məktəbin açılış mərasimində iştirakı bu hədiyyənin mənəvi dəyərinə verilən qiymət idi. Azərbaycan liderinin dediyi kimi: "Bu məktəb Özbəkistan–Azərbaycan dostluğunun, qardaşlığının bir mərkəzi olacaq".

Azərbaycan Prezidentinin Özbəkistana sonuncu səfəri çoxəsrlik dostluq münasibətlərimizin inkişafında tarixi hadisə oldu. səfər zamanı dövlətlərimiz arasında müttəfiqlik münasibətləri haqqında müqavilə imzalandı. Qardaş ölkənin lideri Şavkat Mirziyoyev həmin sənədi belə təqdim etdi: "Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni fəslin başlanması ilə əlamətdardır. Biz bununla çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik. Bu gün biz tarix yazdıq. Bu tarix iki yaxın xalqın - Azərbaycan və Özbəkistan xalqlarının rifahında öz əksini tapacaq".

Azərbaycan Prezidenti İlham Əliyevin dediyi sözlər isə Azərbaycan – Özbəkistan dostluq və qardaşlığının əbədi yönünü və məzmununu ifadə etdi: "Biz bu gün Daşkənddə münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək".

*Mahirə HÜSEYNOVA,*
*ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru,*
*filologiya elmləri doktoru, professor*

Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı

# Musiqi bayramının akkordları



**Artıq 6 gündür ki, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümünə həsr olunan Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı davam edir.**

Festival çərçivəsində Bakıda və bölgələrdə, açıq və qapalı məkanlarda konsertlər, tamaşalar, sərgilər, elmi konfrans, ustad dərsləri keçirilir. ABŞ, Almaniya, Xorvatiya, Avstriya, Türkiyə, Rusiya, Koreya Respublikası, İspaniya, Braziliya və digər ölkələrdən solist və bədii kollektivlər də festivalda iştirak edirlər.

Bu beynəlxalq musiqi festivalı 15 ildir ki, ənənə halını alıb. Budəfəki festivalın da proqramı rəngarəng və zəngindir. Açılış mərasimi və öncəki tədbirləri qəzetimizdə ətraflı işıqlandırmışdıq. Sonrakı günlərdə baş verənlər də musiqisevərlərə unudulmaz təsir bağışlayıb. Şuşada festival çərçivəsində görkəmli bəstəkar, dirijor və pedaqoq, Xalq artisti Süleyman Ələsgərovun 100 illik yubileyinə həsr olunan konsert maraqla qarşılanıb. Azərbaycan Dövlət Xalq çalğı Alətləri Orkestri (bədii rəhbər və baş dirijor Ağaverdi Paşayev) möhtəşəm musiqiləri ifa edib. Şənbə günü isə mədəniyyət paytaxtımızda, Üzeyir bəyin heykəlinin qarşısında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppası dahi bəstəkarın "Leyli və Məcnun" operasını canlandırıb.

Gəncə Dövlət Filarmoniyasında Rusiyadan gəlmiş "Universum" dueti konsert verib. Pianoçular Daniil Kirillov və Anna Rasinanın virtuoz ifaları alqışlarla müşayiət olunub. Qəbələ Rayon Mədəniyyət Mərkəzində bədii rəhbəri Xalq artisti, professor Fərhad Bədəlbəyli, baş dirijoru Əməkdar artist Fuad İbrahimov olan Bakı Kamera Orkestri çıxış edib. Solistlər Yeganə Axundova (piano) və Nəzrin Aslanlının (violin) müşayiəti ilə Gülnaz İsmayılova (soprano) və Mahir Tağızadə (bariton) öz istedadlarını göstəriblər. Tamaşaçılar Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini dinləyiblər. Şəmkirdə isə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının xor qrupu (xormeyster Naala Baratelia) zövqləri oxşayıb.

Beynəlxalq Muğam Mərkəzində kamera musiqisi axşamında "Ros Unicus" Avstriya–Azərbaycan dueti – violin ifaçısı Fərid Feyzullayevlə pianoçu Jalə Rəsulova gözəl performans nümayiş etdiriblər. Orada həmçinin "Les Essences" (Almaniya) Azərbaycanın tanınmış bəstəkarı, violin ifaçısı, Əməkdar artist Fərhəng Hüseynovun 75 illik yubileyini konsert proqramı ilə dəyərləndirib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Almaniyadan gəlmiş ünlü sənətkar Les Essencesin ustad dərsi gənclərdə böyük maraq doğurub. Xəzər Universitetinin Fikrət Əmirov adına konfrans-konsert mərkəzində isə bu təhsil ocağının kamera orkestri alqışlarla qarşılanıb. Kollektivin bədii rəhbəri Zülfiyyə Sadıqova, dirijoru Meri Çeminavadır. Filarmoniyada Yalçın Adıgözəlzadənin dirijorluğu ilə Koreyanın "Kavatina" kvarteti çıxış edib.

Dünən axşam Kamera və Orqan Zalında Səid Rüstəmov adına Xalq çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor Mustafa Aşurov) uğurlu çıxışı olub. Eyni zamanda Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Dyagilev – zaman(lar) aşırımında" layihəsi təqdim edilib. Georq Blümlün səhnə konseptini rəqqaslar Vladimir Varnava və Diana Mukhamedşina canlandırıblar. Bu səhnədə bir həftə ərzində Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" (100-cü dəfə), "Leyli və Məcnun" "Arşın mal alan", "Ər və arvad" tamaşaları anşlaqla keçib.

Xatırladaq ki, Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalına sentyabrın 28-də yekun vurulacaq. Qarşıdakı günlərdə də sənətsevərləri maraqlı təqdimatlar gözləyir.

*Ə.DOSTƏLİ*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 209 (30613) 25 sentyabr 2024-cü il, çərşənbə

# Belarusda 5 boks medalı

**Belarusun Jabinka şəhərində keçirilən yeniyetmə boksçular arasında beynəlxalq turnirə yekun vurulub.**



Azərbaycan millisi yarışı 5 medalla başa vurublar. Bütün rəqiblərinə qalib gələn İmran Axundov (52 kq), Şahin Aslanov (60 kq) və Səfdər Məmmədzadə (+80 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Nihat Qasımovla (50 kq) Haqverdi Həsənov (63 kq) gümüş, Sübhan Babayev (57 kq) və Əflatun İsmiyev (54 kq) isə bürünc medal qazanıblar.

# Tbilisidə 1 gümüş

**Atletika üzrə Azərbaycan millisinin üzvü Anna Yusupova "Tbilisi Marathon 2024" yarışında uğurlu çıxışı ilə yadda qalıb.**



Azərbaycan Atletika Federasiyasından (AAF) verilən məlumata görə, yığma üzvü gümüş medal qazanıb. O, yarımmarafon qaçışında 1:24:37 nəticə göstərib.

# Budapeştdə 1 qızıl, 2 gümüş

**Azərbaycanın yeniyetmə karateçiləri Macarıstanda keçirilmiş "Budapeşt Open" beynəlxalq turnirində uğurla çıxış ediblər.**



İdmançılarımız yarışda 3 medal qazanıblar. Kata üzrə yeniyetmələr arasında (14-15 yaş) Şəlalə Rüstəmova bütün rəqiblərinə qalib gələrək qızıl, gənclər arasında (16-17 yaş) Ramilə Heydərova isə gümüş medal qazanıblar. Yeniyetmə oğlanlar arasında (14-15 yaş) Raul Səfərəliyev +70 kiloqram çəki dərəcəsində fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Qeyd edək ki, beynəlxalq karate turnirində 42 ölkədən 2191 iştirakçı medallar uğrunda mübarizə aparıb.

*L.SABİRQIZI*
*XQ*

İdman: uğurlar, hədəflər

# Qızlarımız niyə Olimpiya mükafatçısı olmasınlar?!

**Hər olimpiada başa çatan kimi, növbəti mötəbər dördilliyə hazırlıq başlayır, yeni hədəflər müəyyənləşdirilir. Bu baxımdan "Paris-2024"də əldə edilən nəticələr federasiyaların, idman cəmiyyətləri və digər müvafiq qurumların diqqət mərkəzindədir. Elə mətbuatda da idmançılarımızın olimpiadada çıxışı geniş işıqlandırıldı, hazırda bu barədə araşdırmalar davam edir.**



Paris Olimpiadasında yarışan 48 idmançıdan 19-nun qadın olması Azərbaycanın Olimpiya Oyunları tarixində ciddi uğur idi. Daha bir böyük uğur komanda idman növlərində ilk dəfə təmsilçiliyimiz idi. Özü də bu nailiyyət məhz qadın basketbolçularımızın payına düşmüşdü. Təəssüfləndirici məqam isə qadınlarımızın olimpiadada medal qazanmaması oldu.



Ötən Oyunlara nəzər salsaq, "Sidney-2000" də daxil olmaqla bütün olimpiadalarda qadın təmsilçilərimiz mükafata layiq yerləri tutmağı bacarıblar. Amma 2000 və 2004 olimpiadalarında medal qazanan Zemfira Meftahetdinova və İradə Aşumova istisna olmaqla, bütün iştirakçılar legioner idmançılar olublar. Tokioda 7 medalın 3-ü qadınların payına düşüb. Ən çox medal isə güləş idman növündə əldə edilib. Milli idman növümüzdə legioner qadın pəhləvanların ciddi uğurları diqqət çəkir. Elə bir Mariya Stadnikin 4 olimpiadada ardıcıl, 2 gümüş, 2 bürünc medalını xatırlamaq kifayətdir.

Bəs milli idman növümüz olan güləşdə qızlar arasında Olimpiya ümidlərimiz yetişirmi? 17 və 20 yaşadək qızlardan ibarət yığmanın böyük məşqçisi Rövşən Umudov növbəti Yay Olimpiya Oyunlarında qızlarımızın iştirakı ilə bağlı gözləntilərini açıqlayaraq qızların güləşə az maraq göstərdiklərini bildirdi:

– Axın çox azdır. Əlimizdə olan idmançılarla kifayətlənməliyik. Buna, dəmək olar ki, nail oluruq. Bu il 17 yaşlıların dünya çempionatında millimiz 3 bürünc medal qazanıb. Bu isə, medalların sayına görə, son 9 ilin ən yaxşı nəticəsidir. Eləcə də, 20 yaşlılarda komandamızın üzvləri yaxşı nəticələr göstəriblər.

Məşqçi Güləş Federasiyası tərəfindən qız idmançıların yetişməsi üçün lazımi şəraitin yaradıldığını bildirdi. Lakin qadın güləşinə axın olmadığı üçün məşqçilərin əziyyət çəkdiyini vurğuladı:

– Regionlardan bizə 1 güləşçi verəndə sevinirik. Yığmaya ən çox Gəncə Təhsil Məktəbindən güləşçilər gəlirlər. Onu da deyim ki, bu uşaqları 0-dan yetişdiririk. Onları qoruyub saxlamaq, zədə, dözümlülüklə bağlı problemlər çətinliklər yaradır. Yaxşı olar ki, hər həftəsonu roliklər paylaşılsın. Artıq Avropa, dünya çempionatında qızlarımız mükafatlar alıblar. Bu medalları necə əldə ediblər. Onlar nələr qazanıblar. Bu barədə reklam xarakterli roliklər olsa yaxşı olar. Cəmiyyətlərdə 2–3 qız var. Lakin onların sparrinq partnyoru yoxdur ki, məşq etsinlər. Belə olanda bizə müraciət edirlər. Zala gəlirlər. Əvvəl həftədə bir neçə dəfə, amma göstəriciləri yaxşılaşırsa, daimi məşqlərə cəlb edirik. Onların üzərində işləyirik.

**Rövşən Umudov əsas problemin qızlar arasında respublika çempionatının keçirilməməsi olduğunu dedi:**

– Zalımızda məşqçilər yüksək səviyyəlidir. Hazırlıq prosesinin lazımi səviyyədə aparılması üçün hər birimiz ciddi səy göstəririk. Ən böyük problem qadınlar, qızlar arasında ölkə çempionatının keçirilməməsidir. Yaxşı olar ki, gələn ildən hər yaş qrupundan neçə idmançı olursa-olsun, onları cəlb edib ölkə çempionatlarını keçirək. Belə olsa, regionlarda məşqçilər hərə hər çəki dərəcəsində, heç olmasa, bir idmançı verməyə çalışar. O zaman biz də öz məqsədimizə nail ola bilərik.

Gəncə Şəhəri Gənclər və İdman İdarəsinin sərbəst güləş üzrə məşqçi müəllimi, Azərbaycanın ilk beynəlxalq qadın hakimi Sevinc Yusibovanın fikirləri də maraqlıdır:

– Bizim vaxtlarda qızların idmanla məşğul olmasına daha pis baxırdılar. Deyirdilər ki, qız nədir, idman nədir. Son illər qızlar arasında idmana, güləşə maraq xeyli artıb. 10–11 yaşlı uşaqlar arasında bu idman növünə axın daha çoxdur. Adətən, 15–16 yaşa çatanda isə əksər valideynlər qızlarını güləşdən ayırırlar. Çünki övladlarının ailədən uzaqda, yığmada məşğul olmasına razı olmurlar. Şübhəsiz, burada mentalitet, adət-ənənə öz rolunu oynayır. Hazırda Mədinə Kərimova adlı bir qızla məşğul oluram. Atası kənardan deyilən heç bir sözə məhəl qoymayaraq qızını güləşə qoydu və onun hazırlığını davam etdirməsi üçün dəstəkləyir. Belə valideynlər çox azdır.

ABŞ-nin Dallas şəhərində qız güləşi proqramı ilə bağlı təlimdə iştirak etdik. Orada orta məktəbdə ayrıca güləş dərsləri də keçirilir, qızları böyük həvəslə güləşə qoyurlar. Düşünürəm ki, qadın məşqçilərin, hakimlərin, mütəxəssislərin sayını artırmalıyıq. Uşaq, gənclər idman məktəblərində, cəmiyyətlərdə, eləcə də yığmada qadın məşqçilər daha çox çalışmalıdırlar. Bu, qızlarımızın idmana cəlb edilməsində də böyük rol oynaya bilər.

Oğlanlardan ibarət sərbəst güləş komandamız, eləcə də yunan-Roma güləşi üzrə yığmamız dəfələrlə yüksək nəticələr əldə edərək dünya və Avropa çempionatlarında ümumi komanda hesabında qalib adını qazanıblar. Şübhəsiz, bu nəticələr onların Olimpiya Oyunlarında da fərqlənməsi üçün geniş imkanlar yaradır. Qızlarımızdan Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında yüksək nəticə gözləyiriksə, mütləq onların güləşlə kütləvi şəkildə məşğul olmasına nail olmalıyıq. O zaman dünya, Avropa və Olimpiya mükafatçıları olacaq qızlarımız yetişəcəklər.

*Leylə URBANOVA*
*XQ*

# "Son bahar"ın iliq günləri

## *Bəzi yerlərdə arabir yağış yağacaq*

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi arabir güclənəcək. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Havanın temperaturu gecə 16-20° isti, gündüz 23-26° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yük-



sək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam əksər rayonlarda yağıntılarda fasilə olacaq. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 15-19° isti, gündüz 25-30° isti, dağlarda gecə 5-10° isti, gündüz 11-16° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



# "Asteroid kabusu" təhlükəlidirmi?

**NASA kosmik agentliyi Yer kürəsində həyatı məhv edə biləcək asteroidlərin siyahısını dərc edib. Mütəxəssislərin fikrincə, sonuncu böyük asteroid 66 milyon il əvvəl Yerlə toqquşub və bu, böyük ehtimalla dinozavrların yox olmasına səbəb olub.**

Ekspertlər kosmosda potensial təhlükələrə qarşı davamlı monitorinq aparırlar. Bununla belə, adları çəkilən asteroidlərin əksəriyyəti üçün Yerlə toqquşma ehtimalı sıfır olaraq qiymətləndirilir. Buna baxmayaraq, belə bir siyahı tərtib olunur. Böyük bir asteroidin yaxınlaşması zamanı, məsələn, onun trayektoriyasını dəyişdirmək üçün onu vuraraq, əvvəlcədən planlaşdırmaq üçün səylər göstərilir. NASA-nın müşahidə etdiyi ən təhlükəli asteroidlərdən bəziləri aşağıdakılardır.

Bennu hazırda ən təhlükəli asteroid hesab olunur, çünki o, Yerə ən böyük zərbə riski yaradır. Düzdür, bu zərbə 150 ildən tez baş verə bilməz. Hazırda 24 sentyabr 2182-ci ildə Bennunun Yerlə toqquşması ehtimalı 2700-də 1 nisbətindədir.

Hörmətli oxuculara isə demək istəyirik, inşallah, hər şey yaxşı olar! Axı bütün göy cisimlərindən yuxarıda hər şeyə nəzarət edən Böyük Yaradan var!

*Anar ƏLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3924
SİFARİŞ 2176
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00